

# İrəvanda delimitasiyaya ziddiyyətli yanaşma

**Azərbaycanla sərhədin delimitasiyası və demarkasiyası məsələsində müəyyən irəliləyişin əldə olunması Ermənistanda ciddi müzakirələrə rəvac verib. Bir neçə gündür, demək olar ki, əlaqədar rəsmi şəxslər, həmçinin siyasətçilər, deputatlar bu məsələyə münasibət bildirirlər. Təbii ki, Nikol Paşinyan iqtidarının mənsubları prosesin faydalarından danışırlar. Müxalifət qüvvələri isə məsələlərə, necə deyərlər, qara eynək arxasından baxırlar.**

**(ardı 3-cü səhifədə)**





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 245 (30649) 6 noyabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## "ASAN xidmət" "yaşıl" mənbə ilə işləyəcək




Səhifə ⇨ 8

## Milli varlığımızın telegüzgüsü



Səhifə ⇨ 10

# Dünya siyasətinin TDT faktoru

*Nəzərlər Bişkekə yönəlir*

**Noyabrın 6-da Bişkekdə Türk Dövlətləri Təşkilatının (TDT) 11-ci sammiti keçiriləcək. Toplantı qurumun Türk dünyasının güclənməsinə yönəlmiş strateji prioritetlərini əhatə edəcək. "Anadolu" agentliyi xəbər verir ki, bunu TDT-nin baş katibi Kubanıçbek Ömürəliyev Bişkek Sammitinin gündəliyini şərh edərkən deyib.**



K.Ömürəliyev bildirib ki, sammitdə əsas diqqət iqtisadi inteqrasiya, dayanıqlı inkişaf, rəqəmsal transformasiya və təhlükəsizlik olmaqla, dörd əsas istiqamətə yönələcək. İqtisadi sahədə üzv ölkələr arasında rəqəmsal ticarəti asanlaşdıracaq, biznesin ümumi rəqəmsal çərçivədə daha səmərəli fəaliyyətinə imkan yaradacaq Rəqəmsal iqtisadi tərəfdaşlıq sazişinin imzalanması gözlənilir.

Baş katibin sözlərinə görə, sammitin dayanıqlı inkişaf gündəliyi də eyni dərəcədə iddialıdır. TDT Türk Yaşıl Maliyyə Şurasının yaradılması və Türk Yaşıl Baxışının qəbul edilməsi yolu ilə "yaşıl maliyyə" və ekoloji menecmenti təşviq etmək niyyətindədir. Bu təşəbbüslər bərpa olunan enerjidən başlayaraq, dayanıqlı şəhər inkişafına qədər, bir çox ekoloji layihələrə investisiya qoyuluşunu təmin edəcək.

"Rəqəmsal transformasiya sahəsində həyata keçirilməsi planlaşdırılan Böyük Türk dili modeli və Yer müşahidə texnologiyası peyki kimi layihələr texnoloji imkanları artıracaq və bütün regionda ətraf mühitin monitorinqi, rəqəmsal bağlantı və innovasiyalar kimi sahələrdə fayda gətirəcəkdir,"– deyə cənab Ömürəliyev vurğulayıb. Onun sözlərinə görə, üzv ölkələr arasında fövqəladə hallara və fəlakətlərə koordinasiyalı cavab tədbirlərinin təmin edilməsinə yönəlmiş Mülki müdafiə mexanizmi haqqında sazişin imzalanması ilə təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi gözlənilir.

Baş katib onu da bildirib ki, TDT ölkələri nəqliyyat, infrastruktur və təhlükəsizlik sahələrində əməkdaşlığın inkişafı ideyasına sadiqdirlər. Onun sözlərinə görə, Orta dəhliz layihəsinin inkişafı üzrə birgə səylər türk regionunu Asiya və Avropa arasında ticarət üçün kritik arteriyaya çevirəcək. O, qarşıdan gələn sammitdə bu məsələdə yeni layihələrin də təqdim olunacağını vurğulayıb: "Xidmətlər və investisiyaların azad ticarətinə dair saziş üzərində də iş aparılır və regionda pul-kredit siyasətinin uyğunlaşdırılması və maliyyə sabitliyinin artırılması üçün TDT-yə üzv ölkələrin Mərkəzi Milli Bankları Şurasının yaradılması planlaşdırılır. Bütün bu strateji layihələr özünü qlobal ticarət yollarının mühüm halqası kimi təqdim edən yaxşı əlaqələndirilmiş, rəqabətədavamlı türk regionu yaratma baxışının bir hissəsidir".

**(ardı 3-cü səhifədə)**

# Türk dünyası ortaq dəyərlərə sədaqətdən güc alır

## Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfərə gəlib.**

Bişkek şəhərinin "Manas 2" Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri – Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşıladılar.

# Tramp, yoxsa Harris?

*İndi təkcə amerikalıların deyil, bütün dünyanın diqqəti məhz bu suala veriləcək cavaba yönəlib*



**Birləşmiş Ştatların elektoratı qarşıdakı 4 il ərzində dünyanın supergücünü idarə edəcək Prezidenti və vitse-prezidenti seçir. Seçkilərdə revanş götürməyə qərarlı görünən respublikaçı Donald Tramp və iqtidardakı partiyanın namizədi demokrat Kamala Harris arasında güzəştsiz və gərgin mübarizə gedir. Yerli media seçiciləri səsvermədə fəallıq göstərməyə çağırmaqla məşğuldur.**

**(ardı 4-cü səhifədə)**

# *ANEWZ:* Sürpriz gözlənilmir

*Yeni televiziya kanalı Bakı və İrəvan arasında sülh müqaviləsi barədə*




**"Salam, bu, Bakıdakı ANEWZ xəbər departamentindən sizinlə danışan Orxan Amaşovdur. Ən son xəbərləri sizə təqdim edirik. Diplomatik mənbə bizə bildirdi ki, Azərbaycan və Ermənistanın yaxın günlərdə sülh müqaviləsi imzalamaq şansı azdır və bu ay ərzində diplomatik sürpriz gözləməyə əsas yoxdur. Tərəflər COP29-dan sonra danışıqları davam etdirəcəklər. Bakıda BMT-nin İqlim Dəyişikliyi Konfransı keçiriləcək. Ermənistanın sammitdə iştirak edib-etməyəcəyi ilə bağlı qətiyyən aydınlıq yoxdur. Əgər belədirsə, onun təmsilçiliyinin miqyası hələ də sirr olaraq qalır".**

XQ xəbər verir ki, ANEWZ kanalının baş redaktor müavini, aparıcı Orxan Amaşov "Son xəbər" verilişindəki bu açıqlamasının davamında bildirib:

"Bu, Azərbaycan və Ermənistan liderlərinin Kazanda keçirilən görüşündən sonra beynəlxalq gözləntilərin artması fonunda sürpriz oldu və burada razılıq əldə olunacağına ümid etməyə əsas verdi. Hər iki tərəf – Bakı və İrəvan dəfələrlə bəyan ediblər ki, rəsmi olaraq Sülh və Dövlətlərarası Münasibətlərin qurulması haqqında Saziş adlanan müqavilənin mətninin layihəsi üzərində işin 80 faizi artıq tamamlanıb, lakin bəzi maneələr hələ də qalmaqdadır. O da məlumdur ki, sənəd layihəsinin 16 maddəsindən 13-ü üzrə tam konsensus əldə olunub. 3 maddədə mübahisəli məsələlər var. Azərbaycan tərəfi açıq şəkildə yalnız razılaşdırılmış maddələr əsasında sövdələşmənin bağlanmasına qarşı çıxır, Ermənistan isə aralıq saziş təklif edərək, razılaşmanın əldə oluna bilmədiyi üç müddəanın üzərindən keçir. Sual budur ki, bu müddəalar nədən ibarətdir və niyə onlarla razılaşmaq çətindir.

Həmin 3 vacib bəndin dəqiq məzmunu ictimaiyyətə tam açıqlanmasa da, onlardan birinin Ermənistan konstitusiyasının preambulasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış Qarabağ bölgəsinə hüquqi cəhətdən tətbiq edilə bilən ərazi iddiaları ilə bağlı olduğunu güman edə bilərik. Ermənistan yenə də təkid edir ki, bu məqam çoxdan gözlənilən sazişin bağlanması üçün açardır. Ermənistan tərəfi bu tələbi daxili işlərə qarışmağa bərabər hesab edir və vurğulayır ki, sazişdən irəli gələn öhdəlikləri aradan qaldırmaq üçün daxili qanunvericiliyə hər hansı istinadı inkar edən xüsusi bənd olmalıdır. Belə bir tələb əsassızdır. Bundan əlavə, İrəvan bu yaxınlarda öz konstitusiyasının preambulasında qeyd olunan 1990-cı il Müstəqillik Bəyannaməsinin hüquqi müstəvidə öhdəliyini aşağı salıb.

Orxan Amaşov sonda qeyd edib ki, Azərbaycan və Ermənistan dövlətlərarası sərhədin 12,4 kilometrlik hissəsinin delimitasiyası və demarkasiyasını həyata keçirib: "Avqustun 30-da hər iki ölkənin sərhəd xidmətləri arasında buraxılış məntəqələrinin fəaliyyəti haqqında əsasnamə təsdiq edilib. Bütün zəruri daxili prosedurlar tərəflər tərəfindən yerinə yetirilib. Əldə olunan irəliləyişlərlə bağlı, Azərbaycan hesab edir ki, üçüncü tərəfləri cəlb etməyə ehtiyac yoxdur, çünki bu, ikitərəfli əsasda tənzimlənməlidir. Ermənistan, anladığımız kimi, sazişin bir hissəsi kimi dövlətlərarası sərhəddə Avropa İttifaqı missiyasının yerləşdirilməsinin tərəfdarıdır. Görünən odur ki, danışıqların yekun mərhələsindən keçmək üçün tərəflər sırf ikitərəfli müzakirələri aktivləşdirməlidirlər. ANEWZ-dən bu qədər. Sizi məlumatlandıracağıq".

***XQ***

# Bişkekdə Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim edilib



**Noyabrın 5-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim edilib. Dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun ev-muzeyinə gəldi.**

Prezident İlham Əliyev əvvəlcə ev-muzeyi ilə tanış oldu.

Məlumat verildi ki, muzey Bişkek yaxınlığındakı “Ala-Arça” dövlət iqamətgahında - 1986-cı ildən yazıçının ömrünün son 20 ilini yaşadığı evdə yerləşir. Qırğız xalqının böyük oğlunun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayıblar.

Ev-muzeyi Çingiz Aytmatovun həyat yoldaşı Mariya Urmatovna, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də açılıb.

Çingiz Aytmatovun kiçik oğlu Eldar yazıçının hələ sağlığında evdə hökm sürmüş bütün ab-havanı və şəraiti ən xırda detala qədər qoruyub saxlamağa çalışıb. Ev-muzeyində yazıçının şəxsi əşyaları, əlyazmaları və çoxsaylı mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.

Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur.

Dövlətimizin başçısı ev-muzeyinin xatirə kitabına ürək sözlərini yazdı.

Qeyd edək ki, dünyaşöhrətli yazıçının zəngin bədii irsinə Azərbaycanda da hər zaman böyük maraq olub. Ulu Öndər Heydər Əliyev Çingiz Aytmatovu “Türk dünyasının fəxri” adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə bir nömrəli “Dostluq” ordenini Çingiz Aytmatova təqdim edib. Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə bu il aprelin 24-də Bakı şəhərində Çingiz Aytmatovun abidəsi açılıb.

Sonra Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeninin təqdim edilməsi mərasimi oldu.

Çingiz Aytmatov Fondunun prezidenti **Eldar Aytmatov** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Bu gün mən “Çingiz Aytmatov” ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndirilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir.

İcazə verin, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və Çingiz Torekuloviçin həyatını həsr etdiyi dəyərlərin təbliğində yorulmaz səylərinizə görə Çingiz Aytmatov Beynəlxalq Fondu adından Sizə dərin təşəkkürümü bildirim. İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.



Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan “Çingiz Aytmatov” ordenini təqdim edirəm. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Eldar Aytmatov:** İcazənizlə, ordeni təqdim edim.

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

Dövlətimizin başçısına “Çingiz Aytmatov” ordeni təqdim edildi.

**Eldar Aytmatov:** Qeyd etmək istəyirəm ki, bu bir nömrəli orden Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim olunur və həmçinin ilk dəfə Azərbaycanın bir nömrəli “Dostluq” ordeni Azərbaycan Prezidenti tərəfindən Çingiz Aytmatova təqdim edilib. Sağ olun.

**Prezident İlham Əliyev** çıxış edərək dedi:

– Sağ olun. Bu yüksək mükafata görə çox sağ olun. Fəaliyyətimə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, həmçinin onun ailə üzvlərinə və yaxınlarına minnətdarlığımı bildirmək istəyirəm. Həm də bu ordeni onun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir. Mən buraya gələrkən təbii ki, Çingiz Torekuloviçin evinin necə olması barədə fikirləşirdim və məhz orada rahat, isti, yaxşı, yaxınlarının, əzizlərinin əhatəsində olduğu, yaşadığı, işlədiyi və böyük sənət yaratdığı evi gördüm. Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən, yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac var. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq edəcək. Çünki onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi deyə bilərəm ki, məhz onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə yenidən nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünyaşöhrətli yazıçı, ictimai xadim idi və onun əsərləri müxtəlif mədəniyyətlərə məxsus, müxtəlif qitələrdən olan insanlar tərəfindən başa düşülürdü. Amma, eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edirdi, Qırğızıstanı necə tanıyırdı, öz xalqını necə sevirdi və öz xalqının nümayəndələrini təsvir edirdi. Yəni o, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır.

Çingiz Aytmatova Azərbaycanda olan münasibətə gəldikdə, zənnimcə, bu barədə danışmağıma ehtiyac yoxdur. Onu bir insan kimi sevirdilər, onun çoxlu dostu var idi, bir sıra fotoşəkillər onun Azərbaycanın mədəniyyət xadimləri ilə görüşlərini əks etdirir. Həmçinin Heydər Əliyev və Çingiz Aytmatov bir-birinə böyük hörmətlə yanaşırdılar, onların çoxlu görüşləri olmuşdur və mənim atamdan gətirdiyim sitat məhz onun Çingiz Torekuloviçə bəslədiyi hisslərin təzahürüdür.

Bizim görüşümüzü xatırlayıram, yeri gəlmişkən, 2008-ci ildə görüşümüzü əks etdirən fotoşəkil digərləri ilə birlikdə burada nümayiş etdirilir. Siz də qeyd etdiniz ki, ilk “Dostluq” ordeni Çingiz Aytmatova təqdim olunub. Həmin vaxt bu orden mənim tərəfimdən, mənim təşəbbüsümlə yenicə təsis olunmuşdu. Açığını desək, düşünürdüm ki, hər halda rəqəmlərdə bir rəmzilik var, fikirləşirdim ki, bu bir nömrəli ordeni kimə təqdim edək. Sözsüz ki, ilk ağlıma gələn o oldu ki, onu Türk dünyasının hər hansı bir nümayəndəsinə verək. Sonradan, sanki, fikirlər ard-arda gəldi və qərar verildi. Bəlkə də, bədahətən oldu, amma digər tərəfdən, bədahətən verilən bütün qərarlar sənin tərəfindən əvvəlki dövrdə dərindən düşünülmüş olur. Ona görə də bu, tamamilə şüurlu, yeganə düzgün qərar idi.

O da bizim üçün xüsusi qürur mənbəyidir ki, bir nömrəli “Dostluq” ordeni Çingiz Torekuloviçə təqdim edilib. Mən bu il Bakıda onun abidəsinin açılışında çıxış etdim. Çingiz Aytmatovun heykəli mərkəzi küçələrdən birində ucaldılıb. Mən dedim ki, onun tezliklə aramızda olmayacağını güman etmirdik. Çünki o, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Əlbəttə, bu, kədər hissi doğurur, çünki o, hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğısı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi.



Məni Çingiz Torekuloviçin ocağına dəvət etdiyiniz, bu mükafata layiq gördüyünüz üçün sizə bir daha təşəkkür etmək istəyirəm. Sizi yaxın vaxtlarda Bakıya dəvət etmək, ailənizlə, Çingiz Torekuloviçin balaca davamçıları ilə birlikdə qonağımız olmağınızı istəyirəm. Onun abidəsini ziyarət etsinlər və onu tanıyanlarla, sevənlərlə ünsiyyətdə olsunlar. Bir daha təşəkkür edirəm.

**Eldar Aytmatov:** Çox sağ olun.

Daha sonra Prezident İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət etdilər.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olundu.

# Bişkekdə Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının qeyri-rəsmi şam yeməyi olub

**Noyabrın 5-də Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının qeyri-rəsmi şam yeməyi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

***AZƏRTAC***

# BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “Dünya dinləri yaşıl planet uğrunda” şüarı altında keçirilən Dini Liderlərin Qlobal Sammitinin iştirakçılarına

**Hörmətli Sammit iştirakçıları!**

Sizi “Dünya dinləri yaşıl planet uğrunda” şüarı altında keçirilən Dini Liderlərin Qlobal Sammitinin açılışı münasibətilə Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Bu gün dünyamızın üzləşdiyi iqlim dəyişmələri, atmosferin və ətraf mühitin çirklənməsi, quraqlıq və səhralaşma, biomüxtəlifliyin itirilməsi, su qıtlığı, ərzaq çatışmazlığı və bu kimi digər qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır. İqlim böhranı və ekoloji təhlükəsizlik məsələləri dünya dövlətlərinin birgə əməkdaşlığını, beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərinin birləşdirilməsini zəruri edir. COP tədbirlərində inklüzivlik prinsiplərinə uyğun olaraq nüfuzlu dini liderlərin bir araya gəlməsini, planetimizin taleyi naminə onların narahatlığını və ümumi işə töhfə vermək əzmini yüksək qiymətləndirirəm.

Müxtəlif etiqad və inancların zəngin mənəvi potensialı iqlim dəyişmələrinin yaratdığı ekzistensial problemlərin həllinə təkan vermək imkanına malikdir. Dünya din xadimləri bu çağırışlarla mübarizədə böyük rol oynaya bilərlər.

COP29-un Azərbaycanda keçirilməsinə yekdilliklə qərar verilməsi ölkəmizin beynəlxalq nüfuzuna yüksək etimadın göstəricisidir və bu, heç də təsadüfi deyildir. Azərbaycan ekoloji problemlərlə bağlı bir çox konvensiya və sazişlərə qoşulmuş, müxtəlif ölkələrlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmış, bu sahədə çoxşaxəli fəaliyyət proqramları qəbul etmişdir. Ölkəmizdə ətraf mühitin qorunmasını nəzərdə tutan zəruri qanunvericilik sistemi formalaşdırılaraq səmərəli institusional mexanizmlər və investisiya mühiti yaradılmışdır. Hazırda “yaşıl enerji” layihələrinin həyata keçirilməsi, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə, ətraf mühitə mənfi təsirlərin qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində mühüm addımlar atılmaqdadır. Azərbaycanda 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan olunmuşdur.

İqlim dəyişmələri və ekoloji problemlər ilə hamılıqla mübarizə aparmaq üçün dünyada beynəlxalq təhlükəsizliyin, sülh və əmin-amanlığın təmin edilməsi vacib amillərdən biridir. Ölkəmiz yaxın tarixi keçmişində əsassız ərazi iddialarına məruz qalaraq ədalətsiz müharibəyə cəlb edilmiş, bu qanlı savaşın ağır fəsadlarını yaşamalı olmuşdur. Siz Azərbaycanın əzəli torpağı olan Qarabağa səfəriniz zamanı Ermənistan tərəfindən 30 illik işğal dövründə törədilmiş ekosid, kultursid və urbisid kimi cinayətkar əməllərin acı nəticələrini əyani şəkildə görmək imkanı qazanacaq, ölkəmizin bölgədə ekoloji tarazlığı bərpa etmək istiqamətində yaşıl iqtisadiyyata, bərpaolunan enerjiyə əsaslanan genişmiqyaslı yenidənqurma işləri ilə bilavasitə tanış ola biləcəksiniz.

Bəşəri problemlərin müzakirə olunduğu Dini Liderlərin Qlobal Sammiti kimi nüfuzlu tədbirlərin Azərbaycanda keçirilməsi artıq ənənə halını almışdır. İnanıram ki, bu Sammit səmərəli fəaliyyəti ilə ölkəmizin sivilizasiyalararası dialoq məkanı statusunu daha da möhkəmləndirəcək, mədəniyyətlərarası əməkdaşlığa dair “Bakı Prosesi”nə sanballı töhfə verəcək, yaşıl dünya naminə həmrəyliyiniz, müdrik təklif və tövsiyələriniz ümumi hədəflərə çatmağımıza dəstək olacaqdır.

**Hörmətli dini liderlər!**

Əminəm ki, taleyüklü problemlərə həsr olunmuş Sammit konstruktiv fikir mübadilələri şəraitində keçəcək, COP çərçivəsində dinlərarası əməkdaşlıq platformasının təsisatlandırılması imkanı müzakirə ediləcəkdir. Bunun üçün tolerantlıq və multikulturalizm diyarı Azərbaycan ən uyğun məkandır.

Bir daha sizə ən xoş arzularımı yetirir, bəşəriyyətin gələcəyi naminə xeyirxah fəaliyyətinizdə hər birinizə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 noyabr 2024-cü il**

# “İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin “Zəfər” kitabı

**“İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin xüsusi buraxılışı olan “Zəfər” kitabı nəfis tərtibatla çapdan çıxıb.**

Xüsusi buraxılışda yer alan materiallar 44 günün xronikasını – 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrü əhatə edir. Nəşrdə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müqəddəs savaşın ilk dəqiqələrindən Zəfər Günündək möhtəşəm fəaliyyətindən bəhs edilir.

Kitab Prezident İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi ağır artilleriya silahlarından şiddətli atəşə tutduqdan dərhal sonra – sentyabrın 27-də saat 12:45-də Azərbaycan xalqına müraciətinin mətni ilə başlayır. “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” – deyən Prezident İlham Əliyev bu müraciəti ilə Azərbaycanın igid oğullarını torpaqlarımızı işğaldan azad etməyə daha da ruhlandırdı, onları səfərbər etdi, xalqda qələbəyə inam yaratdı.




“Zəfər” kitabında Azərbaycan Prezidentinin 44 gün ərzində müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə telefon danışıqları, videomüraciətləri, aparıcı xarici media orqanlarına müsahibələri, hər bir yaşayış məntəqəmizin azad olunduğu müjdə xəbərləri, sosial şəbəkə hesablarında paylaşımları xronoloji ardıcıllıqla təqdim edilib. Nəşrə 44 gündə rəşadətli Ordumuzun, qəhrəman əsgər və zabitlərimizin işğaldan azad etdikləri şəhər və kəndlərin, yaşayış məntəqələrinin, həmçinin erməni qəsbkarlarından götürülmüş qənimət silah-sursatların da siyahısı daxil edilib.

Vətən müharibəsində qazanılan Zəfərin dördüncü ildönümü ərəfəsində təqdim olunan bu nəşr adi kitab deyil, bir dərslikdir - dövlətçilik, vətəndaşlıq, Vətənə sevgi və xidmət dərsliyidir!

Kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından və arxivindəki fotolardan istifadə edilib.

Dövlətimizin başçısının 2020-ci il noyabrın 10-da xalqa müraciətində vurğuladığı kimi, hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. “Qarabağ Azərbaycandır və nida!” ifadəsi artıq bizim qələbəmizin rəmzidir: “Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”

Vətən müharibəsində qazanılan Zəfərin yaratdığı reallıqlar regionda bütün sahələrdə özünü göstərir. İşğaldan azad edilmiş ərazilərimizdə bu gün aparılan bərpa və quruculuq işləri, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurla reallaşdırılması, Şuşada keçirilən beynəlxalq tədbirlər Azərbaycan dövlətinin gücünü, xalqımızın əzmini bütün dünyaya bir daha nümayiş etdirir.

# Baş nazir Dini Liderlərin Qlobal Sammitinin iştirakçıları ilə görüşüb






**Noyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov COP29 çərçivəsində “Dünya dinləri yaşıl planet uğrunda” şüarı altında Bakıda keçirilən Dini Liderlərin Qlobal Sammitində iştirak edən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin, Rusiya Federasiyasının və Misir Ərəb Respublikasının dini rəhbərlərindən ibarət nümayəndə heyətləri, həmçinin BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos və Vatikan Dinlərarası dialoq Dikasteriyasının Şərq kilsələri üzrə prefekti kardinal Klaudio Qucerotti ilə ayrı-ayrı görüşlər keçirib.**

Görüşlərdə Dini Liderlərin Qlobal Sammitinin keçirilməsinin əhəmiyyəti vurğulanıb. Yaşıl gündəliyin təşviqində dinlərarası dialoqun, milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin rolunun inkişafının, iqlim dəyişikliyi ilə mübarizədə dinlərin və inancların potensialından daha səmərəli istifadənin vacibliyi qeyd olunub. Bildirilib ki, tarixən mədəniyyətlərin qovuşduğu məkan olan və zəngin tolerantlıq ənənələrinə malik Azərbaycan dinlərarası dialoqun inkişafına böyük önəm verir və onun təşviqinə sadiqdir.

Vurğulanıb ki, əsrlər boyu Azərbaycanda müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri dinc şəraitdə, bir ailə kimi yaşayıblar.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri barədə məlumat verən Ə.Əsədov bu siyasətin bu gün müasir dövrün çağırışları nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Deyib ki, dövlətimizin başçısı tərəfindən multikulturalizmin Azərbaycanın dövlət siyasəti və həyat tərzi olduğu bəyan edilib.

Cari ilin mayında Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirildiyi xatırlanaraq “Bakı Prosesi”nin tərkib hissəsi olan bu tədbirin dünya miqyasında mədəniyyətlərarası dialoqun müzakirəsinə həsr olunan mühüm beynəlxalq platforma kimi qəbul edildiyi diqqətə çatdırılıb.

Azərbaycanda müxtəlif din və inanclara aid məbədlərin mövcud olduğu, onların dövlət tərəfindən qorunduğu, mütəmadi olaraq əsaslı təmir edildiyi və ya yenidən tikildiyi bildirilib.

O cümlədən, ölkəmizin işğaldan azad edilmiş ərazilərində çoxlu sayda mədəni-tarixi və dini abidələrin yerləşdiyi vurğulandı, 30 illik işğal dövründə bu abidələrin Ermənistan tərəfindən dağıdıldığı və talan edildiyi qeyd olunub. Diqqətə çatdırılıb ki, bu ərazilərdə bütün şəhər və kəndlər yerlə-yeksan edilib, o cümlədən, fəaliyyət göstərən 67 məsciddən 65-i dağıdılıb.

Həmçinin bu gün Qarabağ və Şərqi Zəngəzurda icra olunan “Böyük Qayıdış” Proqramı barədə məlumat verilib, məhv edilmiş irsin bərpası istiqamətində mühüm işlərin görüldüyü vurğulanıb.

Görüşlərdə dini liderlər arasında əməkdaşlığın həyata keçirilməsinin önəmi qeyd edilib, dünyamızın daha yaşıl gələcəyə doğru inamla irəliləməsi üçün din xadimlərinin öz dəstəyini əsirgəməyəcəyinə ümidvarlıq ifadə olunub.

***XQ***

# FHN-də növbəti COP29 müşavirəsi



**Noyabrın 5-də Fövqəladə Hallar Nazirliyində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aidiyyəti üzrə hazırlıq məsələlərinin müzakirəsi məqsədilə növbəti müşavirə keçirilib.**

Fövqəladə Pallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə keçirilən müşavirədə nazir müavinləri, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri iştirak ediblər.



Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin növbəti tarixi uğuru olaraq beynəlxalq ictimaiyyət tərəfindən keçirilməsi Bakıya etibar edilmiş COP29-un əhəmiyyətindən danışıb, mötəbər tədbirin yüksək səviyyədə baş tutacağına əminliyini bildirib.

Bu çərçivədə Fövqəladə Hallar Nazirliyinin üzərinə düşən vəzifələri bir daha vurğulayan nazir bununla bağlı işlərin ardıcıl olaraq planlı şəkildə yerinə yetirildiyini qeyd edib.

Sonra müşavirədə COP29-a hazırlıqla əlaqədar Fövqəladə Hallar Nazirliyində yaradılmış qərargahın üzvlərinin nazirlikdə təsdiq olunmuş Tədbirlər Planı üzrə sonuncu müşavirədən keçən dövr ərzində görülmüş işlərlə əlaqədar geniş məruzələri dinlənilib, mövzu ətrafında müzakirələr aparılıb.

Müşavirəyə yekun vuran nazir Kəmaləddin Heydərov tədbirlə bağlı nazirlik qarşısında duran vəzifələrin yüksək səviyyədə icra ediləcəyinə bir daha əminliyini bildirib, müvafiq tapşırıqlar verib.

***XQ***

# Dünya siyasətinin TDT faktoru



**(əvvəli 1-ci səhifədə)**

Bəli, cənab Ömürəliyevin açıqladığı TDT-nin sayca 11-ci olan Bişkek Sammitinin gündəliyinin zənginlik amplitudası fonunda ulu öndər Heydər Əliyevin əvvəldə diqqətə çatdırdığımız fikirlərini nəzərdən keçirərkən, istər-istəməz, bu dahi şəxsiyyətin hadisə və prosesləri öncədən görmə qabiliyyətinə heyranlıq duymaya bilmirsən. Ümummilli lider, söylədikləri ilə, sanki, olacaqlarını ssenarisini özü yazıbmış kimi təəssürat formalaşdırır.

Heydər Əliyev dühasının açıqladığı fikirlər artıq reallığa çevrilib. Bu gün TDT-nin fəaliyyəti məsələsində, bütövlükdə, Türk dünyası yeni dünyanın mühüm amillərindən birinə çevrilib. Belə düşünmək mümkündür ki, TDT hər ötən il keyfiyyət çalarları əldə etməkdədir, Azərbaycan və Türkiyə isə bu məhsuldarlığın ilhamverici qüvvəsidir.

Hər iki ölkə birliyin təşəbbüskarı və qarantı statusundadır. Ankaranın və Bakının səylərinin nəticəsidir ki, bu gün TDT artıq ideyadan konkret fəaliyyət platformasına keçib. Əminliklə vurğulaya bilərik ki, varlığı ilə gerçək tarix yaradan türk toplumlarının üzərindən əsrlər keçdikdən sonra öz kimliyini, mahiyyətini unudacaq, unutdurulacaq şəklə salınmasını doğuran vəziyyətdən uzağıq. Bu üstünlüyü qoruyub saxlamaq üçün isə dünyanın axarına adekvat fəaliyyət göstərmək şərtdir.

Qeyd edək ki, tarixən türk xalqlarının birliyinin nəinki möhkəmlənməsinə, hətta, yaranmasına belə maneələr çox olub. Zaman-zaman onlar bir-birinə zidd ictimai-siyasi formasiyalarda yaşamaq məcburyyətində qalıblar. İndiki dövrdə də bir sıra türk toplumları ayrı-ayrı müstəqil dövlətlərin tərkibində yer almaqdadırlar. Üstəlik, türklərin tarixinin saxtalaşdırıldığını, türk milli kimliyi məsələsinin şübhə altına alındığını da diqqətə çatdırmalıyıq. Vaxtilə saxta sovet beynəlmiləlçiliyi musiqisinin notları ilə türklərin assimilyasiya prosesinin vüsət almasını da həmçinin.

Bəli, hazırkı qlobal inteqrasiya şəraitində türk dövlətləri birliyi müstəqil, müəyyən mənada, alternativ xassəli sistemdir. Bu sistem indiyədək gedilməyən yol üçün ciddi zəmin formalaşdırır və yeni dünya düzənində türk toplumunun vahid orqanizm halında fəaliyyət zərurətini doğurur. Deməli, sistemin işləkliliyi üçün mənəvi immunitetin mövcudluğu şərtdir. Hesab edirik ki, TDT bu baxımdan özünü doğrultmuş strukturdur. Cənab Ömürəliyevin açıqladığı gündəlik də strukturun mütəhərrikliyindən xəbər verməkdədir.

Hazırda beynəlxalq arenada türkdilli ölkələr arasındakı əlaqələr sağlam təməllər üzərində qurulur. Bu, son dərəcə vacib amildir. Həmçinin, bu ölkələrdə yaşayan digər millətlərin anlayış və dialoq, mədəni yaxınlıq kimi ortaqlıqlara sadiqliyi əsas tutulur, qarşılıqlı fəaliyyət aspektləri müəyyənləşdirilir. Nəzərə alaq ki, ortaq türk dəyərlərinin vahid təbiətə malikliyi düşüncəsinin təbliğ olunduğu indiki şəraitdə TDT məkanının, eyni zamanda, multikultural platforma mahiyyətinin qorunması da vacibdir.

Ümumiləşdirmə apararaq onu da deyə bilərik ki, suveren türk dövlətləri birliyi geosiyasətdə varlıq formuludur. İstər elmi, istərsə də məfkurəvi mahiyyət daşıyan TDT isə nəinki Azərbaycanın, ümumilikdə, digər türk dövlətlərini də böyük siyasət labirintində daim ayaqda qalmaları, özlərinin oyun qaydalarını daha əminliklə diktə edə bilmələri anlamında müstəsna quruluşdur. Onu da qətiyyətlə demək olar ki, TDT-nin fövqündə dayandığı Türk dünyası vahid konsepsiya daxilindəki milli siyasətlə bəşəri amallara xidmət harmoniyasının məhsuludur və bu xarakter qurumu qlobal gücə çevirir.

Sonda onu da bildirək ki, ümumtürk təşkilatlanması qlobal və beynəlxalq siyasətin əsas fundamental istiqamətlərinə etibarlı transformasiya mahiyyətinə söykənir. Müşahidə edilən tendensiya nəticə etibarilə beynəlxalq təhlükəsizliyin TDT dayağının daha da möhkəmlənəcəyindən xəbər verir. Bu isə Avrasiyanın qlobal siyasi məkan bütövlüyünü qazanmasından tutmuş, dünyanın ən inkişaf etmiş regionuna çevrilməsi naminə böyük təminatdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvanda delimitasiyaya ziddiyyətli yanaşma

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, “Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə” 2024-cü il avqustun 30-da imzalanıb. Sentyabrın 26-da Ermənistan konstitusiya məhkəməsi əsasnamə (reqlament) layihəsinin ölkənin əsas qanununa uyğunluğunu tanıyıb. Bundan sonra sənəd baxılmaq üçün parlamentə göndərilib. Parlament isə öz növbəsində oktyabrın 23-də əsasnaməni təsdiqləyib. Yeri gəlmişkən qeyd edək ki, qanunverici orqandakı radikal-revanşist baxışlara malik “Hayastan” və “Şərəfim var” fraksiyası məsuliyyəti bölüşmək istəməyərək, səsverməni boykot ediblər. Onlar öz fikirlərini bununla əsaslandırıblar ki, sənəd gələcəkdə dövlət əleyhinə güzəştlərə haqq qazandırmaq məqsədi (?) daşıyır. Beləliklə, sənədin lehinə yalnız hakim “Mülki müqavilə” fraksiyasını təmsil edən 67 deputat səs verib. Bundan bir gün sonra – oktyabrın 24-də Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüş olub. Görüşdən bir gün sonra isə hər iki ölkədə əsasnamə ən yüksək səviyyədə təsdiqlənib.

Noyabrın 1-də iki ölkə arasındakı sərhəddə Baş nazirin müavini Şahin Mustafayevlə erməni həmkarı Mher Qriqoryanın sədrliyi altında delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların görüşü keçirildi. Bu görüş, ümumilikdə, sayca onuncu olsa da, əsasnamənin qəbul olunmasından və həmin sənədin hər iki ölkədə yüksək səviyyədə təsdiqlənməsindən sonra keçirilən ilk görüş olduğu üçün diqqəti cəlb edirdi. Eyni zamanda, əsasnamə həmin gün, yəni 2024-cü il noyabrın 1-də hüquqi qüvvəyə minib. Əsasnamə Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin müəyyənləşməsinin ilk ikitərəfli hüquqi sənədidir. Yəni, daha hansısa şifahi təkliflərdən, razılaşmalardan və kompromislərdən söhbət getmir. Ortada sərhədlərin delimitasiyasının reqlament qaydalarını, prosessual qaydaları tənzimləyən konkret sənəd var. Həmin sənədin qəbulu delimitasiya-demarkasiya prosesinin bundan sonra daha sürətlə gedəcəyini deməyə əsas verir.

Ermənistan parlamentinin sədri Alen Simonyan da bugünlərdə bildirib ki, Bakı və İrəvan Tavuş istiqamətində delimitasiya yekunlaşdıqdan sonra bu prosesin hansı ərazidə davam etdiriləcəyini müzakirə edir. Bununla belə o, sözügedən məsələ ilə bağlı yekun qərarın hələ mövcud olmadığını vurğulayıb. A.Simonyan komissiyaların birgə fəaliyyəti haqqında əsasnamə barədə də danışıb: “Mən hesab edirəm ki, komissiyaların fəaliyyəti haqqında reqlament Azərbaycan və Ermənistan arasında imzalanmış ilk sənəd olduğu üçün hər iki tərəfin qələbəsidir. Onun həyata keçirilməsi iki ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün ən mühüm təməl daşlarından biridir. Biz bu məsələdə irəliyə doğru addımlamaqda davam edəcəyik”.

A.Simonyan Ermənistan və Azərbaycan arasında bu məsələdə müsbət prosesin baş verəcəyinə böyük ümidlər bəslədiyini bildirib: “İki ölkə arasında həllini gözləyən bir sıra məsələlər var. Siyasi iradə olarsa, bütün məsələləri həll etmək olar. Hesab edirəm ki, aparılan müzakirələr də buna yönəlib”.

Ermənistan parlamentinin sədri bundan öncəki açıqlamasında isə delimitasiya və demarkasiya prosesinin növbəti mərhələsinin Sünikdə (Zəngəzurda–S.H.) olacağını istisna etməmişdi: “Hər şey mümkündür. Davam etmək üçün əsas ola biləcək müxtəlif arqumentlər, əsaslar, suallar var. Şimalda, cənubda davam etmək mümkündür. Ümumilikdə, Sünik, yaxud daha konkret olan hansısa hissədən başlamaq da mümkündür. Bununla bağlı müzakirələr gedir”.

Bununla belə, delimitasiya prosesi digər bir məsələnin də Ermənistan cəmiyyətində son günlər intensiv müzakirə olunmasına gətirib çıxarıb. Bu da Azərbaycanın 2021–2022-ci illərdə, guya, Ermənistanın 200 kvadratkilometrdən çox ərazisini tutması ilə bağlıdır. Məsələn, ölkənin iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, Ermənistan öz maraqlarını təkbaşına müdafiə etməyə qadirdir. Onun sözlərinə görə, bunun ən bariz nümunəsi sərhədin demarkasiyası prosesidir. Nazir jurnalistlərə açıqlamasında deyib: “Ermənistan bununla da konkret ərazidə dövlət sərhədinə malik olub”.

Ancaq bunun ardınca Papoyan tənqid etdikləri müxalifətin üslubunda, az qala, onları yamsılayaraq növbəti açıqlamasını verib. Deyib ki, azərbaycanlıların “Ermənistanın işğal olunmuş ərazilərindən” (?) çıxarılması məsələsi sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı danışıqlarda mütləq müzakirə olunacaq: “Buna hansı mərhələdə nail olacağımızı deyə bilmərəm. Bu gün, sabah, yoxsa iki ildən sonra... Lakin demarkasiya dedikdə biz şimal-şərqdə ən yüksək nöqtədən cənub-şərqdə ən aşağı nöqtəyə qədər, daha sonra Naxçıvanla bütün sərhədimizi – Ermənistan Respublikasının dövlət sərhədini nəzərdə tuturuq. Bütün məsələlər müzakirə olunmalıdır”.

Zəngəzur vilayətinin qubernatoru Robert Qukasyan da nazirin fikirlərinə bənzər fikirlər səsləndirib. O, jurnalistlərə açıqlamasında bildirib ki, demarkasiya prosesi bütün sərhəd boyunca tamamlansa, düzgün olardı: “Azərbaycanlılar ilkin mövqelərinə qayıtmalıdırlar. Nəhayət, sərhəd demarkasiya olunmalıdır. Bizim buna inanıb-inanmamağımızın fərqi yoxdur. Nerkin Hand kəndində problemimiz olduğunu hamımız bilirik, amma hamımız ümid edirik ki, sərhədlərin müəyyənləşdirilməsi nəticəsində bu problem həll olunacaq”.

Parlamentdəki müxalifətçi “Şərəfim var” fraksiyasının katibi Tiqran Abramyanın sözlərinə görə, Ermənistan və Azərbaycan baş nazir müavinlərinin bir neçə gün əvvəl baş tutan görüşünün mühüm hissəsi sərhədin delimitasiyası prosedurunun müzakirəsi ilə bağlı olub. Abramyanın sözlərinə görə, əsas məsələ Ermənistan–Azərbaycan sərhədində delimitasiyanın aparılması üçün hansı qaydanın qurulacağını anlamaqdır. O iddia edib ki, bu anadək məntiq və prinsip işləməyib və proses Azərbaycanın mülahizəsinə uyğun olaraq baş verib: “Əsasnamə də eyni şəkildə hazırlanıb və Azərbaycanın maraqlarına uyğunlaşdırılıb. Məntiqlə Azərbaycanın tutduğu istiqamətlərdə sərhədlərin demarkasiyası məsələsi prioritet məsələ kimi gündəmə gəlməli idi. Ancaq Azərbaycanın kifayət qədər ciddi istehkam infrastrukturu yaratdığı və bu prosesi öz prioritetlərinə uyğun olaraq həyata keçirməkdə davam etdiyi üçün həmin əraziləri tərk etmək niyyəti yoxdur”.

Maraqlıdır ki, hər zaman ermənipərəst açıqlamalar eşitdiyimiz, hətta, dünyada qondarma “erməni soyqırımı”nı ilk dəfə tanımış Uruqvayın Xarici İşlər Nazirliyi Ermənistan və Azərbaycan arasında sərhəd komissiyalarının əsasnamələrinin qəbulunu alqışlayıb: “Uruqvay Ermənistan və Azərbaycan arasında ərazi bütövlüyü prinsipinə əsaslanan və beynəlxalq səviyyədə tanınmış sərhədlərə uyğun gələn delimitasiyanın davam etdirilməsi haqqında razılaşdırılmış, 2024-cü il noyabrın 1-dən qüvvəyə minən əsasnaməni alqışlayır”.



Mövzu üzrə fikirlərini “XQ” ilə bölüşən **politoloq Ramiyə Məmmədova** bildirdi ki, delimitasiya-demarkasiya məsələsi, əslində, çoxdan həll olunacaqdı. Ancaq Ermənistan tərəfi bir çox məsələlərdə razılığa gəlmədiyi üçün proses xeyli uzandı: “Rəsmi İrəvan iddia edir ki, guya, biz onların ərazisini tutmuşuq. Bütün bu ziddiyyətlərin tamamilə aradan qaldırılması üçün iki dövlət arasında hansısa razılaşmanın əldə olunması vacib idi. Belə bir razılaşma əldə olundu və delimitasiya prosesi başladı. Paşinyan neçə vaxtdır ölkə vətəndaşlarına izah etməyə çalışır ki, sərhədlərin delimitasiya prosesinə başlamaq lazımdır. O, tez-tez “tarixi Ermənistan və real Ermənistan” söhbəti edir. Ermənistanın ərazisinin 29,8 min kvadratkilometr olduğunu, necə deyərlər, beyinlərə yeritməyə çalışır. Bu çərçivədə əsasnamənin təsdiqi mühüm nailiyyətdir. Çünki Paşinyana həm ölkə daxilində, həm xaricdə təzyiqlər böyükdür”.

Politoloq hesab edir ki, sərhədlərin delimitasiya və demarkasiyası sülh müqaviləsi ilə birbaşa bağlı olmasa da, prosesin müsbət istiqamətdə getməsinin hər halda sülh danışıqlarına da müsbət təsiri danılmazdır: “Qeyd etdiyim kimi, əgər xarici qüvvələrin təzyiqləri olmasaydı, delimitasiya və demarkasiya məsələsi indiyədək həllini tapardı. Amma bu təzyiqlər qarşısında Paşinyan bir qədər ehtiyatlı mövqe tutur. Bu gün Ermənistanda Avropa İttifaqının mülki adlanan missiyası yerləşib. Onlar tez-tez sərhədyanı ərazilərdə patrul xidmətini həyata keçirirlər: Binoklla ərazimizə baxırlar, nələrsə çəkirlər, yazırlar, pozurlar və sair. Onlar bununla Ermənistan rəhbərliyinin fikrini yayındırmağa xidmət edirlər. Paşinyan hökumətinin Azərbaycanla sərhədlərin müəyyənləşdirilməsi prosesindən çəkinməsini istəyirlər. Ancaq görünən odur ki, Paşinyan Azərbaycanla razılaşmaya getməkdən başqa yolunun olmadığını başa düşür və addım-addım sülhə doğru gedir”.

Onu da bildirək ki, dünən Ermənistanın sülh müqaviləsi üzrə növbəti təkliflər paketini Azərbaycana göndərdiyi məlum olub. Bunu ölkənin xarici işlər nazirinin müavini Paruyr Ovannisyan açıqlayıb: “Biz Azərbaycana sülh müqaviləsinin mətninin tam olaraq razılaşdırılmasını özündə ehtiva edən təkliflər paketi göndərmişik. Hazırda bu təkliflərə cavab gözləyirik”.

Əgər İrəvan sülh istəyirsə, öz iddialarını kənara qoymalı, köhnə ab-havadan çıxmalı, Qarabağ iddiası, orada yaşamış ermənilərin geri qayıdışı və beynəlxalq qurumların nəzarət mexanizmləri kimi absurd məsələlərdən danışmamalıdır. Ermənistan cəmiyyətində güclənib revanşa qalxmaq üçün imkan əldə etmək düşüncələri birdəfəlik ardan qaldırılmalıdır. Bu xəstə ideyalara erməni cəmiyyətində son qoyulmadan, ona rəvac verən konstitusiyaya düzəliş edilmədən sülhün əldə olunması mümkün görünmür.

***Səxavət HƏMİD***
***XQ***

# Dünya dini liderlərinin qlobal Bakı Sammiti

**Noyabrın 5-də Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammiti işə başlayıb.**




Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin qlobal Bakı Sammitinin iştirakçılarına müraciətini oxuyub.

COP29-un müəyyən edilmiş Prezidenti, **Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev** sammitin din və adətləri bir araya gətirməklə insanların vəhdət içində yaşamasına nail olmaq və planetimizin qorunmasına töhfə vermək baxımından böyük əhəmiyyət daşımasına diqqət çəkib.

M.Babayev qeyd edib ki, antropogen təsirlər, sənayeləşmə və iqtisadiyyatın sürətli inkişafı qlobal temperatur artımı və fəlakətlərə səbəb olmaqla bir çox dövlətlər üçün ciddi təhdidə çevrilib. Bu təhdidlərin iqlim dəyişikliyinə həssas regionlarda yaşayan icmalar üçün necə fəlakətə çevrildiyinə şahid oluruq. Onlar üçün iqlim dəyişikliyi artıq nəzəri təhdid deyil, hər gün yaşanan reallıqdır.

"Bu vəziyyətlə üzləşən icmalara dəstək olmaq üçün iqlim maliyyəsi dəfələrlə artırılmalıdır. COP29 Sədrliyi, itkilərin və zərərin aradan qaldırılması yönələn fəaliyyətləri dəstəkləyərək bu sahədə vacib addımlar atır", – deyə o əlavə edib.

**BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos** hər kəsin təbiətlə sülh içərisində yaşamalı olduğunu deyərək qeyd edib: "Bəşəriyyət sülhü artıq bərqərar etməlidir, planetimizi qorumalıyıq. İqlim dəyişikliklərinin həlli qlobal çətinliklər arasında ən vacib fenomenlərdən biridir. Bununla mübarizə istiqamətində COP29 konfransı olduqca əhəmiyyətlidir".

**Beynəlxalq Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Məhəmməd Əbdülsalam** dini liderlərin rolundan istifadə edərək iqlim dəyişikliyinin mənfi təsirlərinin aradan qaldırılması istiqamətində mühüm addımların atıldığını vurğulayaraq bildirib: "Bu da dinlərarası dialoqun yüksək səviyyədə olduğunun göstəricisidir. Ümumiyyətlə, biz dinlərarası dialoqun vacibliyini yüksək qiymətləndiririk. Birgə fəaliyyətimizdən faydalanaraq səsimizi daha çox eşitdirmək üçün platforma təsis etmişik. Bu cür qlobal sammitlərin təşkil olunması sözümüzün, birgə fəaliyyətimizin nəticəsidir".

**Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşın** sözlərinə görə, qlobal miqyasda yaşanan ekoloji problemlər təkcə insanları deyil, bütün ekoloji sistemi təhdid edir. "Bugünkü güc və hökmranlıq anlayışı təbii tarazlığı proqnozlaşdırır. Bu prosesdə ekoloji fəlakətlər, qlobal istiləşmə, ərzaq təhlükəsizliyi, təbii sərvətlərin məhv edilməsi, havanın, suyun və torpağın dəhşətli çirklənməsi diqqətdən kənarda qalıb", – deyə Ali Erbaş əlavə edib.

**Vatikan Dinlərarası dialoq Dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti** hazırda dünyanın çox böyük fəlakətlərlə qarşı-qarşıya olduğunu söyləyərək qeyd edib: "Dini inanclarımız böyük gücdür. Bu tədbir bizim planetimizi qorumağa hesablanıb. İnsan ləyaqətlə yaşamalıdır. Bizim gözləməyə vaxtımız yoxdur, təhlükə yaxınlaşmaqdadır. Bəşəriyyətimizi qorumalıyıq, əks halda müharibələr daha da güclənəcək, məhvə doğru gedəcəyik".

**Özbəkistan Prezidentinin İctimai və dini təşkilatlarla əlaqələr üzrə dövlət müşaviri Müzəffər Kamilov** diqqətə çatdırıb ki, iqlim dəyişikliyinin mənfi fəsadları bütün bəşəriyyəti narahat edir. Bunun qarşısının alınması üçün ciddi addımların atılması bütün bəşəriyyət qarşısında duran vacib məsələdir.

**İslam Məsələləri üzrə Ali Şuranın sədri Abdulrahman Mohamed Rəşad AlKhalifa** isə çıxışında deyib: "Dünya dini liderlərinin qlobal Bakı Sammiti cəmiyyətlər arasında əlaqələrin gücləndirilməsinə, sülhün və əmin-amanlığın qorunmasına xidmət edir. Dünyanın bütün dinlərində ətraf mühitə dəyər olduqca vacib yer tutur".

**Tədbirdə, həmçinin Gürcüstan patriarx katolikosu II İliyanın** müraciəti səsləndirilib. Katolikos müraciətində, həmçinin bildirib: "Dünya böyük bir evə çevrilib, bu evdə münaqişələr var. Bu, qlobal təhlükəsizliyə də təsirini göstərir. Biz hərbi qarşıdurmaların qarşısını almaq üçün xeyli müzakirələr aparmalıyıq. Ədalət yoxdursa, problemləri həll edə bilməyəcəyik. Bu, Allahın qarşımıza qoyduğu qanunlardır. Lakin real addımların atılması dövlət başçılarından asılıdır. Ümid edirəm ki, bu Sammit uğurlu olacaq və gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirəcək".

Tədbirdə çıxış edən **Əl-Əzhər Şeyxinin müavini, Əl-Əzhərin Böyük Üləmalar Heyətinin üzvü Mohammed Abdelrahman Muhamed ElDveny** deyib: "COP29-un Azərbaycanda keçirilməsi olduqca önəmlidir. "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammiti də məhz COP29 çərçivəsindədir. Dinlərin dəyərindən ətraf mühitin xeyrinə istifadə etmək olar. Dövlətlər, beynəlxalq təşkilatlar bu istiqamətdə bir çox addım atıb".

Açılış mərasimindən sonra Dünya dini liderlərinin qlobal Bakı Sammiti işini plenar iclaslarla davam etdirib.

İclasda çıxış edən **Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov** Azərbaycanın COP29 kimi əlamətdar və mötəbər tədbirə uğurla ev sahibliyi etməsinin qürurverici olduğuna diqqət çəkib.

"Azərbaycan kimi multikultural bir dövlətdə dinlərarası və mədəniyyətlərarası dialoqa hər zaman böyük önəm verilir. İnanclarımız fərqli olsa da, planetimizi qorumaq və bəşəriyyəti inkişaf etdirmək öhdəliyimiz sərhədləri aşır. Bəziləri iddia edə bilər ki, ətraf mühitin mühafizəsi mahiyyət etibarilə inanc məsələsi deyil. Lakin mən hesab edirəm ki, ekoloji böhranlar milli, iqtisadi və mədəni xətləri keçdiyi və bütün cəmiyyətlərə təsir etdiyi üçün və planetimiz bütün bəşəriyyət üçün ortaq miras olduğundan, dinlərarası dialoq vacibdir", – deyə R.Həsənov vurğulayıb.

**G20 Dinlərarası Dialoq Forumunun prezidenti Kol Durham** Dayanıqlı İnkişaf Məqsədlərində dini icmaların rollarının xüsusi vurğulanmadığını bildirərək deyib: "G20 Dinlərarası Dialoq Forumunun məqsədi də kökündən dəyişməlidir. Biz bilirik ki, dini icmalar birlikdə işləyə bilsə, bu çətinliklərin qarışını ala bilərlər. Çünki onların regional və qlobal məsələlərin həllində təsir mexanizmləri var".

**Birləşmiş Ərəb Əmirliklərinin Tolerantlıq və Birgə Yaşayış Nazirliyinin Baş direktoru Afra Əl Sabri** Azərbaycanın tolerantlığın məkanı olduğunu bildirib. Deyib ki, burada belə bir körpü qurulması gözəl nümunədir.

"COP29-da biz təkcə iqlim dəyişikliyi haqqında düşünməməliyik, onu hiss etməliyik. Bu, bizim ürəyimizdən gələn arzu olmalıdır. İnanıram ki, birlikdə fərq yarada, yeni nəsillərimizə ümid işığı bəxş edə bilərik", – deyə o əlavə edib.

Sammit işini "Dinlərin və inancların iqlim dəyişikliyi böhranına baxışı və onun planet, həyat və yaşam vasitələri üçün təsiri", "Yaşıl gələcəyin təşviqində və iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın artırılmasında və onunla mübarizədə dini və inanc təşkilatlarının rolu", "Dinlərarası və sivilizasiyalararası dialoq vasitəsilə iqlim dəyişikliyi ilə mübarizə", "Silahlı münaqişələr, zorakılıq, ekosid və urbisid aktları ətraf mühitə zərər vurur və iqlim dəyişikliyi ilə qlobal mübarizəyə manea yaradır" mövzuları ətrafında müzakirələrlə davam etdirib.

Xatırladaq ki, ikigünlük sammitdə 30-a yaxın dünya və ənənəvi dinlərin liderləri, nüfuzlu dini mərkəzlərin başçıları – patriarxlar, Vatikan və Əl-Əzhər rəsmiləri, müxtəlif qitələri, konfessiyaları və dünya miqyasında tanınmış görkəmli din və ictimaiyyət xadimləri, ümumilikdə 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri, həmçinin media subyektlərinin nümayəndələri iştirak edirlər.

**XQ**

---

(əvvəli 1-ci səhifədə)

# Tramp, yoxsa Harris?

**Tanınmış ekspertlər belə gərgin rəqabət şəraitində keçən prosesin nəticələrini proqnozlaşdırmaqdan çəkinirlər. ABŞ-də erkən seçimlər oktyabrın 26-da start götürüb. Dünən seçki məntəqələri Nyu-Yorkda yerli vaxtla səhər saat 5:00-dən axşam 20:00-a qədər (Bakı vaxtı ilə 5 noyabr 14:00-dan 6 noyabr saat 07:00-a qədər-red.) fəaliyyət göstərib. Dünən bütün ölkə üzrə 78 milyondan çox seçici erkən səsvermədə öz səslərini vermişdi.**

ABŞ-nin 47-ci prezidentini müəyyən edəcək seçkilərdə həm də qanunverici orqanların – Nümayəndələr Palatası və Senatın üçdə ikisi yenilənəcək. Seçkilərin nəticələrini, bir qayda olaraq, ən çox elektorata malik Pensilvaniya, Nevada, Miçiqan, Şimali Karolina, Corciya, Arizona, Viskonsin ştatları müəyyən edir. Təhlükəsizlik tədbirlərinə bugünədək görünməmiş miqyasda polis, milli qvardiya qüvvələri cəlb edilib.

* * *

Bəs, ABŞ-də prezident seçkilərinin nəticələri Cənubi Qafqaza nə vəd edir? Seçkiöncəsi təşviqat kampaniyasında ermənipərəst çıxışları ilə yadda qalan demokrat Kamala Harrisin supergücün sükanı arxasına keçəcəyi təqdirdə Ağ evin bizim bölgəyə yönəlik xarici siyasətində hansısa dəyişikliklərin baş verəcəyi nə dərəcədə realdır? Ölkənin tanınmış politoloq və siyasi icmalçılarının bu suala cavablarını oxuculara təqdim edirik.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** hesab edir ki, demokrat Kamala Harrisin ABŞ prezidenti seçiləcəyi təqdirdə Ağ evin indiki xarici siyasətində ciddi dəyişikliyə məruz qalacağını gözləməyə dəyməz. Sadəcə, mövcud siyasi kursa olsa-olsa, xırda korrektələr əlavə edilə bilər. Çünki Harrisin özü də Bayden komandasının üzvüdür və prioritetləri gözləməyə məcburdur. Eləcə də Donald Trampdan da Vaşinqtonun Qafqaz siyasəti ilə bağlı hansısa dəyişiklikləri edəcəyini gözləməyə dəyməz. Onu deyə bilərik ki, respublikaçı Tramp demokratlardan fərqli olaraq, Cənubi Qafqaz bölgəsinə o qədər də vaxt və diqqət ayırmayacaq. Düzdür, son dörd il ərzində bu məsələlərdə demokratlar həddən artıq canfəşanlıq edirdilər. Əgər yeni prezidentin inaqurasiya mərasiminə qədər Azərbaycan Ermənistanla münasibətlərini müəyyən bir nizamlanma çərçivəsinə salmağı bacarsa, bu halda ABŞ-nin regiona marağı yalnız İran kon-





tekstində aktuallıq kəsb edə bilər. Aydın məsələdir ki, Ağ evin məhz bu istiqamətdə yürüdəcəyi siyasətində Azərbaycansız hansısa addımları atacağı real görünmür.

"Ümumiyyətlə, rəsmi Vaşinqtonun dünyanın bir sıra bölgələrinə münasibəti strateji baxımdan dəyişilməz olaraq qalır. Bu siyasi kursa, o cümlədən Cənubi Qafqaza münasibətdə yalnız müəyyən taktiki əlavələrin edilməsi mümkündür". Bu fikirlərin müəllifi, **Qərbi Kaspi Universitetinin professoru, siyasi icmalçı Fikrət Sadıxov** əmindir ki, Kamala Harrisin pre-



zident seçilməsi ilə Vaşinqtonun bölgəyə yönəlik indiki siyasi xətti davam etdirəcəyi, Qarabağ ermənilərinin geri qayıtması, onların qayğısına qalması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin tezliklə imzalanması, Cənubi Qafqazda sülhə və sabitliyə dəstək xarakterli təklifləri gündəmdə qalacağı gözlənilənidir: "Əlbəttə, bu zaman demokratik dəyərlərin gözlənilməsi məsələsinin də mütəmadi olaraq qaldırılacağına şübhə etmirik. Ona görə ki, sonuncu prinsip Demokratlar Partiyasının əsas prioritetlərindən biridir. Hər halda vitse-prezident postunda çalışdığı dövr ərzində Qafqaz regionundakı mövcud reallığı kifayət qədər öyrənib və bundan müəyyən nəticə çıxarmalıdır. Azərbaycan öz torpaqlarını işğaldan azad edib və regionda hamının hesablaşmalı olduğu gücə çevrilib. Bəli, bu bölgədə Azərbaycanla hesablaşmaq lazımdır. Harris seçkiqabağı kampaniyasında erməniperəst şüarlar səsləndirsə də, anlamalıdır ki, əgər Vaşinqton, həqiqətən də, burada sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdırsa, konkret təkliflərini versin. Bakı həmişə sağlam və reallıqla üst-üstə düşən təklifləri qəbul etməyə hazırdır".

* * *

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin (CQTM) direktoru Fərhad Məmmədovun** fikrincə, seçkiöncəsi təşviqat



kampaniyasında namizədlərin gündəmində Cənubi Qafqaz mövzusu, demək olar ki, yox idi: "Sadəcə olaraq, ABŞ-dakı erməni diasporunun xahişi ilə son günlərdə müəyyən açıqlamalar edilib. Buradan belə bir qənaətə gələ bilərik ki, Bayden administrasiyasından fərqli olaraq Harris, yaxud Trampın komandaları üçün Cənubi Qafqaz məsələsi o qədər də aktuallıq kəsb etməyəcək. Amma demokrat Harris Bayden siyasi xəttinin davamçısı, müəyyən dərəcədə eyni ideoloji xətti siyasətə üstünlük verəcəyinə və Ağ evin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasında maraqlı olduğuna görə yeni administrasiya da bu xətti davam etdirə bilər. Biz bunu gələn ilin yazında hiss edəcəyik. İntəhası, bu dövr ərzində Bayden Bakıya və İrəvana ünvanladığı məlum məktubunda "ilin sonuna qədər" ifadəsini işlədib. Bu o deməkdir ki, Cozef Bayden 2024-cü ilin sonunadək imzalanacaq sülh sazişini şəxsən özünün xidməti kimi qələmə vermək istəyir. Çünki o, ötən dörd il ərzində ABŞ-nin xarici siyasətində ciddi uğura imza ata bilmədi. Bu uğur isə Vaşinqtonun Bakıya və İrəvana edəcəyi təkliflərdən asılı olacaq. Yəni postundan gedən prezident tərəflərə təzyiq deyil, yalnız təklif edə bilər. Buradan belə bir nəticə hasil olur ki, Tramp prezident seçilərsə, praqmatik siyasi xəttə üstünlük veriləcək. Məhz praqmatizm ABŞ-nin Azərbaycana, Cənubi Qafqaza münasibətdə aparıcı amil olub. Harris administrasiyasında bölgəyə yönəlik hər hansı yeni yanaşmanı ancaq gələn ilin yazında görəcəyik".

**XQ-nin sualını cavablandıran Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev** hesab edir ki, budəfəki



seçkilərə maraq əvvəlkilərə nisbətən daha böyükdür: "Çünki, seçkiqabağı təşviqatda rəqiblərin daxili və xarici siyasət məsələlərinə fərqli yanaşmalarını gördük. Düzdür, Ağ evin siyasəti hansısa rəhbərin subyektiv düşüncəsi ilə formalaşmır. Rəsmi Vaşinqton öncədən müəyyən edilmiş prioritetlərlə hərəkət edir. Amma onu da inkar etmək olmaz ki, xarici və daxili siyasətdə Ağ ev sahibinin fərdi yanaşması da müəyyən rol oynayır. Təbii ki, supergüc olaraq ABŞ həmişə dünyada gedən proseslərə, bu və ya digər bölgəyə təsir etməkdə, onu nüfuz dairəsində saxlamaqda maraqlıdır. Belə bölgələrdən biri də Cənubi Qafqazdır. Son 30 ildə bu bölgə, demək olar ki, ABŞ-nin diqqət mərkəzində olub. Fəqət, təəssüf ki, 2020-ci ildəki prezident seçkilərindən sonra Vaşinqton Cənubi Qafqaz siyasətində yeni reallığa deyil, subyektiv maraqlardan qaynaqlanan siyasi xəttə əsaslandı. Məhz bu səbəbdən həmin yanaşma regionda sülhün əldə olunmasına, əməkdaşlığın inkişafına xidmət etmədi.

Qafqazda, Mərkəzi Asiyada özünün geosiyasi və enerji maraqlarını üstün tutan ABŞ üçün region ölkələrinin milli maraqları arxa plana keçdi. Bu kontekstdən baxsaq, Ağ evin Cənubi Qafqaz siyasətində kifayət qədər təzadlı məqamlar görə bilərik. Biz seçkiqabağı kampaniyada demokratların namizədi Kamala Harrisin erməni elektoratа müraciətini, "erməni soyqırımı" açıqlamasını, Azərbaycana yardımların kəsilməsi, sanksiyaların təlbiqi çağırışlarını, Dağlıq Qarabağı könüllü tərk etmiş ermənilərin "təhlükəsiz geri dönüşü", eləcə də həqiqəti əks etdirməyən digər məsələləri eşitdik. Bu baxımdan K.Harrisin prezident seçiləcəyi təqdirdə Vaşinqtonun Cənubi Qafqazda ədalətli sülhün, sabitliyin əldə olunması istiqamətində pozitiv addımlar atacağını proqnozlaşdıra bilmərik".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin** isə sualımıza cavabı qısa və



konkret oldu: "Vaşinqtonun xarici siyasət kursu bu seçkidən sonra da dəyişilməz olaraq qalacaq". F.Şəfiyev ABŞ-nin siyasi olimpində demokratı respublikaçının əvəzləməsinin Ağ ev Administrasiyasının Cənubi Qafqaza yanaşmada ciddi dəyişikliyə məruz qalmayacağı qənaətindədir.

* * *

Beləliklə, yerli ekspertlərin, demək olar ki, hamısı seçkilərdən sonra ABŞ hakimiyyətinin Qafqaza, o cümlədən Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması prosesinə mövqeyinin dəyişməcəyi qənaətini bölüşürlər. Bu da səbəbsiz deyil. Hamıya gün kimi aydındır ki, özünü dünyanın bir nömrəli supergücü hesab edən ABŞ son 20 ildə təkcə Cənubi Qafqazda deyil, planetin digər nöqtələrində də demokratik prinsipləri iqtisadi maraqlarına qurban verib. Bunu Vaşinqtonun bölgəmizdə apardığı siyasətindən aydın görmək mümkündür. Həmişə birtərəfli qaydada işğalçı Ermənistanın xeyrinə addımlar atan, qətnamələr çıxaran ABŞ-nin bu zaman ikili standartlardan çıxış etdiyini göstərən çoxsaylı, həm də təkzibedilməz sübutlar var. Təkcə bir faktı qeyd etməyimiz yetər: Şuşa və Laçının işğalından əvvəl, Xocalıda dinc sakinlərə qarşı erməni faşistlərinin törətdiyi soyqırımı ərəfəsində ABŞ Konqresi "Azadlığa dəstək Aktı"na 907-ci əlavəni qəbul etdi. Konqres bu qərarı ilə Azərbaycan xalqını o vaxt ciddi ehtiyac duyduğu maliyyə yardımından məhrum etdi. "Qırmızı imperiya"nın pəncəsindən yeni qurtulmuş, BMT üzvü olan müstəqil dövlətin ərazi bütövlüyünü dəstəkləməyin yerinə, Qarabağ separatçılarına maliyyə yardımı ayıran ABŞ-nin bundan sonra obyektiv olacağına necə inanaq?

Özünü demokratiyanın beşiyi sayan, azadlığı dəstəklədiyini iddia edən rəsmi Vaşinqton qonşusunun 20 faiz ərazisini işğal edənə, yerli xalqı etnik təmizləməyə məruz qoyana, bölgədə Rusiyanın maraqlarını təmsil edənə göstərdiyi hərtərəfli dəstəyini indi nə ilə ört-basdır edə bilər? Yazımızın sərlövhəsinə çıxardığımız sualı sonda oxuculara ünvanlayırıq: işğala məruz qalanın haqqını işğalçıya yedirdən ABŞ-dakı prezident seçkilərində Donald Trampın, yaxud Kamala Harrisin qalib gələcəyinin sizin üçün nəcə, fərqi varmı?

***İmran BƏDİRXANLI***

***XQ***

# Helsinki Yekun Aktı: Təhlükəsizlik 49 il sonra təhlükədə

## I məqalə

*Azadlığını təhlükəsizliyinə qurban verənlər hər ikisindən olurlar.*

*Tomas Cefferson*

### Ümumavropa təhlükəsizlik sistemi

II Dünya müharibəsi bəşəriyyəti çox qorxutdu. Xüsusilə, Qərbin siyasi dairələri anladılar ki, dövlətlərarası münasibətləri keyfiyyətcə və məqsədcə yeniləşdirmək gərəkdir. Buna tələbat NATO yaranandan sonra da azalmadı. Hərbi blok vasitəsilə təhlükəsizliyi və əməkdaşlığı təmin etməyin mümkünsüzlüyü öncədən aydın idi. Avropanın siyasi şüuruna XX əsrin ikinci yarısından ölkələrdə geniş vüsət alan böhranlı durum da ciddi təsir etdi. Sosial ədalətin pozulması (Alen Turen) Qərb cəmiyyətlərində əlavə gərginliklər yaratdı.

Bunlardan başqa, qlobal miqyasda ABŞ–SSRİ geosiyasi qarşıdurması getdikcə daha kəskin forma alırdı. Ortaya bir neçə münaqişəli vəziyyət çıxmışdı. Belə görünürdü ki, Avropa dövlətləri təhlükəsizlik və əməkdaşlıq haqqında yeni bir gündəliyi ilə yanaşı, iştirakçıların tərkibi, müşavirənin yeri və vaxtı, maliyyələşdirilmə qaydaları daxil idi. Müşavirənin gündəliyi dörd məsələdən ibarət idi: Avropada təhlükəsizlik məsələləri; iqtisadiyyat, elm-texnika və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlıq məsələləri; humanitar və digər sahələrdə əməkdaşlıq problemləri; müşavirədən sonra Ümumavropa prosesinin inkişaf istiqamətləri (bu barədə daha geniş informasiyanı müxtəlif mənbələrdən tapmaq olar).

Bunlardan aydın görünür ki, "Mavi kitab"da təhlükəsizlik və əməkdaşlıq geniş əhatə olunmuşdur. Qarşıya da konkret məqsədlər qoyulmuşdur.

Göstərilən təşəbbüslərin nəticəsi kimi 1973-cü il iyulun 3-də Helsinkidə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə müşavirənin ilk mərhələsinə start verildi. İlk mərhələ iyulun 7-ə kimi davam etdi. Tədbirdə 35 dövlətin nümayəndələri təmsil olunurdular. 1973–1975-ci illərdə Cenevrədə Ümumavropa müşavirəsinin ikinci mərhələsi oldu. Burada sərhədlərin toxunulmazlığı ön plana çıxarılmışdı.

Nəhayət, müşavirənin üçüncü mərhələsi 1975-ci ildə Helsinkidə keçirildi. Həmin il avqustun 1-də tarixi Helsinki Yekun Aktı zalanlarla, onlara imza atanların paradoks təşkil etdiyini görürük. Bu paradoksallıq mütləq şəkildə, birincisi, dövlətlərarası münasibətlərdə hüquqsuzluğa yol açır, ikincisi, regional miqyasda qalıcı təhlükəsizlik və əməkdaşlıq arxitekturasının formalaşdırılmasına ciddi əngəl yaradır, üçüncüsü, qlobal səviyyədə konstruktiv əməkdaşlıq sisteminin yaranmasına qeyri-müəyyənlik formalaşdırır.

İndi, demək olar ki, dünyanın böyük geosiyasi güclərinin hamısı Helsinki Yekun Aktının əsas prinsiplərini pozur. Bununla da dövlətlərarası münasibətlərdə güc amili həlledici rol oynayır. Bu barədə bir sıra siyasi liderlər dəfələrlə yüksək tribunalardan fikir səsləndirmişlər.

Məsələn, suveren bərabərlik prinsipi açıqca pozulur. Bu prinsip ayrı-seçkiliklə müşayiət olunur. Bir dövlət üçün suveren bərabərlik başqa dövlətlər üçün nəzərdə tutulandan fərqli olur. Fransa Cənubi Qafqazda Ermənistanın suverenliyini birtərəfli qaydada absurd səviyyəyə qaldırmağa çalışır. Rəsmi Parisin, bütövlükdə, regionalkı proseslərə yanaşması kökündən Helsinki Yekun Aktının əsas prinsiplərinə ziddir.



təşkilatlanma prosesinə başlamalıdırlar. Bu ideyanın təsdiqlərindən biri 1969-cu ildə Vyanada təhlükəsizlik və əməkdaşlıq uğrunda Ümumavropa qeyri-hökumət konfransının keçirilməsi oldu. Konfransda iştirak edən 300 nümayəndə Avropanın 26 ölkəsini təmsil edirdi. Konfransda 23 beynəlxalq ictimai təşkilatın nümayəndələri vardı. Tədbirdə Ümumavropa təhlükəsizlik sisteminin yaradılması ideyası irəli sürüldü. Bu məqsədlə xüsusi müşavirənin çağırılmasını uyğun gördülər.

Hazırda Avropa İttifaqının 27 üzvü vardır. 1969-cu ildə ümumi Avropa miqyasında 26 ölkə təhlükəsizlik və əməkdaşlıqla bağlı narahatlıqlar keçirmişlərsə, bu o deməkdir ki, bu məsələ kifayət qədər aktual olmuşdur. Həm də bu, demək olar ki, bütövlükdə, Avropa ölkələrini əhatə etmişdir.

Elə həmin il BMT-nin himayədarlığı ilə beynəlxalq təhlükəsizliyə aid başqa bir konfransın da təşkil edilməsi maraqlı hadisə idi. Həmin tədbir 1969-cu il may ayının 23-də Vyanada keçirilmişdir. Beynəlxalq müqavilələr hüququ haqqında tarixi "Vyana Konvensiyası" orada imzalanmışdır. Bu, beynəlxalq hüquq normalarının inkişafında mühüm sənəd hesab olunur. 1958, 1961 və 1963-cü illərdəki konfranslarda məhdud sferalar üzrə qaydalar qəbul edilmişdi. 1969-cu il sənədi isə təhlükəsizlik, iqtisadiyyat və mədəniyyət də daxil olmaqla geniş spketrli sferaları əhatə edirdi. Sənəddə dövlətlərin hüquqları ilə yanaşı, öhdəlikləri də müəyyən edilmişdi.

Deməli, XX əsrin 50–60-cı illərində yalnız qeyri-hökumət təşkilatları və ayrı-ayrı dövlətlər deyil, BMT-yə üzv olan ölkələrin hamısı etibarlı və stabil təhlükəsizliyin təminində maraqlı olmuşdur. Bunun üçün onlar 1969-cu ildə rəsmi olaraq üzərlərinə konkret öhdəliklər götürmüşlər.

Bu kimi tədbirlərdən sonrakı mərhələ daha maraqlı və düşündürücüdür. İlk olaraq indi NATO-nun "Mavi Kitabı" adlandırılan sənəd diqqəti çəkir.

### NATO-nun "Mavi kitab"ı

Maraqlıdır ki, qlobal təhlükəsizliyin təminini nəzərinə götürən təşkilat Qərbin yaratdığı NATO oldu. BMT və qeyri-hökumət təşkilatları ilə yanaşı, Şimal Alyansı da təhlükəsizliyin təminə diqqəti artırdı. Onun təzahürü kimi 1972-ci ildə NATO ölkələrinin Ümumavropa müşavirəsini hazırlamaq üçün məsləhətləşmələrdə iştirak etməyi qərara almalarını göstərə bilərik. NATO üzvləri geniş müzakirələr apardılar. Bu fəaliyyətin nəticəsində 1973-cü ildə "Mavi kitab" adlandırılan və yekun tövsiyələri özündə ehtiva edən sənəd hazırlandı. Sənəddə, ümumiyyətlə, müşavirənin təşkili əksini tapmışdı. Ora tədbirin imzalandı. Sənəddə 10 əsas prinsip yer almışdır. Onlar aşağıdakılardır:

- Suveren bərabərlik prinsipi.
- Zor işlətməmək prinsipi.
- Sərhədlərin toxunulmazlığı prinsipi.
- Dövlətlərin ərazi bütövlüyü prinsipi.
- Mübahisənin dinc yolla həll olunması prinsipi.
- Bir-birinin daxili işlərinə qarışmamaq prinsipi.
- İnsan hüquqlarına və əsas azadlıqlara hörmət prinsipi.
- Bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipi.
- Dövlətlər arasında əməkdaşlıq prinsipi.
- Beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi prinsipi (Vikipediya).

Bu prinsipləri təsadüfən təfsilatı ilə vermirik. Onlar XXI əsrdə təhlükəsizlik və əməkdaşlıqla bağlı real vəziyyətin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Çünki həmin prinsiplər faktiki olaraq qlobal təhlükəsizlik və əməkdaşlığın şərtlərini ümumi səviyyədə tam əhatə edir. Eyni zamanda, Helsinki Yekun Aktına müxtəlif münaqişəli situasiyaların həlli kontekstində dəfələrlə müraciət olunmuşdur. Bu zaman həmin sənədin rəhbər tutulması qərara alınmışdır. O cümlədən, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün də Helsinki Yekun Aktının prinsiplərinə istinad edilirdi. Burada zor işlətməmək, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin gözlənilməsi xüsusi yer tuturdu. Öz müqəddəratını təyinetmə isə birmənalı şəkildə ərazi bütövlüyünə uyğun müəyyən olunmuşdu.

Ancaq illərlə Ermənistan və havadarları bu prinsiplərin münaqişə ilə bağlı həyata keçməsini əngəllədilər. Qəribə idi ki, yekun aktını imzalayan dövlətlər öz sənədlərinin arxasında nəticəverici müstəvidə durmadılar. Bununla nəzəriyyədə müsbət olan bu prinsiplər praktikaya gələndə havada qalırdı. Daha qəribəsi isə bundan ibarətdir ki, Azərbaycan BMT-nin Nizamnaməsi ilə yanaşı, Helsinki Yekun Aktının prinsipləri çərçivəsində addım ataraq, təkbaşına ərazi bütövlüyünü və suverenliyi təmin edəndən sonra, Ermənistana qarşı deyil, Azərbaycana qarşı böhtanlara başlayanlar sırasında Helesinki Yekun Aktını imzalayanlar az deyildir. Onlar faktiki olaraq həm beynəlxalq hüquqa, həm də öz imzalarına hörmətsiz yanaşırlar.

### Açıq paradoks və qlobal təhlükəsizliyin problemləri

Biz Qarabağla bağlı vəziyyəti təsadüfən nümunə kimi gətirmədik. Bu nümunə konkret olaraq beynəlxalq sənədlərdə ya-

Zor işlətməmək, sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri ilə bağlı da bir sıra böyük dövlətlərin əməli mövqeyi Helsinki Yekun Aktına ziddir. Yenə də Azərbaycanla bağlı bir fakt bunu təsdiq edir. Rəsmi Bakı Ermənistanla sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü 5 təklif-şərt sırasında zor işlətməmək, sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri vardır. Lakin indiyə qədər həm rəsmi İrəvan, həm də onun Qərbdə olan havadarları bu prinsiplərin reallaşmasına əngəllər yaradırlar.

Daha geniş miqyasda məsələ, ümumiyyətlə, beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi məsələsinə əsaslanır. Hazırda dövlətlər bir-birini, adətən beynəlxalq müqavilədəki öhdəliklləri vicdanla yerinə yetirməməkdə ittiham edirlər.

Bütün bunlar real olaraq geosiyasətdə hansı nəticələri vermişdir? Burada iki məqamı vurğulamaq istərdik. Birincisi, sanki Helsinki Yekun Aktı praktiki siyasi-diplomatik fəaliyyətdə unudulmuşdur. Bu da iki mümkün nəticə verə bilər.

Birinci nəticə odur ki, Qərbin keçən əsrin ikinci yarısından başlayaraq beynəlxalq münasibətləri və hüququ yeniləşdirmək üçün seçdiyi kursun səmərəsizliyi etiraf olunmalıdır. Digər nəticə ondan ibarətdir ki, çevik surətdə yeni təhlükəsizlik və əməkdaşlıq kursu hazırlanmalıdır. Çünki dünyada baş verən geosiyasi proseslər ortada kifayət qədər riskin mövcudluğunu təsdiq edir. Onların qalıcı olması və yeni formalar alması, bütövlükdə, bəşəriyyəti ciddi təhlükəyə ata bilər.

İkincisi, hazırda dünyada və hətta, Avropada Helsinki Konfransı miqyasında yeni tədbir keçirmək üçün birlik və vahid mövqe yoxdur. Aİ-nin özündə belə fikir ayrılıqları dövlətlərarası münasibətlərin qeyri-müəyyənliyinə səbəb olur. Məsələn, indi rəsmi Budapeşt bəyan edir ki, Avropa İttifaqı Macarıstanda dövlət çevrilişi edə bilər. Aİ-nin daxilində ayrı-ayrı üzv dövlətlərə qarşı belə bir münasibət varsa, hansı mənada "yeni Helsinki Aktından" danışmaq olar?

Bütün bunlardan məntiqi olaraq belə bir qənaətə gələ bilərik: Helsinki Yekun Aktının 50 illik yubileyi həm də iflas anı ola bilər. Bəs bu sənədə alternativ ola biləcək başqa yanaşma mövcuddurmu?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Zəfər marafonunun 41-ci günü**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 6 noyabr



• Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Noyabrın 5-i gün ərzində və 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

• Cəbhənin Qubadlı–Laçın istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun atəş zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, məlum olub ki, Ermənistandan gətirilərək müdafiə zolağına yerləşdirilən 556-cı və 522-ci motoatıcı alayların bölmələri onlara tapşırılan hədlərə çıxmayıb. Eyni zamanda, şəxsi heyət hazırlıqsız, təcrübəsiz və intizamsız olmaqla yanaşı, verilən əmr və tapşırıqlara da səhlənkar yanaşıb.

• Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Tərtər rayonunun işğal olunmuş Göyarx (keçmiş Levonarx) kəndinin ərazisindəki düşmənin atış nöqtələrinə çıxarılan minaatanların heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan D-30 haubitsasının heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, Tərtər, Goranboy daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Tovuz, Gədəbəy və Daşkəsəndə yerləşən mövqelərimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib.

Anar Eyvazov deyib ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Bölmələrin idarə olunmasında problemlər var.

Qubadlı–Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Anar Eyvazov vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşır. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etməkdir.

Mətbuat katibi qeyd edib ki, hazırda Azərbaycan Ordusunun qarşısında təkcə Ermənistan silahlı qüvvələrinin bölmələri deyil, həm də xaricdən cəlb edilmiş xeyli sayda muzdlu və 
terrorçu döyüşçülər var. Əldə edilən kəşfiyyat məlumatlarına görə, bu döyüşçülər erməni əsilli müxtəlif ölkə vətəndaşlarıdır. Ermənistanın hərbi-siyasi rəhbərliyi hiyləgərcəsinə onları qabağa, faktiki olaraq ölümə verməklə bu əcnəbilərin Azərbaycan tərəfindən döyüşlərə cəlb edildiyinə dair iftiralar atır, onların cəsədlərinə də sahib çıxmır. Əcnəbilərin belə ərazilərdə kifayət qədər döyüş təcrübəsi olmadığına və dil probleminə görə onların qarşılıqlı fəaliyyətinin təşkilində ciddi problemlər yaranır. Pərakəndə şəkildə fəaliyyət göstərən bu qruplaşmaların Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina etmələrinə dair məlumatlar var. Əcnəbi döyüşçülər də Ermənistanın hərbi-siyasi rəhbərliyinin təlesinə düşdüklərini dərk etməli, dərhal silahı yerə qoymalıdır. Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddətdir bu günə hazırlaşan Azərbaycan əsgəri hazırda döyüşdə zəfər qazanır. Qələbə bizimlədir.

• Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları




nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 3064 ev, 100 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

***XQ***

# Azərbaycan Xalq Cümhuriyyətinin misilsiz yadigarı

**Anar İSGƏNDƏROV,**
**Milli Məclisin Elm və təhsil komitəsinin sədri,**
**tarix elmləri doktoru, professor**



**(əvvəli qəzetin ötən sayında)**

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi məsələsini müzakirə etmək üçün Xalq maarif nazirinin müavini Həmid bəy Şahtaxtinskini Tiflisə danışıqlara göndərdi. Milli Hökumət Zaqafqaziya Universitetinin bütün çatışmazlıqlarına baxmayaraq, onun Bakıya köçürülməsində israrlı idi. Doğrudur, təhsilin rus dilində olması çoxlarının ürəyincə deyildi. Amma bu ali məktəbdən tezliklə Azərbaycan dilində tədris aparmağı tələb etmək də mümkün deyildi. Çünki çar Rusiyası həyatın bütün sahələrində azərbaycandilli mütəxəssislərin sayını heçə endirmişdi. Milli Orduda vəziyyət daha ağır idi.

Zaqafqaziya Universiteti ilə bağlı mübahisəli vəziyyət universitetin öz daxilində də davam edirdi. Bakıya köçməyin tərəfdarları ilə əleyhdarları arasında vəziyyətə aydınlıq gətirmək üçün Bakıya nümayəndə heyətinin göndərilməsi qərara alındı. Üç nəfərdən ibarət nümayəndə heyəti – rektor V.Razumovski və tələbələri təmsil edən bir nəfər Bakıda oldu. Nümayəndə heyətini mehribanlıqla qəbul edən Azərbaycan hökumət rəsmiləri Bakıda Universitetin açılması üçün bütün şərtləri yerinə yetirməyə hazır olduqlarını bəyan etdi. Milli Hökumətin rəsmi şəxsləri Tiflisdən gələn nümayəndə heyətinə onu da bildirdilər ki, Zaqafqaziya Universiteti Bakıya köçməsə də, Bakıda universitet açılacaqdır. 1919-cu il mayın 1-nə kimi nümayəndə heyətinə vaxt verildi, Tiflisdən cavab gəlmədi. Mayın əvvəllərində Azərbaycan Xalq maarifi nazirinin müavini H.Şahtaxtinski Razumovskiyə teleqram göndərərək onu Bakıya dəvət etdi. Nazir müavini hökumətin adından V.Razumovskiyə Bakıda Universitetin təşkilinə yardım göstərmək üçün komissiya yaradılmasını təklif etdi. V.Razumovski bu təklifi məmnuniyyətlə qəbul edərək Bakıya gəldi və bu istiqamətdə fəaliyyətə başladı.

1919-cu il mayın 19-da V.Razumovskinin başçılıq etdiyi universitet komissiyası Milli Hökumət tərəfindən təsdiq olundu. Mayın 21-də universitet komissiyasının ilk iclası keçirildi və qısa müddət ərzində universitetin yaradılması ilə bağlı layihə Xalq Maarif Nazirliyinə təqdim olundu. İyulun 7-də Milli Hökumət universitetlə bağlı layihəni geniş müzakirədən sonra qəbul etdi.

Universitetin təsis olunması ilə bağlı layihə parlament müzakirəsinə çıxarıldı.

1919-cu ilin avqustun 18-də Azərbaycan Parlamentinin 66-cı iclasında universitetin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsinə başlandı. İclasın sədri Həsən bəy Ağayev ilk sözü Mustafa Mahmudova verdi. M. Mahmudov təklif etdi ki, universitetin açılması ilə bağlı məsələ onların fraksiyalarında müzakirə olunmadığı üçün gələn iclasa qədər təxirə salınsın. Məsələnin müzakirəsi səsvermə yolu ilə növbəti iclasa keçirildi.

Avqustun 21-də parlamentin 67-ci iclası universitetin təşkili haqqında məsələyə həsr olundu. İlk əvvəl "Müsavat"ın üzvü Mehdi bəy Hacınski universitetin təşkili ilə bağlı hökumətin gördüyü işlər haqqında ətraflı məlumat verdi. Məlum oldu ki, universitetin təşkili ilə bağlı parlamentə qədər və parlament müzakirələrində iki fikir mövcuddur. Birinci fikrin tərəfdarları heç bir səbəb göstərmədən universitetin tezliklə açılmasının tərəfdarı idilər, ikinci fikrin müdafiəçiləri isə vaxtın azlığını nəzərə alaraq hələlik gözləməyi məsləhət bilirdilər. Mehdi bəy Hacınski parlamentə xitabən sual etdi: "Bakıda darülfünun olması mümkündürmü? Hökumət bəyan edir ki, mümkündür, çünkü professor-müəllim heyəti Bakıya gəlməyinə etiraz etmir, tədris müəssisəsi kimi, kommerçeski məktəbin binası hazır, tibb şöbəsi üçün alət-avadanlıq nümunələri var və s. Universitetin açılması üçün daha nə lazımdır?"

"İttihad" partiyasının sədri Qara bəy Qarabəyli universitetin açılmasına etiraz etmirdi, amma iddia edirdi ki, bilmirik, universiteti kimlər açır, kimlər oxuyacaq və şərtlər necə olacaq?

Məhəmməd Əmin Rəsulzadənin parlamentdəki çıxışı uzun vaxt aparsa da, məzmunu etibarilə hətta opponentlərini də razı saldı. Çıxışın ana xəttini aşağıdakılar təşkil edirdi: "Bizə nə üçün universitet lazımdır? Biz nə üçün rus dilində təhsilə möhtacıq? Milli darülfünun arzusunda olanlar nə üçün dərd çəkməməlidir?" M.Rəsulzadə deyirdi: "Elmin vətəni yoxdur, rus dilində hər hansı bir elmin tədrisi rus işğalı üçün şərait yaratmır. Rus darülfünunlarında təhsil edənlərdən zərər görən olmayıb. Ən əsası, bu darülfünun get-gedə milliləşəcək".

Əslində, M.Ə.Rəsulzadənin bu çıxışı universitet təşkil etməklə nəyə nail ola bilərik, təşkil etməsək nələri itirə bilərik sualına ən tutarlı cavab idi. O, çıxışını bu sözlərlə bitirdi: "Heç bir millət tarixin ilk addımında milli bir darülfünunə sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə qüvvət kəsb etmişdir. Darülfünun hansı dildə olsa da, açıb oxumalıyıq. Çünki bu müəssisə ilə biz bir ürfan müəssisəsi qururuq və öz gənclərimizi onun vasitəsilə ziyalandırıb, istədiyimiz milli professorlarımıza tədricən sahib olacağıq".

Həmişə müxalif yönümlü çıxışları ilə diqqəti cəlb edən sosialistlərin nümayəndəsi Səmədağa Ağamalıoğlu bizə univeristet nə üçün lazımdır sualını belə cavablandırdı: "Burada söyləyirlər ki, universitet 18 milyon pul aparır. Ona görə onu hələlik açmaq olmaz. Mən isə deyirəm ki, universiteti açmaqla biz gələcəkdə 18 milyon yox, bəlkə 18 milyard mənfəət götürdük. Bu universitet bir palıd ağacına bənzəyir, basdırarsan, iyirmi ildən sonra nəhəng ağaca çevrilər. Bir halda ki, fürsət və məqam özü gəlib, professorlar var, özləri gəlib işləmək istəyirlər, onları əldən buraxmaq olmaz".

"Əhrar" Partiyasının nümayəndəsi Muxtar Əfəndizadə darülfünun açılmasına tərəfdar olduğunu bildirsə də, bu fikir də ona məxsus idi: "Hökumət dairələrində bu vaxta qədər hər iş rus dilində gedir. Qonşularımız erməni və gürcülər bizə gülürlər ki, bizim məmləkətdə ana dili işləndiyi halda, Azərbaycanda hənüz rus dili işlənir. Çünkü onlar istiqlallarını elan etdikləri gündən etibarən yazılarını, müamilələrini milliləşdirdilər. Fəqət hər nədənsə hala bu hərəkət bizdə yoxdur".

Gərgin keçən müzakirələrin sonunda Maarif naziri Rəşid bəy Kaplanov və Mehdi bəy Hacınski universitetin tezliklə açılması üçün hamını həmrəyliyə çağırdı. Maarif naziri bütün tərəddüdlərə son qoymaq üçün üzünü parlament üzvlərinə tutaraq dedi: "Bizə ruhu yüksəldəcək bir elm ocağı lazımdır, o da, darülfünundan başqa bir şey deyildir. Madam ki, darülfünun açılması qabildir, madam ki, bunun əhəmiyyəti-siyasiyyə və milliyyəsini təsdiq edirik, o zaman tərəddüdə lüzum yoxdur".

İclasın sonunda layihənin maddə-maddə səsə qoyulması qərara alındı.

Avqustun 25-də parlamentin 68-ci iclasında Mehdi bəy Hacınski darülfünun təşkili haqqında qanun layihəsini maddə-maddə səsə qoymağı təklif etdi. "İttihad"ın sədri universitetə muxtariyyət hüququnun verilməsini yolverilməz saydı. Onun fikirincə yabancı professorlardan ibarət bir quruma muxtariyyət hüququ verilə bilməz.

Məsələyə aydınlıq gətirmək istəyən Mehdi bəy Hacınski bildirdi ki, 72 maddədən ibarət darülfünun nizamnaməsində universitetə muxtariyyət hüququ verilir və bu muxtariyyət nizamnamə daxilində olacaqdır. Bu maddəyə münasibət bildirən Məhəmməd Əmin dedi: "Onların muxtariyyəti siyasi bir muxtariyyət deyil, nizamnamə daxilində elmi muxtariyyətdir. Darülfünunu bu şəkildə qəbul edib, ona muxtariyyət verilməlidir. Əgər muxtariyyət verilməsi ilə bir təhlükə mövcud olsa, hökumət əlinizdədir, hər şeyi yapa bilərsiniz".

Parlament müzakirəsi zamanı ən çox mübahisə doğuran maddələrdən biri tibb fakültəsinin professor heyətinə veriləcək əmək haqqı ilə bağlı idi. Bu məsələ haqqında açıqlama verən Maarif naziri dedi: "O mütəxəssislər ki, buraya gəlməyi arzu edirlər, onların maaşları təhdid edilməməlidir. Əgər maaşları təhdid edilərsə, onlar bura gəlməzlər".

Avqustun 28-də parlamentin 69-cu iclasının ikinci məsələsi qanun layihəsinin ikinci müzakirəsi idi. Lakin vaxt çatışmazlığı üzündən məsələnin müzakirəsi növbəti iclasa keçirildi.

Sentyabrın 1-də parlamentin 70-ci iclasında qanun layihəsinin üçüncü müzakirəsi oldu. Bu məsələ ətrafında parlament üzvlərindən Əliheydər Qarayev, Rəhim Vəkilov, Mehdi bəy Hacınski və Qasım bəy Camalbəyov fikir mübadiləsi apardılar. Təklif səsə qoyuldu, Bakı Dövlət Universitetinin yaradılması haqqında qanun qəbul edildi.

Həmin iclasda Azərbaycan Parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil alması üçün xarici ölkələrə göndərilməsi haqqında qanunu da qəbul etdi. Parlament xaricə göndərilən gəncləri seçmək üçün Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Mehdi bəy Hacinski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi müsabiqə komissiyası yaratdı. Komissiya iki həftə ərzində müsabiqəni uğurla həyata keçirərək bu barədə hökumətə yazılı açıqlama verdi. Nəticədə Xalq maarifi Nazirliyi tələbələrdən 49 nəfərə Almaniya, 27 nəfərə Fransa, 4 nəfərə İtaliya, 1 nəfərə İngiltərə, 6 nəfərə isə Türkiyənin müxtəlif ali məktəblərində təhsil almaq haqqında rəsmi sənəd verdi. Rusiyada vətəndaş müharibəsi getdiyi üçün müsabiqədən keçən 13 nəfər gənci ora göndərmək mümkün olmadı. 1920-ci ilin aprelində Şimaldan əsən "soyuq bolşevik küləyi" böyük ümidlərlə xaricə yola salınan bu gəncləri acı və məşəqqətli həyat yaşamağa məhkum etdi.

Sentyabrın 18-də parlamentin 74-cü iclasında universitet professorlar şurasında tələbələrə yer verilməsi, rektorun iki və ya üç illiyə seçilməsi, seçilən rektorun Maarif naziri tərəfindən təsdiq edilməsi maddələri qızğın mübahisəyə səbəb oldu. M. Ə. Rəsulzadə bu haqda dedi: "Professorlar şurasına bir tələbə nümayəndəsini daxil etmək elmi nöqteyi-nəzərincə fayda gətirməz. Rektorun maarif nəzarəti tərəfindən təsdiq edilməsi tərəfdarıyam. Fəqət başqa məmləkətlərdə də darülfünunlar var. Bu darülfünunlarda maarif nazirləri bu işi təcrübə etmişlərdi. Tazə iş başına keçmiş olan şəxsə işi əlinə almaq üçün uzun müddət lazım gəlir. Üç sənə də böyük bir vaxt deyildir. Onun üçün də mən böylə bilirəm ki, üç sənəni iki sənəyə endirməyin faydası olmaz".

Müzakirələrə parlament üzvlərindən Əhməd bəy Cövdət, Əliheydər Qarayev, Mehdi bəy Hacınski, Stanislav Vonsoviç, Şəfi bəy Rüstəmbəyov qoşuldular. İclasın sonunda nizamnamənin ikinci fəsli səsvermə yolu ilə qəbul olundu.

Sentyabrın 22-də parlamentin 76-cı iclasında qanun layihəsinin müzakirəsi davam etdirildi. İlk sözü alan Əhməd bəy Cövdət yenə də israr etdi ki, tələbələrin universitet şurasında iştirak etməsi arzuolunandır. Əliheydər Qarayev bu məsələdə daha israrlı idi: "Biz Azərbaycan cəmaətininin nicatını o tələbələrdən gözləyirik. Əgər onları darülfünunda müstəbid fikirlər ilə dolaşdırsaq, onlardan heç bir nəf gözləmək olmaz". Maarif naziri Rəşid bəy Kaplanov bu məsələyə bir daha aydınlıq gətirdi: "Azərbaycan kimi hüquqi-siyasiyyəyi təmin edən bir məmləkətdə tələbələrin hüquqi-siyasiyyələrindən bəhs etmək lazım deyil, siyasət ilə iştiğal edən böyük məclisimiz Parlaman və siyasi firqələrdir. Mən Şurada tələbələrin iştirakını qətiyyən razı bilmirəm".

Sentyabrın 29-da parlamentin 79-cu iclasında qanun layihəsinin müzakirəsi davam etdirildi. Qızğın müzakirəyə səbəb olan əsas məsələ kimlərin universitet tələbəsi ola bilmələri idi. Çıxış edənlərdən Mehdi bəy Hacınski, Əliheydər Qarayev, Əhməd bəy Cövdət, Qasım bəy Camalbəyov, Sultan Məcid Qənizadə, Arşak Malxazyan tələbələrin universitetə qəbul edilməsinə müxtəlif müstəvidə yanaşırdılar. Mübahisənin əsas predmeti universitetə qəbul zamanı imtahanların olub-olmaması məsələsi idi. Səmədağa Ağamalıoğlunun bu məsələyə münasibəti belə idi: "Biz istəyirik, indi Azərbaycanda oxuyan çox olsun. Ona görə də darülfünun qapısı gərək hamının üzünə açıq olsun. Əgər gördü ki, oxuya bilməyir, oradakı elmləri qanmayır, o adam özü gedəcək".

Mehdi bəy Hacınski isə bu məsələyə münasibətdə fərqli mövqedən çıxış etdi: "Mən şəxsi olaraq təklif edirəm ki, realninin altıncı və gimnaziyanın yeddinci klassını bitirmiş olanlar, biləxərə digər kursların imtahanlarını vermək və Azərbaycan təbəəsi olmaq şərtilə bu sənayə, məxsus olaraq darülfünunə qəbul edilsinlər".

İclasın sədri Həsən bəy Ağayev universitetin nizamnaməsinin üçüncü qiraətinə keçdi. Nizamnamə təklif və əlavələrlə qəbul olundu.

İclasın sonunda Sultan Məcid Qənizadənin növbədənkənar bəyanatı oldu: "Darülfünun layihəsini qurtardıq. Bu gün nizamnaməsi də oxunub təsdiq olundu. Bu gündən darülfünuna iqdam olunacaq. Tazə bina qoyduğumuz darülfünunun iki böyük məktəbdə – kommerçeski və gimnaziyada olacaqdır. Güman edirəm Parlamanın üzvləri ərz edəcəyimi unutmamış olsunlar. Keçmiş mart ayında ( 1918-ci ilin mart ayı nəzərdə tutulur-A. İ.) bir hadisə oldu. O hadisədən bir neçə gün qabaq Milli Şuranın ixtiyarında olan əsgərlər Lənkəranda idilər. Məşhur Hacı Zeynəlabdin Tağıyevin övladı Məhəmməd də orada idi.

Orada bir faciə oldu. Məhəmməd föt oldu. Onun cənazəsi bura gətirilib dəfn edildikdə, neçə min adam müşayiət edirdi. O vaxt Hacı cənabları adamların hüzurunda uca səslə dedi: "Həzarət! Mən hazırlaşırdım ki, oğluma toy edim. Lakin qəza belə gətirdi ki, oğlum əlimdən getdi. Ona görə mən oğlumun yadigarı olaraq millətin xeyri üçün, gələcəkdə cavanlar xoşbəxt olsunlar deyə, istəyirəm ki, burada bir darülfünun təsis olunsun. Onun təsisindən ötəri öz passajımı darülfünuna bəxş edirəm". İndi özümüz Cümhuriyyət olduq və özümüzün darülfünunu olduğu üçün Hacının vəd etdiyi bu təmiratı bu darülfünun ixtiyarına alaq. İndi təklifim budur ki, Hacı ilə bu məsələni danışaq və həmin passaj darülfünun təsrüfünə verilsin".

1919-cu il avqustun 21-dən başlanan parlament müzakirələri sentyabrın 29-da başa çatdı. Parlament yetmiş iki maddədən ibarət universitet nizamnaməsini qəbul etdi.

Beləliklə, 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin haqqında qanun, sentyabrın 29-da isə Bakı Universitetinin nizamnaməsi təsdiq olundu. Parlamentin qəbul etdiyi qanunla universitetin tarix-filologiya (şərq şöbəsi daxil olmaqla), fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət təşkil olunması nəzərdə tutuldu.

1919-cu il sentyabrın 8-də universitetin təşkilat komissiyası V.Razımovskini rektor, N.Dubrovskini tarix-filologiya fakültəsinin, professor İ.Şirokoqovoru tibb fakültəsinin dekanı seçdi. Yeri gəlmişkən, 1909-cu ildə Saratovda, 1918-ci ildə Tiflisdə, 1919-cu ildə isə Bakıda Universitetin əsasını qoymaq şərəfi V.Razumovskiyə nəsib olmuşdur.

1919-cu il noyabrın 10-da Universitet Şurasının ilk iclası keçirildi. Iclasda professor-müəllim heyətinin tərkibi təsdiq olundu, noyabrın 15-i universitetdə ilk dərs günü elan olundu.

1919–1920-ci tədris ilində tarix-filologiya fakültəsinin I kursuna 509 həqiqi tələbə qəbul edildi. Onlardan 125 nəfər müsəlman, 178 nəfər yəhudi, 121 nəfər rus, 67 nəfər erməni, 5 nəfər gürcü, 13 nəfər polyak və alman idi.

Bakı Universitetinin fəaliyyətə başlaması münasibətilə V.Razımovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı, türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni "məşəl" yandı".

Bakı Dövlət Universitetinin təsis olunmasından 105 il keçir. Bu illərdə universitetin təşkili ilə bağlı çox tarixlər yazılıb. Min bir əziyyətə qatlaşıb bu ali məktəbi təsis edənlər ittiham da olunub, olmazın böhtanlara məruz qalanları da olub. Bu təhsil ocağının yaranma tarixini bir il qabağa atanlar da olub. Hətta onu 1917-ci il oktyabr çevrilişinin yetirməsi kimi qələmə verənlər də olub. Sovet dönəmində Universitetin yubileyi ilə bağlı yazılan məqalələrin, nəşr edilən kitabların, keçirilən yubileylərin çoxu Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalının ildönümünə təsadüf edirdi.

Ey böyük elm məbədi, sənin şərəfli tarixin Vətən tarixçilərini sınağa çəkdi. Bəziləri göz görə-görə, faktları təhrif edə-edə sənin təsis olunmağında əməyi olan insanları gözdən salmağa cəhd etdi.

Heç on il olardı-olmazdı ki, yaranmışdın, səni sahə institutlarına böldülər, bir sözlə adını silməyə cəhd etdilər. Amma bacarmadılar. Yenidən əvvəlki adla bərpa olundun və qürurla yaşadın. Bu barədə çox yazmaq olar. Amma fikirləşəndə ki, bayramındır, 105 yaşın tamam olur, haqqında ancaq xoş sözlər söyləmək lazımdır, acı tarixdən yan keçmək lazımdır.Ancaq tarix də olduğu kimi yazılanda daha maraqlı olur, çoxlarına da ibrət olur. Bu cümlələr də ümummilli lider Heydər Əliyevə məxsusdur.

Uzun illər ərzində gözünün qarşısında sənə həyat verən ziyalılarımız nə qədər tənqid olunub, böhtanlara məruz qalıb, sən bunların hamısının şahidisən. Amma ümidini itirmədin. Bilirdin ki, sənə həyat verənlər bu xalqın gözünün işığı olublar. Bu gün uşaqdan böyüyə Fətəli xan Xoyskinin universitetlə bağlı bu fikrini əzbər bilir: "Bəs niyə Tiflisdə? Bəlkə də universiteti Bakıda açmaq daha düzgün olardı".

Sənin 105 yaşın tamam oldu. Sən heç zaman bu qədər əzəmətli görünməmişdin. Sənin şıltaq və tənbəl tələbələrin də, kobud müəllimlərin də olub. Amma sənə şöhrət gətirənlərin sayı qat-qat çox olub. 44 günlük Vətən müharibəsinin qəhrəman əsgəri dünən sənin tələbən idi. O, qələmini rahatca süngüyə çevirə bildi. Bəzən razı qalmadığın tələbən cəbhədə 100 balını aldı, Vətən yolunda şəhid olmaqdan belə çəkinmədi. Bu qəhrəmanlıq tarixində sənin də böyük payın var.

İndiyə qədər çoxlu tədris binaların olub, bəzilərinin şəraiti heç qənaətbəxş olmayıb. Bu, əsas deyil, əsas olanı odur ki, sən elm və təhsil məbədi olaraq həmişə zirvədə dayanıbsan.

Sən yadigarsan! Sən elə bir dövlətin, elə bir hökumətin, elə bir parlamentin yadigarısan ki, bizim hamımız –uşaqdan-böyüyə onunla fəxr edirik. O dövlətin himni, bayrağı bu gün də başımız üstündə şərəflə dalğalanır.

Sən Cümhuriyyətin yadigarısan. Onun səndən böyük övladı olmayıb. Sən də böyük övlad adını şərəflə doğrultdun.

70 illik sovet dönəmində Cümhuriyyətin 23 ay dalğalanan bayrağını əydilər, ancaq endirə bilmədilər. Sən də onun ən əziz yadigarı kimi bu 70 il ərzində çox şeylərin şahidi oldun. Sənin tribunandan çoxları danışıb. Bəziləri tarixə çevrilib, bəziləri isə həmin gün yaddan çıxıb.

1969-cu ildə 50 yaşın indiki Şəhriyar adına Mədəniyyət Mərkəzində keçirilirdi. Azərbaycana rəhbərliyə başlayan Heydər Əliyevin tribunadan ilk sözü "Yoldaşlar" xitabı oldu. Zal donub qaldı.Sənin məzunun olan Heydər Əliyev də sənin milliliyinlə fəxr edirdi:"Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti və milli iftixarıdır."

Bu illər ərzində sənə çoxları rəhbərlik edib, ədalətlisi də olub, xeyirxahı da, sənə görə özünü tanıtdıranı da olub, şəxsi marağına üstünlük verəni də, səni tanıtdırmaq üçün hər şeydən keçəni də olub, nəfsinin əsiri olanı da ... Dediklərim mübahisə predmeti deyil. Ən əsası odur ki, sən elm və təhsil məbədisən. Doğrudur, bəzi müəllimlərinlə bağlı dodaqaltı nə isə demək olar. Amma bir məbəd olaraq sənin haqqında ancaq xoş sözlər deməliyik.

Sənin yolun millət yoludur, sənin yolun haqq yoludur. Sən bütün dövrlərdə xalqımızın taleyi ilə bağlı məsələlərin həllində öndə durursan. Xalqımızın, ölkəmizin həyatı ilə bağlı hansı uğurlarımıza imza atılırsa, o xoş xəbəri sənin çoxsaylı auditoriyalarından eşitmək olur. "Vətəni sevmək imandandır" deyən də sən olubsan, Vətən üçün ilk şəhidləri verən də. Buna ən böyük nümunə şəhidlərin şərəfinə öz qucağında ucaltdığın abidədir.

Sən 30 ildən çoxdur ki, rahat addımlar atırsan. Son yubileylərin çox şirin keçir. Yubileylərin hər yerdə, hər evdə bayram edilir. Çünki sənin verdiyin diplomla halal zəhmətlə yaşayan insanların sayı daha çoxdur. Ona görə də sənin yubileyini hamı bayram edir.

Bu illər ərzində sənin nüfuzun heç vaxt indiki qədər möhtəşəm olmayıb. İndi yuxarıdan sənə qayğı və diqqət göstərənlər və sənə bacarıqla rəhbərlik edənlər buna nail olublar. Ən əsası sən müstəqil dövlətimizin ən böyük ali təhsil ocağı adını böyük fəxrlə daşıyırsan.

Səninlə bağlı xoş söz deyənlərin sayı çoxdur. Bu, sənin əzəmətindən xəbər verir. 105 ildir ki, sən gəncləri ağuşuna alıb, sonra da xeyir-dua verib yola salırsan, sənin yolunda daha çox can qoyanlara yubileylər keçirirsən, təltiflərin olur. Bunların hamısı sənin adınla bağlıdır.

Sənin 100 illik yubileyin Parisdə UNESCO-nun Baş Qərargahında, Vyanada, Qara Dəniz Universitetləri Assosiasiyasının təşkilatçılığı ilə Buxarest Universitetində,Azərbaycan Mədəniyyət Mərkəzində, sənin şinelindən çıxan milli universitetlərimizdə, Milli Kitabxanada və bir çox qurumlarda yüksək səviyyədə qeyd olundu.

Bu 105 il ərzində dəfələrlə yubileyin qeyd olunub.Yubileylərin dördü–50, 60, 75, 80 illiyi ulu öndər Heydər Əliyevin sərəncamları ilə qeyd olunmuşdur.

50, 60, 75 illik yubileylərində ulu öndər Heydər Əliyev şəxsən iştirak etmişdir.

90 illik və 100 illik yubileylərin Azərbaycanın dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə keçirilmişdir. Sənin 100 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi tarixi nitqini oxuduqca oxumaq istəyirsən.

Sənin 100 illik yubileyinə ən böyük töhfələrdən biri də "Məzun günü"nün möhtəşəm Bakı Kristial Zalında 5 min məzunun iştirakı ilə yeni formatda qeyd olunması oldu.

Əziz və doğma universitet, 105 yaşın mübarək! Bizim sənə bir borcumuz da var: Bu gün bu dövləti qalib dövlətlər sırasına çıxaran, bu xalqı qalib xalq edən, bu torpaqların bütövlüyünü və süverenliyini təmin edən, separatçı yuvasına son qoyan Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqının taleyində və tarixində oynadığı cahanşümül rolunu tələbələrə böyük məhəbbətlə çatdırmaq.Sən bu missiyanı həyata keçirməyə hazırsan.

Yaşa, min yaşa! Yubileyin mübarək, əziz və doğma Bakı Dövlət Universitetimiz!




## “Yaşıl dünya” naminə həmrəylik



# Əqli mülkiyyət və innovasiyalar “yaşıl” gələcək naminə

**Müsahibimiz Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovdur.**



**(əvvəli qəzetimizin 5 noyabr 2024-cü il sayında)**

2020-ci ildə insan sağlamlığı və ətraf mühitə vurulan zərər səbəbindən qalıq yanacaq dəyərinə daxil edilməyən, mədən yanacaq sənayesinin subsidiyalaşdırılmasına, o cümlədən birbaşa subsidiyalar və vergi güzəştləri də daxil olmaqla, təxminən, 5,9 trilyon dollar xərclənmişdir. Müqayisə üçün qeyd edilməlidir ki, 2050-ci ilə qədər tullantıların xalis sıfır həddinə çatdırılması üçün 2030-cu ilə qədər texnologiya və infrastruktur da daxil olmaqla, bərpaolunan enerji mənbələrinə ildə, təxminən, 4 trilyon dollar sərmayə qoyulmalıdır.

İlkin xərclər məhdud resurslara malik bir sıra ölkələr üçün əlverişli olmaya bilər və onların əhəmiyyətli bir hissəsi üçün keçidin təmin edilməsi məqsədilə texniki və maliyyə dəstəyi tələb olunacaq. Lakin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələr öz bəhrəsini verəcək. Təkcə çirklənmənin və iqlim dəyişikliklərinin təsirinin azaldılması 2030-cu ilə qədər dünya üzrə ildə 4,2 trilyon dollara qədər məbləğin qənaət edilməsinə səbəb ola bilər.

Sərmayələrin artımı və müəyyən edilmiş gücün genişlənməsi ilə yaxın onilliklərdə on milyonlarla əlavə iş yerinin yaradılması gözlənilir. Bərpaolunan enerji sektoru üzrə 2050-ci ilə qədər, ən azı, 42 milyon insanın işlə təmin olunacağı gözlənilir. Enerji səmərəliliyinin təmin edilməsi üzrə tədbirlər 21 milyon, sistemin çevikliyi isə 15 milyon əlavə iş yeri yaradacaq.

Milli mərhələdə müəyyən edilmiş töhfələr – emissiyaların azaldılmasına və iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmağa yönəlmiş milli səviyyəli iqlim üzrə fəa-liyyət planları-istiləşmənin 1,50C-ə qədər məhdudlaşdırılması ideyasına əsaslanaraq, bərpa olunan enerji mənbələrindən istifadənin məqsədlərini müəyyən etməli, qlobal elektrik enerjisinin istehsalında bərpaolunan enerji mənbələrinin payı isə 2030-cu ilə qədər indiki 29 faizdən 60 faizədək yüksəlməlidir. Əgər biz 2050-ci ilə qədər xalis sıfır tullantılara nail olmaq istəyiriksə, indidən 2030-cu ilə qədər texnologiya və infrastruktur da daxil olmaqla bərpaolunan enerji mənbələrinə ildə, təxminən, 4 trilyon dollar sərmayə qoyulmalıdır.

Bu sərmayə illik qalıq yanacaq subsidiyalarından çox aşağıdır, lakin öz bəhrəsini verəcək. Təkcə çirklənmənin və iqlim dəyişikliklərinin təsirinin azaldılması 2030-cu ilə qədər dünya üzrə ildə 4,2 trilyon dollara qədər məbləğin qənaət edilməsinə səbəb ola bilər.

**– Hansı səbəbə görə patentlərin əsasında texnologiyaların təkmilləşməsi iqlim məqsədləri üçün kifayət deyil?**

– Texnologiya prosesin əsas hissəsidir. O, inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlara resurslardan daha səmərəli istifadə etməyə imkan verə bilər. O, həmçinin yüksək karbonlu materialları əvəz etməyə və iqlim perspektivlərini şəhərlərimizin, binalarımızın, məhsulların və qida sistemlərinin inkişafına sistemli şəkildə inteqrasiya etməyə imkan verir.

Bu yaxınlarda İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC) tərəfindən bildirildiyi kimi, xidmətlərə tələbatın qarşısını almaq, dəyişdirmək və yaxşılaşdırmaq 2050-ci illər üzrə qlobal miqyasda istixana qazı emissiyalarını 40-70 faiz azaltmaq potensialına malikdir. Bu, investisiyalarımıza, siyasətlərimizə və davranışlarımıza dəyişikliklər tələb edir.

Texnologiya və innovasiyalar həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün təəssüf doğurmayan seçimlər təqdim edən bir çox texnologiya ilə həmişəki kimi, işi təkmilləşdirməkdən daha çox sistemlərin dəyişməsini təmin etmək gücünə malikdir. Rəqəmsal texnologiyalar burada tələb və təklifi daha yaxşı uyğunlaşdırmaq, lazımsız istehsal tullantılarının qarşısını almaq və dairəvi sistemlərin dizaynını və istifadəsini təmin etmək potensialını nəzərə alaraq xüsusi qeyd edilməlidir.

Əsas odur ki, iqlim texnologiyaları qalıq yanacaqdan imtina etmədən səmərəsizdir: Qalıq yanacaqdan asılılığı bir çox iqlim texnologiyalarının səmərəliliyini azaldır. Elektrik qövs sobaları, elektrik nəqliyyat vasitələri, hidrogen və istilik nasosları müxtəlif sektorların karbonsuzlaşdırılması üçün vacib hesab olunur. Bununla belə, bu texnologiyaların iqlimin azaldılması potensialı onları qidalandıran elektrik şəbəkələrini gücləndirmək üçün bərpa olunan enerjiyə təbedir. Məsələn, alternativ poladqayırma yanacağı kimi hidrogen iqlim texnologiyası diqqət çəkir. Bununla belə, onun dekarbonizasiya potensialı, ilk növbədə, hidrogenin necə istehsal olunduğundan çox asılıdır.

Bərpa olunan elektrik enerjisindən daha çox təbii qazdan (qalıq yanacaq) əldə edilən hidrogen məhdud emissiyaların azaldılması potensialına malikdir. Əsasən qalıq yanacaqlardan istifadə edən elektrik şəbəkəsi sistemlərinə malik ölkələr hidrogen və elektrik enerjisindən asılı olan digər karbonsuzlaşdırma tədbirlərinin davamlı və səmərəli şəkildə həyata keçirilməsində maneələrlə üzləşirlər. Beləliklə, qalıq yanacaqların tədricən ləğvi bir çox iqlim texnologiyalarının müvəffəqiyyəti və səmərəliliyi üçün tək bir stimul deyil, həm də ilkin şərtdir.

**– Bəs bu yaşıl texnologiyalar hansılardır?**

– UNCTAD 17 qabaqcıl yaşıl texnologiyaları seçib və qeyd edir ki, bunlar 2030-cu ilə qədər həcmi 9,5 trilyon dollardan çox bazar yarada bilər, onların arasında aşağıdakılar da vardır:

– süni intellekt;
– blokçeyn;
– əşyaların interneti;
– elektromobillər;
– 5G;
– 3D-çap;
– pilotsuz uçuş aparatları;
– robot texnikası;
– gen redaktəsi;
– nanotexnologiyalar;
– bərpa olunan enerji mənbələri.

“Yaşıl kitab”da qeyd olunur ki, qlobal istiləşməni 1,5 və ya hətta 2 dərəcə selsi ilə məhdudlaşdırmaq üçün modelləşdirilmiş hər bir yol bu onillikdə istixana qazlarının sürətli və kəskin azaldılmasına əsaslanır. 2030-cu ilə qədər emissiyaları yarıya endirmək üçün lazım olan həllərimiz olsa da, 2050-ci ilə qədər xalis sıfıra çatmaq əhəmiyyətli və sürətli texnoloji yeniliklər tələb edilir.

Statistik faktlarla tanış olaq. Əvvəlcə qeyd edək ki, iqlim dəyişikliyinin təsirinin azaldılması texnologiyalarında ixtiralar 1995-2011-ci illər arasında 5 dəfə artmışdır. Lakin sonradan 2014-2017-ci illər arasında verilmiş patent müraciətlərinin ümumi sayında nəzərəçarpacaq yavaşlama müşahidə edilmişdir (qrafikə bax).

Müxtəlif sektorlarda olan iqlim yumşaldılması texnologiyaları üzrə qlobal patent müraciətləri, 1990-2015




QEYD: IKT- Informasiya Kommunikasiya Texnologiyaları

Mənbə: IEA, 2019b, Green Technology Book Solutions for climate change mitigation, © WIPO, 2023

Aqrar sektorda patentlərlə mühafizə olunan yüksək səviyyəli innovasiyalar mövcuddur. Kənd təsərrüfatı mühəndisliyi sahəsində patent müraciətləri 2000-2017-ci illər arasında ildə təxminən 10 faiz artıb və bu dövr ərzində 6 dəfə çoxalıb. 2001-2020-ci illər arasında bütün texnologiyalar üçün patent müraciətlərinin 400 faiz artması ilə 9 texnoloji yenilik kənd təsərrüfatı sektorunda səviyyələr orta səviyyədən xeyli yuxarıdır, bunu kənd təsərrüfatı patent ərizələrinin sayı sübut edir (qrafikə bax).

Kənd təsərrüfatı mühəndisliyi üzrə patent müraciətlərinin sayı, 2000-2017




Mənbə: Sozzi et al., 2018, Green Technology Book Solutions for climate change mitigation, © WIPO, 2023

Hökumət siyasətləri ilə idarə olunan hidrogen texnologiyaları və patentləri davamlı olaraq artır. 2021-ci ilin əvvəlinə 30-dan çox ölkə hidrogen yol xəritəsi hazırlamışdır. 2010-cu ildən bəri qlobal miqyasda 32 mindən çox patent ailəsi təqdim edilmişdir. Onların 77 faizi aktivdir ki, bu da potensial olaraq yüksək səviyyədə kommersiya marağı olduğunu göstərir. Çin, ABŞ və Yaponiya hidrogen texnologiyası sahələrində patent müraciətlərinin sayına görə liderlik edir. Patentlərin yarıdan çoxu hidrogen istehsalına, əsasən elektrolizlə, qalanları isə saxlanma, paylama və istifadəyə yönəlib. Hidrogenin istifadəsi baxımından patent müraciətlərinin əksəriyyəti onun sənaye proseslərində və elektrik enerjisinin istehsalında tətbiqi ilə bağlıdır (qrafikə bax). Bu, polad və sement sektorları üçün perspektivlidir.

Hidrogen utilizasiyası üzrə qlobal patent müraciətləri, 2010-2020




Mənbə: IP Australia, 2021, Green Technology Book Solutions for climate change mitigation, © WIPO, 2023

4-cü sənaye texnologiyalarında son onilliklərdə nəzərə çarpacaq inkişaf müşahidə edilmişdir. Onların artımı, ümumilikdə, texnologiyalar üzrə baza artım tempindən 5 dəfə çoxdur və 2018-ci ildə qlobal patentləşdirmə fəaliyyətinin 11 faizini təşkil edib (qrafikə bax).

Sənaye 4.0 texnologiyaları üçün patentlərdə qlobal artım (tünd yaşıl) bütün texnologiya sahələri (yaşıl) ilə müqayisə, 2000-2018




Mənbə: EPO, 2020, Green Technology Book Solutions for climate change mitigation, © WIPO, 2023.

Tətbiqlərdəki bu kütləvi artım müvafiq olaraq Avropa, Yaponiya, Çin və Koreya Respublikası ilə müqayisədə ABŞ-da kəskin şəkildə daha böyükdür. Patent fəaliyyəti də yüksək konsentrasiyaya malikdir. Birləşmiş Ştatlar və Çin ən böyük rəqəmsal platformalara malikdir, dünyanın ən böyük məlumat mərkəzlərinin yarısına evsahibliyi edir və ən yüksək 5G qəbul dərəcələrinə malikdir. Tədqiqat və inkişaf baxımından ABŞ və Çin son 5 ildə dünyanın ən yaxşı süni intellekt tədqiqatçılarının 70 faizini və süni intellekt üzrə startapın maliyyələşdirilməsinin 94 faizini təşkil edir.

Müəyyən texnologiyalarda daha da böyük bir patent artımı müşahidə olunmuşdur. Blockçeyn (Blok zənciri) patent müraciətləri 2013-cü ildən bəri hər il 140–230 faiz artıb. Süni intellekt və maşın öyrətməsi üzrə sənədlər 2012–2016-cı illər arasında qlobal miqyasda 4 dəfə artıb, onların 92 faizi 2019-cu ildə aktiv olub.

Sonda isə bərpa olunan enerjinin qlobal göstəriciləri 2008–2020-ci illər üzrə verilir (cədvələ bax).

**Bərpa olunan enerjinin qlobal göstəriciləri**

| Bərpa olunan enerjinin qlobal göstəriciləri | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bərpa olunan enerjiyə illik investisiyalar (milyard, ABŞ dolları) | 130 | 160 | 211 | 257 | 244 | 232 | 270 | 286 | 241 | 326 | 196 | 298,4 | 303,5 |
| bərpa olunan enerjinin ümumi quraşdırılmış gücü (hidroenergetika daxil olmaqla, qiqavat (GW) | 1140 | 1230 | 1320 | 1360 | 1470 | 1578 | 1712 | 1849 | 2017 | 2197 | 2387 | 2581 | 2838 |
| Hidroenergetika (GW) | 885 | 915 | 945 | 970 | 990 | 1018 | 1055 | 1064 | 1096 | 1112 | 1135 | 1150 | 1170 |
| Günəş energetikası (GW) | 16 | 23 | 40 | 70 | 100 | 138 | 177 | 227 | 303 | 405 | 512 | 621 | 760 |
| Külək energetikası (GW) | 121 | 159 | 198 | 238 | 283 | 319 | 370 | 433 | 487 | 540 | 591 | 650 | 743 |
| Bioenergetika (GW) | | | | | | | | | | 121 | 131 | 137 | 133 |
| Geotermalenergetika (GW) | | | | | | | | | | 12,8 | 13,2 | 14 | 14,1 |
| Biodizel istehsalı (mlrd., litr) | 12 | 17,8 | 18,5 | 21,4 | 22,5 | 26 | 29,7 | 30,3 | 30,8 | 33 | 41 | 41 | 39 |
| Etanol istehsalı (mlrd., litr) | 67 | 76 | 86 | 86 | 83 | 87 | 94 | 98 | 99 | 104 | 111 | 115 | 105 |
| Bərpa olunan enerjinin inkişafı hədəfləri olan ölkələrin sayı | 79 | 89 | 98 | 118 | 138 | 144 | 164 | 173 | 176 | 179 | 169 | 172 | 165 |

**Mənbə:** *Vikipediya*

Burada diqqəti bərpa olunan enerjinin hədəfləri olan ölkələrin sayına yönəldək. 2008-2017-ci illərdə 79-dan 179-a qədər artım müşahidə olunur və 2020-ci ildə bu say 165 ölkəyə bərabərdir, yaşıl patentlərin sayı isə 5 dəfə artmışdır.

**– Bəs qabaqcıl olan dövlətlərdə və tanınmış iri kompaniyalarda “yaşıl” iqtisadiyyata qulluq edən patentlərin (“yaşıl” patentlər) vəziyyəti necədir?**

– Sualın cavabı üçün ayrı-ayrı ölkələrdəki vəziyyətə nəzər salaq. Əvvəlcə Çindən başlayaq. Ekoloji təmiz və aşağı karbonlu patentlərin statistik təhlili üzrə son hesabatda qeyd olunduğu kimi, Çinin dayanıqlı inkişafı, onun güclü “yaşıl” innovasiyaları ilə daha da güclənir. Hesabatda aşağı karbonlu texnologiyalar üzrə patent müraciətlərinin sayının illik müqayisədə 20 faiz artması qeyd olunur ki, bu da qlobal orta göstəricilərini keçir.

Çin Dövlət Əqli Mülkiyyət İdarəsi tərəfindən nəşr olunan hesabatda Çinin qlobal “yaşıl” inkişafın təşviqində əsas rolu vurğulanır. Bildirilir ki, 2023-cü ildə Çindən daxil olan ekoloji təmiz və aşağı karbonlu ixtiralara dair patent müraciətlərinin sayı dünya həcminin yarısından çoxunu təşkil etmiş və illik hesabda 20 faiz artaraq, 101 minə çatmışdır.

Elektrik avtomobil istehsalçısı olan NIO şirkəti, ixtiraya dair ən çox patentə sahib şirkətdir. 2023-cü ildə bu Çin şirkətinin ümumi gəliri 55,62 milyard yuana (7,78 milyard ABŞ dolları) çatmış, bunun da 13,43 milyard yuanı elmi-tədqiqat işlərinə yatırılmışdır. 2024-cü ilin iyun ayına olan məlumata əsasən, 10 illik avtomobil istehsalçısı olan şirkət, dünya üzrə 9 minə yaxın patent müraciətləri ilə seçilir.

Hesabatda 2017-ci ildən bəri bütün dünya üzrə patent müraciətlərinin sayında müşahidə olunan rekord sayda artım barədə qeyd olunur. Bu müraciətlərin ümumi sayında 37,2 faiz, enerji saxlama cihazları üzrə patentlərin payına düşür və bu sahədə artım tempi 19,8 faiz təşkil edir, karbon tutumu, utilizasiyası və saxlanması sahəsindəki müraciətlərin payı isə 6,7 faiz təşkil edir. Ekoloji təmiz enerji mənbələri üzrə hidrogen enerjisi bir çox ölkələr üzrə yeni innovasiya sahəsinə çevrilərək sürətli artım nümayiş etdirir.

Hesabata əsasən, Çin 2016-cı ildən 2023-cü ilə qədər olan müddət ərzində yanacaqdan istifadə nəticəsində karbon dioksid emissiyalarının azaldılması və enerji qənaəti kimi sahələrdə öz artım tendensiyasını qoruyub saxlayaraq digər iri ölkələri geridə qoymuşdur.

Çin 2030-cu ilə qədər karbon emissiyalarının pik həddə çatdırılması və 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq üçün öz qarşısına məqsədlər qoyub. Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin 20-ci çağırışının 3-cü Plenumunda qəbul olunmuş qərara əsasən, yaşıl və aşağı karbonlu inkişafın təşviq edilməsinin zəruriliyi vurğulanır.

2023-cü il istehlak tendensiyalarına dair hesabata əsasən, çinli istehlakçıların 73,8 faizi və əsasən, 1990-cı illərdən sonra doğulmuş istehlakçılar yaşıl və ekoloji cəhətdən təmiz məhsullara və ya brendlərə üstünlük verirlər.

Aşağı karbonlu texnologiyalara üstünlüyün verilməsi novatorlar üçün bir sıra imkanlar yaradır. Məişət texnikası üzrə lider olan Gree şirkəti enerjiyə qənaət və emissiyaların azaldılması sahələri üzrə, təxminən, 3500 patent müraciətlərinə sahibdir.

Yaponiyada isə patent fəaliyyətinin “yaşıllaşdırılması” dərəcəsi kifayət qədər yüksəkdir: Ölkədə bütün patentlərin 9,9 faizini ətraf mühit texnologiyaları təşkil edir. Bu göstərici yalnız Almaniyada yüksəkdir: 12,1faiz. Dünya üzrə orta göstərici 8,9 faiz , Koreyada 9,6 faiz, İsveçdə 9,2 faiz, ABŞ-da 7,6 faiz, Çində 6,9 faiz təşkil edir. Rusiyada 2012-ci ildə ekoloji texnologiyalara dair patentlərin payı, ümumilikdə, mövcud olan bütün patentlərin sayının 7 faizini təşkil edib. Çin və Hindistanda ekoloji ixtiraların patentləşdirilməsində çox böyük artım müşahidə edilir (2000-2012-ci illər ərzində 9-10 vahid artım). Eyni zamanda, Yaponiya rezidentlər və xarici iddiaçılar tərəfindən qeydə alınan “yaşıl” patentlərin sayına görə (32,4 faiz) yalnız Çindən (37,7 faiz) geri qalır və ABŞ-ni (25 faiz) qabaqlayaraq dünyada ikinci yerdə qərarlaşır. Bu göstərici yeni ekotexnologiya bazarının intensiv inkişafının göstəricisidir.

Bunlardan savayı qeyd etməliyik ki, 2006-cı ildə qlobal elektrik istehlakının təxminən 18 faizi bərpaolunan enerji mənbələrindən, 13 faizi isə odun yanması kimi ənənəvi biokütlədən təmin olunmuşdur. 2010-cu ildə qlobal enerji istehlakının 16,7 faizi bərpaolunan mənbələrdən əldə edilib; 2015-ci ildə bu rəqəm 19,3 faiz olmuşdur. Ənənəvi biokütlənin payı tədricən azalır, bu zaman bərpa olunan enerjinin payı isə artır.

Rusiya Elmlər Akademiyasının Energetika Araşdırmaları İnstitutunun və Moskva İdarəetmə Məktəbinin “Skolkovo” Enerji Mərkəzinin proqnozuna əsasən, 2040-cı ilədək bərpaolunan enerji mənbələri qlobal elektrik enerjisi istehsalının 35-50 faizini və ümumi enerji istehlakının 19-25 faizini təmin edəcək.

2004-cü ildən 2013-cü ilə qədər Avropa İttifaqında (Aİ) bərpaolunan mənbələrdən istehsal olunan elektrik enerjisinin payı 14 faizdən 25 faizə yüksəlmişdir. Almaniyada 2018-ci ildə elektrik enerjisinin 38 faizi bərpaolunan mənbələrdən istehsal edilib. 2023-cü il mayın 21-də saat 11:00-dan 17:00-a qədər Aİ ölkələrinin böyük əksəriyyətində alternativ mənbələrdən (külək turbinləri və günəş elektrik stansiyaları) həddindən artıq istehsal səbəbindən elektrik enerjisinin dəyəri mənfi qiymətlərə keçmişdir.

Braziliya şəkər qamışından yanacaq etanolu istehsal etməklə dünyanın ən böyük bərpaolunan enerji proqramını yerinə yetirir; etil spirti hazırda ölkənin avtomobil yanacağına olan tələbatının 18 faizini ödəyir. Etanol yanacağı ABŞ-da da geniş yayılmışdır.

Hidroenergetika bərpa olunan enerjinin ən böyük mənbəyidir, qlobal elektrik enerjisi istehsalının 15,3 faizini və qlobal enerji istehlakının 3,3 faizini təmin edir (2010-cu ildə).

Külək enerjisindən istifadə 2013-cü ildə quraşdırılmış gücü 318 qiqavat (GW) olmaqla bütün dünyada ildə, təxminən, 30 faiz artır və Avropa, ABŞ və Çində geniş şəkildə istifadə olunur.

Günəş elektrik stansiyaları Almaniya və İspaniyada məşhurdur. Günəş istilik stansiyaları ABŞ və İspaniyada fəaliyyət göstərir və onlardan ən böyüyü Moxave səhrasındakı 354 MVt gücündə olan stansiyadır.

Fotoelektrik panel istehsalı sürətlə artır, 2008-ci ildə istehsal olunan panellərin ümumi gücü 6,9 GW (6,900 MVt) təşkil edir ki, bu da 2004-cü il səviyyəsindən, təxminən, 6 dəfə çoxdur.

Böyük qeyri-xammal şirkətləri bərpa olunan enerjidən istifadəni dəstəkləyir. Belə ki, IKEA özünü 2020-ci ilə qədər tamamilə bərpaolunan enerji ilə təchiz olunmağı hədəfləmişdir.

**– Bəs iri kompaniyalarda, biznesdə vəziyyət nə yerdədir?**

– Apple – günəş elektrik stansiyalarının ən böyük sahibidir və şirkətin bütün məlumat mərkəzləri bərpa olunan enerji mənbələrindən qidalanır. Google-un enerji istehlakında bərpa olunan mənbələrin payı 35 faiz təşkil edir və şirkətin bərpa olunan enerjiyə investisiyaları 2 milyard dolları ötüb.

İqtisadiyyatın Ali Məktəbi (Высшая школа экономики) və Sankt-Peterburqun Avropa Universitetinin birgə tədqiqatları göstərir ki, enerjinin bərpa olunan mənbələrinin və yaşıl energetikanın istifadəsinin kompaniyaların fəaliyyətinə böyük təsiri mövcuddur. Bəllidir ki, dövlət və biznes yüzlərlə milyard dollar enerjinin bərpa olunan mənbələrinin, nüvə energetikasının və elektronəqliyyatın inkişafına xərcləyir. Bunların payı 2020-ci ildə enerji sektoruna yatırılan investisiyaların ümumi həcminin 40 faizini təşkil edirdi və 400 milyard dollara çatmışdı. Avropa Birliyində yaşıl energetikaya aid olan məsrəflər 3,5 dəfə ənənəvi energetikaya aid olan xərcləri üstələyirdi. Məsələn, Çin qaz və neft sferalarına yatırımları 40 faiz azaldaraq, əsasən enerjinin bərpa olunan mənbələrinə yönəldir.

**(ardı var)**

***Müsahibəni apardı:***
***Vaqif BAYRAMOV***
***XQ***

COP29 BAKU AZERBAIJAN NOVEMBER 2024

# “Yaşıl dünya” naminə həmrəylik



# Alternativ enerjiyə keçid zərurəti

## *Qlobal fəlakətə qarşı “yaşıl” mübarizənin rolu*

**Media Təhlil Mərkəzi (MTM) Analitik Qrupunun məqaləsində bildirilir ki, iqlim dəyişiklikləri ilə mübarizə mövzusunda aparılan müzakirələr, habelə ənənəvi enerji resurslarının həcminin azalması dünyada alternativ və bərpaolunan enerji mənbələrindən istifadə zərurətini aktuallaşdırıb. Hazırda əksər dövlətlər bu sahələrə böyük investisiyalar yatırmaqla, habelə iqlim konvensiya və sazişləri çərçivəsində üzərlərinə öhdəliklər götürməklə, qalıq enerjidən istifadənin məhdudlaşdırılması istiqamətində məqsədyönlü strategiya həyata keçirirlər. Bu, həm də ənənəvi enerji resurslarının qlobal ekosistemə zərərləri ilə şərtlənir.**



Məqalədə kömür, neft və təbii qaz kimi qalıq yanacaqlar qlobal istixana qazı emissiyalarının 75 faizindən çoxunu təşkil etdiyi bildirilir və bu enerji resurslarından istifadə nəticəsində atmosferə buraxılan karbon emissiyalarının həcminin artması və orta illik temperaturun ilbəil yüksəlməsi, ətraf mühitin deqradasiyası, təbii fəlakətlər, ekstremal hava hadisələri, qida və su çatışmazlığı, buzlaqların əriməsi, dəniz səviyyəsinin artımı və digər fəsadlarla müşayiət olunduğu qeyd olunur. Qalıq enerjidən geniş istifadə hər il milyardlarla ton karbon qazının atmosferə buraxılmasına səbəb olur.

Hesablamalara görə, 5 milyondan çox əhalisi olan dünya şəhərlərinin, təxminən, üçdə ikisi dəniz səviyyəsinin qalxması riski altında olan ərazilərdə yerləşir. Bundan əlavə, dünya əhalisinin təxminən 40 faizi sahil zolaqlarına 100 kilometrdən az məsafədə məskunlaşıb. Qlobal istiləşmə dünya ölkələrində iqtisadi artıma və kənd təsərrüfatına, insanların qida və su təhlükəsizliyinə mənfi təsir göstərir. Bu gün, təxminən, 500 milyon insan torpaq eroziyasına meyilli ərazilərdə yaşayır, istehsal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının 30 faizə qədər itkilərə məruz qalır. Qlobal istiləşmə dünya ölkələrində yoxsulluğun səviyyəsinin artımının əsas səbəblərindən biridir.

Məqalədə Ümumdünya Meteorologiya Təşkilatının araşdırmalarına əsaslanılaraq bildirilir ki, hazırda təbii fəlakətlərin 90 faizə qədəri məhz hava və iqlimlə əlaqədar baş verir. Bu qlobal iqtisadiyyata ildə, təqribən, 500 milyard dollardan çox ziyan vurur, 26 milyon insanı yoxsulluğa sürükləyir. İqlim dəyişiklikləri, eyni zamanda, beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdidlər yaradır. Qlobal miqyasda torpaq, su və digər təbii ehtiyatlar uğrunda artan geosiyasi rəqabət bəzən hərbi qarşıdurmalara, daha çox insanın kütləvi köçünə rəvac verir. Hazırda Afrika və Latın Amerikasındakı quraqlıqlar siyasi iğtişaşların və zorakılıqların əsas səbəbləri sırasında qeyd edilir. Dünya Bankının hesabatında vurğulanır ki, əgər müvafiq tədbirlər görülməsə, 2050-ci ilə qədər Afrika, Latın Amerikası və Cənubi Asiyada 140 milyondan çox insan miqrasiya etməyə məcbur olacaq.

Qeyd edilənlər dünya ölkələrinin alternativ və bərpaolunan enerjiyə keçidinin sürətləndirilməsini zəruri edir. Hazırda dünya üzrə ümumi enerji istehsalında alternativ və bərpaolunan enerjinin payı cəmi 29 faiz təşkil edir və bu da qənaətbəxş sayıla bilməz. Bu enerji növlərinə keçid onların qlobal ekosistemə zərərsiz, eyni zamanda, bütün ölkələr üçün əlçatan olmaları ilə şərtlənir. Alternativ enerji təbii qaynaqlardan əldə olunur və hər zaman mövcuddur. Neft, qaz, daş kömür və digər ənənəvi enerji qaynaqları isə tükənir və zamanla ciddi qiymət dəyişikliyinə məruz qalır. Qalıq yanacaqlarının yenidən əmələ gəlməsi yüz milyonlarla il çəkir.

MTM Analitik Qrupunun məqaləsində daha sonra deyilir: “Elmi araşdırmalar göstərir ki, iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması üçün emissiyalar 2030-cu ilə qədər yarıya qədər azaldılmalı, 2050-ci ilədək sıfır emissiyaya enməlidir. Hazırda günəş, külək, dəniz və çaylar, geotermal sular, biokütlə, dalğa və hidrogen mühüm alternativ enerji mənbələri sayılır. Bərpaolunan enerji əksər ölkələr üçün daha ucuz alternativdir və çoxlu sayda çox iş yerinin yaradılmasına imkan verir. Məsələn, günəş enerjisi alternativ enerji resurslarının ən mühümüdür və ondan hətta buludlu havalarda da istifadə etmək mümkündür”.

Bildirilir ki, Azərbaycanda günəşli və küləkli günlərin, sulu çayların çoxluq təşkil etməsi alternativ və bərpaolunan enerjinin istehsalına yaxşı imkanlar açır. Bundan əlavə, öhdəliklərinə sadiq tərəfdaş olması ölkəmizə yaşıl enerji sahəsində investisiya qoyuluşlarına müsbət təsir göstərir. Respublikamızdakı əlverişli investisiya mühiti nəticəsində yeni alternativ enerji istehsalı müəssisələri sırf xarici investisiyalar hesabına inşa olunur.

Son illərdə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkətləri ilə sıx əməkdaşlıq nəticəsində inşa olunan külək və günəş elektrik stansiyaları bu baxımdan diqqət çəkir. Birgə uğurlu əməkdaşlıq enerji mənbələrinin şaxələndirilməsi, ölkəmizin alternativ enerji potensialından istifadənin genişləndirilməsi, həmçinin enerji keçidinin təmin olunması məqsədi daşıyır. Abşeron, Neftçala, Biləsuvar, Qaradağ rayonlarında inşa edilən günəş və külək elektrik stansiyaları 2030-cu ilə qədər Azərbaycanın ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payının 30 faizə yüksəlməsini təmin edəcək. Reallaşdırılan layihələr ölkəmizin “yaşıl” gündəliyinin məqsədlərinə uyğun olmaqla, davamlı inkişafın təmin olunmasına, ekoloji vəziyyətin yaxşılaşmasına əvəzsiz töhfələr verəcək.

Reallaşdırılacaq bu və digər layihələr Azərbaycanın yaxın illərdə “yaşıl” enerji sahəsində ciddi infrastrukturunun formalaşmasına, “yaşıl” enerjiyə keçid konsepsiyasını uğurla reallaşdırmasına imkan yaradacaq. Bütün bunlar, eyni zamanda, ölkədə ekoloji mühitin yaxşılaşdırılmasına, istilik elektrik stansiyalarının fəaliyyəti üçün sərf edilən mazut yanacağının və təbii qazın həcminin azalmasına imkan verəcək. Nəticədə, Azərbaycan Avropaya daha böyük həcmdə təbii neft-qaz ixrac etmək imkanı qazanacaq və gəlirlərini artıracaq.

# “ASAN xidmət” “yaşıl” mənbə ilə işləyəcək




**“ASAN xidmət” mərkəzlərində alternativ enerji mənbələrinə keçid” layihəsi ilə bağlı təqdimat mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev iştirak ediblər.**

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan edilmiş 2024-cü il –“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində reallaşdırılan təşəbbüslər ekoloji davamlılıq və “yaşıl” texnologiyaların xüsusi önəmi nəzərə alınmaqla reallaşdırılır. Həmçinin Azərbaycan, 2030-cu il Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlərin 5-ci prioriteti olan “Təmiz ətraf mühit və yaşıl artım” hədəfinə də xüsusi önəm verilir. “ASAN xidmət”də də dayanıqlı və “yaşıl” gələcəyin təmin edilməsi istiqamətində innovativ ekoloji təşəbbüslər həyata keçirilir.

Bildirilib ki, hazırda “ASAN xidmət” mərkəzlərində, ümumilikdə, 19 milyon kilovat-saat elektrik enerjisi istehlak olunur. Bu fakt enerji tələbatını dayanıqlı şəkildə qarşılamaq üçün innovativ həllərin tətbiqini zəruri edir. Buna görə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “ASAN xidmət” mərkəzlərində alternativ enerji mənbələrinə keçid” layihəsinə start verir.

Layihə çərçivəsində ilkin olaraq 7 saylı Bakı “ASAN xidmət” mərkəzinin damında günəş panelləri quraşdırılıb. Artıq bərpaolunan, məsrəfə qənaət edən və şəbəkəyə töhfə verən günəş panelləri vasitəsilə binanın elektrik ehtiyaclarının təmin edilməsinə başlanılıb. Layihənin tezliklə bütün “ASAN xidmət” mərkəzlərinin inzibati binalarında və dayanacaq yerlərində reallaşdırılması nəzərdə tutulub.

Günəş enerjisindən istifadə və qabaqcıl texnologiyaların tətbiqi “ASAN xidmət” mərkəzlərində karbon dioksid tullantılarını əhəmiyyətli dərəcədə azaldacaq. Bununla da mərkəzlərə gündəlik müraciət edən 40 minə yaxın vətəndaş üçün daha təmiz, sağlam bir mühit formalaşdırılacaq. Eyni zamanda, layihə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə, “Sərfəli və təmiz enerji”, “Dayanıqlı şəhərlər və icmalar”, İqlim dəyişikliyinə qarşı mübarizə”yə töhfə verəcək.

# Ölkəmizin 14 qlobal hədəfi

**Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası Katibliyinin rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov “Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi” mövzusunda 5-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda bildirib ki, Azərbaycan emissiyalarda cəmi 0,13 faiz paya malik olmasına baxmayaraq, kifayət qədər iddialı iqlim hədəflərini gerçəkləşdirmək məqsədilə uğurlu siyasət həyata keçirir.**

H.Hüseynovun sözlərinə görə, ölkəmizin inkişaf gündəliyində sosial-iqtisadi və digər məsələlərlə yanaşı, ətraf mühitin yaxşılaşdırılması üzrə siyasi fəaliyyətlərin reallaşdırılması da xüsusi əhəmiyyətə malikdir: “Azərbaycanda ətraf mühit hədəfləri istiqamətində həyata keçirilən tədbirlər və bunun nəticəsində qeydə alınan yüksək göstəricilər bir daha sübut edir ki, bizim inkişaf gündəliyimizdə iqlim dəyişikliyinə qarşı mübarizədə siyasi fəaliyyətlərin tətbiqi də daim diqqətdə saxlanılır”.

Artıq iqlim konfransının reallaşmasına sayılı günlərin qaldığını xatırladan nazirlik rəsmisi bildirib ki, indiyədək COP29 prezidentliyinin irəli sürdüyü 14 təşəbbüs ətrafında müzakirələr aparılıb. Burada iqlim maliyyəsinin əlçatanlığının reallaşdırılması, xüsusilə iqlim konteksində insan kapitalına investisiyaların artırılması, ticarətin, invstisiyanın və iqlimin bir araya gətirilməklə təşəbbüs şəklində icrası müzakirə olunub. Həmçinin üzv dövlətlərin bu təşəbbüsdə aktiv iştirakına təşviq olunması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# MAŞ ekoloji təşəbbüslərimizi yüksək qiymətləndirir

**Dünya dini liderlərinin qlobal Bakı Sammitinin keçirilməsi olduqca əhəmiyyətli hadisədir. Dini liderlərin rolundan istifadə edərək iqlim dəyişikliyinin mənfi təsirlərinin aradan qaldırılması istiqamətində mühüm addımlar atırıq. Bu da dinlərarası dialoqun yüksək səviyyədə olduğunun göstəricisidir. Bu fikirləri Beynəlxalq Müsəlman Ağsaqqallar Şurasının baş katibi Muhəmməd Əbdülsalam Abdullətif dünya dini liderlərinin Bakı sammitində səsləndirib.**




Müsəlman Ağsaqqalları Şurasının ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə təşəbbüslərini yüksək qiymətləndirdiyini vurğulayan baş katib deyib ki, Azərbaycan bütün dinlərə və mədəniyyətlərə böyük hörmətlə yanaşıldığı bir ölkədir. O deyib: “Biz dinlərarası dialoqun vacibliyini yüksək qiymətləndiririk. Birgə fəaliyyətimizdən faydalanaraq səsimizi daha çox eşitdirmək üçün platforma təsis etmişik. Bu cür qlobal sammitlərin təşkil olunması sözümüzün, birgə fəaliyyətimizin nəticəsidir. Ətraf mühitlə dinlər arasında birbaşa əlaqələr mövcuddur. Ona görə də qlobal təhdidlərin aradan qaldırılması istiqamətində təşəbbüslər irəli sürülməkdədir. Biz bu gün beynəlxalq öhdəliklərimizlə kifayətlənə bilmərik. Yer kürəsinin gələcəyi üçün birgə fəaliyyətlər vacib əhəmiyyət daşıyır”.




# Azərbaycanın dünyaya iqlim töhfəsi

**Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver bildirib ki, Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməklə bəşəriyyətə, sülhə, gələcəyə və insanlığa böyük ehtiramını nümayiş etdirir.**



Professor deyib ki, planetimizdə yaşanan müharibələr, dağıntılar, böyük sosial problemlərlə yanaşı, iqlim böhranı, su çatışmazlığı, meşələrin məhv edilməsi və yaşıllığın yox olması kimi təbiət hadisələri yaxınlaşan fərqli bir fəlakətdən xəbər verir. Dünya getdikcə yaşıllıqdan, ekoloji həyatdan və insan dəyərlərindən uzaqlaşır, ayrılır.

Dünyamızın gələcəyi baxımından yaşadığımız bu çətin dövrdə Bakıda təşkil ediləcək iqlim konfransı Mərmərə Qrupu Vəqfi olaraq zəruri sayır, Azərbaycanın sabitlik, sülh və insanlığın gələcəyi naminə bir çağırışı kimi qəbul edirik. Çünki Azərbaycanın bu sahədə irəli sürdüyü dəvət yalnız ətraf mühit, iqlim, yaşıllıq və su problemləri ilə məhdudlaşmır. Bu, həm də insanlığın qarşı-qarşıya olduğu müharibələrə, münaqişələrə, soyqırımlarına, məcburi köçkünlərə qarşı bir həmrəylik yaratmaq ideyasını da əhatə edir.

Akkan Suver ümid edir ki, dünya liderləri Azərbaycanın bu çağırışını nəzərə alaraq yeni təşəbbüslər irəli sürəcək. Sessiya vasitəsilə dövlət xadimləri, dini liderlər bir araya gələrək bu dəvətə xüsusi məna, dəyər qatacaq.

Qeyd edək ki, Bakıda keçiriləcək mötəbər tədbirdə Mərmərə Qrupu Vəqfi Türkiyənin QHT-ləri adından iştirak edəcək.

# COP29-dan gözləntilər böyükdür

**Rusiya Federasiyasının Qlobal İqlim və Ekologiya İnstitutunun direktoru Anna Romanovskaya Azərbaycan mediasına açıqlamasında bildirir ki, Bakının COP29 kimi nüfuzlu bir konfransa evsahibliyi etməsi ölkəyə olan böyük etimadın məntiqi nəticəsidir. Azərbaycanın paytaxtı çoxlu sayda nümayəndənin işləməsi üçün ən əlverişli məkandır.**



A.Romanovskayanın sözlərinə görə, 29-cu iqlim sessiyasında son 10 ildə müsbət nəticə əldə edilməyən maliyyə probleminin həlli gözlənilir. İndiyədək donor və resipiyent ölkələrdə bu məsələyə fərqli baxışlarla yanaşılır. Belə ki, donorlar maliyyələşmə üçün nəzərdə tutulan məbləğin çox yüksək olduğunu, resipiyentlər isə daha yüksək vəsaitə ehtiyac duyulduğunu bildirirlər. Bu, çətin danışıqlardır və COP29-da məsələnin həllinə böyük ümid bəslənilir.

İnstitut direktoru qeyd edir ki, hazırda müşahidə olunan iqlim dəyişikliyi təcə təbiətə və infrastruktura deyil, həm də bəşəriyyətə daha çox ziyan vurur: “İqlim dəyişikliyi hazırda bütün dünyada baş verir. Bunu bütün ölkələr hiss edir. Qlobal temperatur sənayedən əvvəlki səviyyələrlə müqayisədə 1,5 dərəcə Selsi artıb. Təbii ki, təhlükəli hidrometeoroloji hadisələr – güclü küləklər və davamlı yağışlar da iqlim dəyişikliyinin nəticəsidir. Bu, bütün bəşəriyyət üçün çoxsaylı mənfi nəticə yaradır, ərzaq təhlükəsizliyini, insanların sağlamlığını və rifahını təhdid edir”.

Açıqlamasında iqlim dəyişikliyinə atmosferə atılan istixana qazlarının daha çox təsir etdiyini vurğulayan A.Romanovskaya planeti ən çox çirkləndirən əsas dövlətlərin – ABŞ, Hindistan və Aİ ölkələrinin adlarını çəkir. O, sözlərinə əlavə edərək bildirir ki, Azərbaycan və Rusiya neft ölkəsidir. Lakin dünya mədən yanacaqları ilə deyil, onların emissiyaları ilə mübarizə aparır.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Ekoloji təhsil sağlam gələcəyə yol açır

**İnsanla təbiət arasındakı ahəngdar münasibəti qorumaq indiki nəslin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu problemin həlli hər bir şəxsdə dəyərlərin müqayisəsi, ekoloji şüurun və ekoloji mədəniyyətin inkişafının zəruriliyi haqqında əvvəllər formalaşmış bir çox fikirlərin dəyişdirilməsini tələb edir. Buna görə də təbiətin və cəmiyyətin birgə inkişafı prinsipləri üzrə yeni ekoloji təfəkkürün formalaşması geniş ekoloji təhsil və tərbiyə olmadan mümkün deyil.**

Ekoloji təhsilə ehtiyac insan həyatı üçün əlverişli mühitin təmin edilməsinə olan zərurətdən doğur. Ekoloji təhsil və tərbiyə cəmiyyətin ekoloji rifahında mühüm önəm daşıyır və bir çox elmlərin nailiyyətlərinə əsaslanan təbii və sosial biliklərin xüsusi inkişaf sistemini təmsil edir. Ekoloji təhsilin aktuallığı bəşəriyyətin üzləşdiyi ekoloji problemlərin qlobal xarakter daşıması ilə əlaqədardır. Ekoloji məsuliyyət və ekoloji mədəniyyətin inkişafı isə ətraf mühitin yaxşılaşdırılmasını şərtləndirir.

İnsan cəmiyyətinin təbiətə transformativ təsiri qaçılmazdır. Bu təsir elmi və texnoloji inkişaf nəticəsində əhalinin çoxalması, həmçinin təsərrüfat dövriyyəsində iştirak edən maddələrin sayının və kütləsinin artması ilə də güclənir. Təbii sərvətlərdən onların mühafizəsi üçün müvafiq tədbirlər görülmədən kortəbii istifadə edilməsi və bərpasının mümkünlüyü, ətraf mühitin intensiv və daim artan çirklənməsi təbiətdə geri dönməyən dəyişikliklərə, biosferdə fəlakətli nəticələrə gətirib çıxarır. Bu baxımdan ekoloji təhlükəsizliyin gerçəkləşdirilməsi müasir dövrün ən mühüm təbii elmi və ictimai-siyasi problemidir ki, bəşəriyyətin rifahı onun düzgün həllindən asılıdır.

Ekoloji problemlərin tarixi və onların həlli təcrübəsi, eləcə də təhsilin tarixi göstərir ki, bu sahələrin hər ikisi üçün, eləcə də insan həyatı və bütövlükdə cəmiyyət üçün ekoloji maarifləndirmə getdikcə daha çox əhəmiyyət kəsb edir. Müasir şəraitdə cəmiyyətin ictimai həyatın müxtəlif sahələrində məşğul olan və ekoloji biliklərə malik vətəndaşların yetişdirilməsinə həyati ehtiyacı var. Bu biliklər onlar üçün şəxsi və ictimai həyatda ekoloji problemlərin həllində əsas, sürətlə dəyişən təbii mühitdə davranış modelinin seçilməsində isə təlimat olmalıdır. Hər bir insan təbii mühitin bu günü və gələcəyi üçün məsuliyyət daşımalıdır.

Bu gün təhsildə əsas məsələ öyrənilən məlumatların miqdarı deyil, insanın müxtəlif, o cümlədən real problemli situasiyalarda hərəkət etmək bacarığı, uşaqlıqdan formalaşmış şüurun ekoloji imperativi, eləcə də digər şəxslərə zərər vermədən və öz maraqlarını unutmadan onlarla ünsiyyət qurmaq bacarığıdır. Təhsil, ilk növbədə, ali təhsil öz məzununa təkcə seçdiyi fəaliyyət sahəsi üzrə yaxşı mütəxəssis deyil, həm də cəmiyyətin fəal, məsuliyyətli, müxtəlif, o cümlədən real problemli situasiyalarda fəaliyyət göstərməyi bacaran üzvü olmasını təmin etməlidir. Bu, hər bir kəsin müstəqil şəkildə yeni biliklər əldə etmək qabiliyyətini, qeyri-standart vəziyyətlərdə qərar qəbul etmək bacarığını və s. nəzərdə tutur. Təhsil fəaliyyəti bilik və mədəniyyət çatışmazlığını tamamlayır. Ekoloji təhsil ətraf aləm və planetimizdəki həyatın quruluşu haqqında bilik çatışmazlığını kompensasiya edir, bu çatışmazlığı təhsilin köməyi ilə doldurmaqla aradan qaldırmağa imkan verir.

Onu da deyim ki, təhsil müəssələrinin tədris proqramlarına ətraf mühitin mühafizəsi ilə bağlı mövzuların tam daxil edilməsi zəruridir. Resurslardan istifadə və ekoloji problemlər haqqında ictimaiyyətin məlumatlılığını artırmaq üçün geniş informasiya kampaniyası aparmaq və maarifləndirici proqramlar tətbiq etmək lazımdır.

Təhsil alanların ekoloji təhsili və tərbiyəsi cəmiyyət və təbiət arasındakı əlaqə haqqında təbiətşünaslıq biliklərinin inkişaf etdirilməsi və dərinləşdirilməsini, cəmiyyətə və təbiətə dəyərli münasibətin formalaşdırılmasını, təbiətə hörmət və mühafizədə fəal həyat mövqeyinin dərinləşdirilməsini əhatə edir. Ekoloji təhsil prosesində şagirdlər əmin olmalıdırlar ki, insan fəaliyyətinin nəticələri insanın özündən, onun biliyindən, bu nəticələri qabaqcadan görmək bacarığından asılıdır.

Ekoloji təhsil hər kəs üçün, hər yerdə lazımdır. Buna təhsil sisteminin bütün pillələrində – məktəbəqədər təhsildən tutmuş doktaranturaya qədər cəmiyyətin bütün yaş kateqoriyalarını əhatə etməklə ekoloji savadlılığı yaymaq, təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqənin müxtəlif aspektləri haqqında müvafiq biliklər vermək kimi baxılmalıdır.

Ekoloji təhsil fasiləsizliyi tələb edir və insanın həyatı boyu təlim, tərbiyə və inkişafının bir-biri ilə əlaqəli prosesidir. Ekoloji tərbiyə uşaq doğulduğu andan onun ailəsində başlayır. O, ilk dərslərini valideynlərinin və ona yaxın olan digər insanların davranışlarını, ətrafımızdakı dünyaya münasibətini müşahidə etməklə alır.Təbiətin gözəlliyinə həvəs insanın, xüsusən də




uşaqların təbii ehtiyacıdır. Əgər biz uşaqlarımızın istehlakçı kimi yox, məsuliyyətli insanlar, yaxşı vətəndaşlar kimi böyüməsini istəyiriksə, indi bunun qayğısına qalmağın, onların tam ekoloji tərbiyəsi və təhsili üçün mümkün olan hər şeyi etməyin vaxtıdır.

Artıq qlobal əmək bazarı “yaşıl” iqtisadiyyatda bəzi kadr çatışmazlığı ilə üzləşir və yaxın illərdə onlara ehtiyac daha da artacaq. Dünyanın bir çox yerlərində “yaşıl” universitetlər var və ölkəmizdə bir çox universitetlər öz proqramlarına ekoloji ixtisaslar daxil edir və müvafiq təcrübələr tətbiq edirlər.

Ekoloji təhsil əsaslı ehtiyacların formalaşması təkcə ətraf mühitin ekologiyasına deyil, həm də insanın özünün ekologiyasına aiddir. İnsanın təkcə fiziki deyil, həm də mənəvi təbiətinin ekologiyasına qayğı göstərmək mənasında ekoloji mədəniyyət humanizmin ən yüksək forması hesab oluna bilər. Buna əsaslanaraq ekoloji mədəniyyətin formalaşdırılması təhsil sisteminin inkişafının əsas prioritetlərindən biri kimi qəbul edilməlidir.

Şagirdlərdə ekoloji şüurun, ekoloji mədəniyyətin, bilik, bacarıq və vərdişlərin formalaşmasında və inkişafında sinifin və məktəbdənkənar işlərin təşkili böyük rol oynayır. Bu iş formalarına aşağıdakılar daxildir: ekoloji oyunlar (müsabiqə, rol oyunu, simulyasiya), uşaqların ekoloji fəaliyyətləri, ekskursiyalar, ekoloji müsabiqələr, ekoloji yerli tarix fəaliyyəti, məktəb layihələri, ekspedisiyalar, elmi gecələr, konfranslar, tələbə tədqiqat işləri, nəşrlər, divar qəzetləri, albomlar, ekoloji olimpiadalarda iştirak, məktəbdə ətraf mühitin monitorinqi və s.

Məlumdur ki, ətraf mühitin pisləşməsinin səbəblərindən biri də əhalinin ekoloji bilik səviyyəsinin kifayət qədər olmaması və əhalinin ekoloji mədəniyyətinin aşağı olmasıdır. Bu, ətraf mühitin idarə edilməsi ilə bağlı iqtisadiyyatın müxtəlif sahələrində çalışan mütəxəssislərə də aiddir.Ona görə də biz geniş ictimaiyyətə ətraf mühitin mühafizəsinin yeni ekomədəniyyətini aşılamalıyıq. Əhali arasında enerji, su və digər təbii sərvətlərdən istifadəyə məsuliyyətli və qənaətcil münasibəti, məişət tullantılarının sonrakı emal üçün ayrıca toplanması vərdişini inkişaf etdirməliyik.

Yaxın günlərdə Azərbaycanın sədrliyi ilə COP 29-un Bakıda keçirilməsi xalqımızın həyatında əlamətdar tarixi hadisəyə çevriləcək. Qeyd edək ki, bu möhtəşəm tədbirin paytaxtımızda reallaşdırılması qərarı ciddi siyasi və iqtisadi səbəblərə əsaslanır. Xüsusilə, ətraf mühitin mühafizəsi və qlobal ekoloji problemlərin həllində Azərbaycanın milli və beynəlxalq səviyyədə göstərdiyi fəallıq buna şərait yaradan mühüm amillərdən biri olmuşdur.

*Şəbnəm ƏSƏDOVA,*
*ADPU-nun dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*

# 3 ildə ölkəmizdə emissiya 2,5 milyon ton azalacaq

**Energetika naziri Pərviz Şahbazov mediaya açıqlamasında bildirib ki, qarşıdakı 2027-ci ilədək istismara veriləcək stansiyalardan 5,3 milyard kilovat-saat elektrik enerjisinin istehsalı nəticəsində 1,2 milyard kubmetr qazın sərbəstləşməsi və 2,5 milyon tona qədər emissiyaların azalması gözlənilir.**

Nazir qeyd edib ki, 3 il ərzində, təxminən, 2,8 milyard dollar həcmində xarici və yerli investisiya hesabına 2 qiqavat həddində sənaye miqyaslı 8 günəş–külək elektrik stansiyasının inşası və şəbəkəyə qoşulması ilə bağlı planların icrası göstərir ki, Azərbaycan “yaşıl” enerji istiqaməti ilə sürətlə irəliləyir və bu, artıq geriyədönməz prosesə çevrilib.

Energetika naziri daha sonra deyib: “Bərpaolunan enerji gündəliyimizin reallaşdırılması “Yaşıl dünya naminə həmrəylik ili” və COP29 çərçivəsində daha geniş vüsət alıb. Bu ilin iyun ayında Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti ilə, təxminən, 1 milyard dollar məbləğində investisiya dəyərinə və 1000 meqavat ümumi gücə malik üç stansiyanın – Neftçalanın Bankə qəsəbəsində 315 meqavat, Biləsuvarda 445 meqavat gücündə günəş



və Abşeron–Qaradağ rayonları ərazisində 240 meqavatlıq Külək Elektrik stansiyalarının təməli qoyulub. Həmçinin “ACWA Power” şirkəti ilə 200 meqavatlıq Batareya Enerji Saxlanc Sistemi və 200 meqavatlıq quruda külək enerjisi layihələri üzrə Çərçivə Müqaviləsi imzalanıb. Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən “Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım” layihəsi çərçivəsində Böyükşor gölü üzərində ümumi gücü 100 kilovat olan və illik 160 min kilovat-saat elektrik enerjisi istehsalı imkanına malik ilk üzən Günəş Elektrik Stansiyası istifadəyə verilib”.

P.Şahbazov vurğulayıb ki, ölkəmizdə bərpaolunan enerji mənbələri üzrə ilk hərrac prosesinə start verilib və 100 meqavat gücündə “Qobustan” GES layihəsi üzrə hərracın nəticəsinin COP29 zamanı elan edilməsi nəzərdə tutulur: “COP çərçivəsində icrasına təkan verilən digər bir layihə 240 meqavat gücündə “Şəfəq” Günəş Elektrik Stansiyasıdır. Cəbrayılda tikiləcək bu stansiya dünyanın ən böyük neft–qaz terminallarından biri Səngəçalı elektrikləşdirməklə karbohidrogenlərlə yaşıl enerjinin vəhdətinin nümunəsi olacaq.

Gələn il istismara veriləcək 240 meqavat gücündə “Xızı–Abşeron” Külək Elektrik Stansiyasının inşası ilə bağlı da hazırda intensiv işlər görülür. “Nobel Energy” şirkətinin Cəbrayılda, “China Gezhouba Group Overseas Investment” şirkətinin isə Füzulidə günəş elektrik stansiyalarının tikintisi layihələri üzrə tədbirlər də davam etdirilir.

# Azərbaycan paytaxtı iqlim təşəbbüsləri meydanıdır

**Pakistanlı ekspert, Avrasiya Əsri İnstitutunun direktoru İrfan Şahzad Təkalvi Azərbaycan mediasına müsahibəsində ölkəmizin COP29-a hazırlığını və konfransın uğurla həyata keçirilməsi üçün səylərini yüksək dəyərləndirib.**

Pakistanlı ekspert ötən illərdə respublikamızın bir sıra çoxtərəfli beynəlxalq tədbirləri uğurla təşkil etdiyini, təşkilati aparatının formalaşması sahəsində zəngin təcrübə qazandığını, eyni zamanda, Azərbaycanın əsas faydalı qazıntı istehsalçısı və ixracatçısı olmasına baxmayaraq, qlobal iqlim dəyişikliyinin dünyaya təsirini azaltmaq üçün mühüm praktiki addımlar atdığını, bütün bunların nəticəsində COP28-in plenar iclasında respublikaya evsahibliyi hüququnun verilməsinin ədalətli olduğunu bildirib.

İrfan Şahzad Təkalvi COP29-un əsas mövzularından bəhs edərkən qarşıdakı sessiyada emissiyaların azaldılması və təmiz enerjiyə keçid ənənəsi kimi məsələlərə üstünlük veriləcəyinin gözlənildiyini diqqətə çatdırıb. Ekspert bundan başqa, iqlim maliyyəsinin də gündəmdə olduğunu xatırladıb.



Avrasiya Əsri İnstitutunun direktorunun Azərbaycanda yaşıl enerjinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə fikirləri də diqqət çəkir: “Respublikanın təkcə öz istehlakı üçün deyil, həm də gələcək onilliklərə yönələn ixrac məqsədilə kifayət qədər qalıq yanacaq ehtiyatlarına malik bir ölkə üçün təmiz enerjiyə qlobal keçid istiqamətində atılan addımları təqdirəlayiqdir. Azərbaycan qazı bu qlobal dəyişikliyə töhfə verməklə bərabər, dünya üçün böyük əhəmiyyət kəsb edir. Ölkədə bərpaolunan enerji mənbələrinin kifayət qədər ehtiyatı var və bunu reallaşdırmaq zəruridir.

# “Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid”



**Noyabrın 5-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında “Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid” kitabının təqdimat mərasimi keçirilib.**

Nəşrin müəllifləri UNESCO-nun eksperti, Rusiya Prezident Akademiyasının professoru Nizami Məmmədov və AMEA-nın müxbir üzvü, professor Sevda Məmmədəliyeva, elmi redaktoru isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovdur.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu beynəlxalq tədbirə evsahibliyi etməsini tarixi hadisə kimi dəyərləndirib. Akademik mötəbər COP29 tədbiri ərəfəsində belə bir kitabın təqdimatının keçirilməsinin elmi və siyasi əhəmiyyətini vurğulayıb.

“Azərbaycana daha böyük uğurlar gətirəcək COP29 beynəlxalq səviyyəli tədbirlərin zirvəsində dayanır və Prezident İlham Əliyevin dünyadakı artan siyasi nüfuzunun göstəricisidir”, – deyən AMEA rəhbəri vurğulayıb ki, ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən coxcəhətli, çoxvektorlu, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə çevrilib.

Nəşrin həmmüəllifi Nizami Məmmədov kitab haqqında məlumat verərək bildirib ki, COP29 tədbiri ilə əlaqədar kitab vaxtından əvvəl çap olunub. Qeyd edib ki, üç dildə nəşr olunan kitabın yeniliyi onun inteqrativliyində, fəlsəfi, təbiət elmləri, texnoloji və siyasi məsələlərin üzvi birləşməsindədir. Nəşrdə müasir elmin məlumatlarına əsaslanaraq enerji istehsalının iqlim dəyişmələrində rolu, bu mürəkkəb dinamik prosesdə təbii və antropogen faktorların qarşılıqlı əlaqəsi müəyyən edilir.

Sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri dosent Sadiq Qurbanov çıxış edərək kitabın bəşəriyyətin xilası vasitələrindən biri kimi önəmini vurğulayıb, nəşrin qarşıdan gələn COP29 tədbiri üçün töhfə olduğunu söyləyib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, AMEA-nın akademik-katibi, akademik Arif Həşimov, DİA-nın rektoru, akademik Urxan Ələkbərov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov bildiriblər ki, kitabda müəlliflər bəşəriyyətin ekoloji cəhətdən təhlükəsiz inkişafa keçid yolunda olmasından çıxış edirlər. Qeyd olunub ki, nəşrdə dövlətin enerji siyasətində etdiyi dəyişikliklər yüksək qiymətləndirilir. Üç dildə nəfis şəkildə çapdan çıxmış kitab müasir dövrdə mühüm məlumatların toplandığı qiymətli vəsaitdir.

Sonda nəşrin digər həmmüəllifi, professor Sevda Məmmədəliyeva çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

6 Noyabr Azərbaycan Televiziya və Radio İşçiləri Günüdür

# Milli varlığımızın telegüzgüsü

**…Düz 98 il əvvəlin Bakısı. Noyabrın 6-da respublikamızda ilk dəfə radio verilişlərinin yayımına başlandı. O gün ölkə paytaxtının küçə və meydanlarında qurulmuş, dirəklərdən asılmış reproduktorlardan ilk dəfə "Danışır Bakı" ifadəsi ətrafa yayıldı. İllər boyu camaatın meydanlara toplaşıb radioya qulaq asması o dövrlərin kinokadrlarında öz əksini tapıb.**




Azərbaycan televiziyası yaranandan sonra isə 6 noyabr tarixi, ümumilikdə, teleradionun yaranması günü kimi qeyd olunmağa başlayıb. Radionun 30 yaşı olanda Bakı Televiziya Studiyası ilk dəfə efirə çıxıb. Ekranda gözəl aktrisa Nəcibə Məlikova görünüb və çıxışına "Göstərir Bakı" sözləri ilə başlayıb.

Radionun binasına qalxıram. İndi çoxu həyatda olmayan qayğıkeşlərimi, müəyyən illərdə çiyin-çiyinə çalışdığım ağsaqqal həmkarlarımı xatırlayıram. Azərbaycan efirinin "Bulaq", "Axşam görüşləri", "Yurd yeri" və onlarca başqa cəlbedici proqramları könülləri oxşayıb. Burada səslənən bir sıra ifadələr tezliklə zərb-məsəllərə çevrilib: "Agsaqqal olan yerdə urvat, ağbirçək olan yerdə mürvət olar. Tanrı hər birimizi agsaqqallı, agbirçəkli eləsin…" və sair. Bütün bunlar həm də canlı ana dilimizin saflığının qorunub saxlanmasına xidmət nümunələri olub.

Hüseyn Mehrəliyev, Aqşin Babayev, Nadir Yusifli, Mürsəl Cavadov, Oqtay Şamil, Mailə Muradxanlı, Qaçay Köçərli, Ibrahim Göyçaylı, Hidayət Səfərli, Sabir Axundov, Ayətxan İsgəndərov, Akif Səməd, Möhbəddin Səməd, Mövlud Süleymanlı, Camal Yusifzadə, Zakir Sadatlı kimi tanınan imzalar həm də məhz radionun adına şərəf-şan gətiriblər.

Onlardan biri də Sərhəd Qasımovdur. Həmkarlar ittifaqı komitəsinin sədri olsa da, uzun illər radionun binasında əyləşdiyi üçün onu buranın əsl ağsaqqalı sayırıq. Hazırda təqaüddə olan 83 yaşlı Sərhəd müəllimə zəng edib təbriklərimi çatdırdım. Çox sevindi. Yeri gəlmişkən, vaxtilə onunla bir kollektivdə çalışan yüzlərlə redaktor, müxbir, rejissor, kino və televiziya operatoru, sürücü və digər peşə sahibləri Sərhəd müəllimin təmənnasız xeyirxahlıq və yaxşılıqlar daşıyıcısı kimi xətrini əziz tuturlar. Xatirələrə dalan Əməkdar mədəniyyət işçisi teleradioda fasiləsiz olaraq çalışdığı 50 ilin hədər getmədiyini, bu gün də ürəyinin dogma kollektivlə bir döyündüyünü söylədi. Onunla ən sıx əlaqə saxlayanların Akif Cabbarlı və Mübariz Süleymanlı olduğunu bildirdi.

Televiziyanın yaranması da işıqlı bir tarixdir. İlk veriliş günü diktorun məşhur "Diqqət, göstərir Bakı!" sözlərindən və respublikada müntəzəm yayımın başlanmasını bildirməsindən sonra Mehdi Hüseyn, Süleyman Rüstəm və TV-nin rəhbərlərindən olan Teymur Elçin xalqa təbriklərini çatdırıblar. Ardınca Sara Qədimovanın qısa muğam konserti olub. Kibrit qutusundan bir az böyük ekranda "Bəxtiyar" filmi göstərilsə də, həmin gün texniki səbəblərdən kinonun səsi çıxmayıb. İlk efir sınağında studiyada kamera arxasında mühəndis Sərvər Quliyev, rejissor pultu arxasında isə Kamil Rüstəmbəyov dayanmışdı. Teleqüllənin inşası sona yetmədiyi üçün studiya antennası 44 metrlik adi neft buruğuna bağlanmış və bu üzdən səs siqnallarının ötürülməsində nasazlıq meydana çıxmışdı. Ertəsi günün efirini məşhur aktrisa Hökümə Qurbanova aparıb və həmin filmi yenidən təqdim edib. Bakı studiyası əvvəlcə həftədə 2, sonra 3 dəfə ikisaatlıq proqramla efirə çıxıb…

Xatırlayıram ki, 60-cı illərin əvvəllərində yaşadığımız Sumqayıt şəhərinin "İnşaatçılar" qəsəbəsindəki qonşularımızdan yalnız bir-ikisinin evində televizor vardı. Axşam saat 6 olar-olmaz, uşaqlı-böyüklü hamı bir yerə yığışar, pəncərə pərdələrini kip çəkərdilər ki, içəri işıq düşməsin (guya onda ekran xarab ola bilərdi) və televizoru açardılar. Son xəbərlərdən tutmuş, konsertlərə, hava məlumatına qədər bütün verilişləri izləyərdik. Sonra da qızğın müzakirələr, mübahisələr olardı (O da yadıma düşür ki, 1963, ya da 1964-cü ildə "Neftçi" futbol komandası uduzanda qonşumuz Yəhya dayı hirslənərək, televizoru 2-ci mərtəbədən həyətə atmışdı).



İlk onilliklərdə milli televiziyada "Evrika", "Təbiəti sevənlər", "Səhər görüşləri", "Komediyalar aləminə səyahət", "Dalğa", "Günün ekranı", "7 Gün", "Kinoklubda görüş", "Retro", "Qoşma", "Tələbə klubu", "Çay dəstgahı" kimi proqramlar böyük populyarlıq qazanmışdı. Bura həm də, bir növ, musiqi sənəti məbədgahı idi: ansambllar, xor kollektivləri, simfonik orkestr və sair AzTV-nin nəzdində yaradılıb və çoxsaylı parlaq ulduzların "start" meydanı olub. Bu kollektivlərin bir qismi Mədəniyyət Nazirliyinin tabeliyinə keçirilib, qalanları QSC-də fəaliyyətini davam etdirir. Televiziyanın Səsyazma Evində Brilyant Dadaşova, Teymur Əmrah, Gülyanaq Məmmədova, Sabir Abdullayev, Abbas Bağırov kimi məşhurlar solistdirlər.



Hər dəfə olduğu kimi, yenə də ömrümün 20 ilini çalışdığım milli televiziyaya gəlişimdə, ilk növbədə, gözlərim önündə unudulmazların foto-qalereyası canlandı. Elşad Quliyev, Nahid Hacızadə, Firudin Ağayev, Babək Hüseynoğlu, Rafiq Hüseynov, Sabir Ələsgərov, Valid Sənani, Hicran Hüseynov və digərlərinə Allahdan rəhmət dilədim. Bəxtimizdən, bu gün də sıramızda olan, neçə nəsil televiziya işçilərinin yetişməsində bilavasitə əmək sərf etmiş Aydın Əliyev, Ramiz Həsənoğlu, Vasif Babayev, Roza Tağıyeva, Solmaz Həmzəyeva, Şəmistan Nəzirli, Kamran Əliyev ilə arabir görüşür, zəngləşir, hal-əhval tuturam.

Televiziyada bu gün də 60 illik zəngin təcrübəsini gənclərdən əsirgəməyən ilk baş redaktorum, tanınmış idman şərhçisi Aydın Əliyevi görmək istəyim bu dəfə baş tutmadı. Dedilər ki, rəhbərlik onun haqqında sənədli film çəkdirir, studiyadadır. Yalnız axşam saatlarında ustadla telefon söhbətim oldu. Bayramını təbrik etdim.

– Bu təbrikdən sənə də düşür, – dedi. – Yeri gəlmişkən, yazında qeyd elə ki, vaxtilə rəhbərlik etdiyim idman proqramları baş redaksiyasında mənim təqdimatımla işə başlamış 6 nəfəri – sən də daxil olmaqla, Abbas Əzimov, Fikrət Adıgözəlli, Salar Aslanov, Azad Müzəffərli və Yaqub Nuriyev sonradan "Əməkdar jurnalist" fəxri adına layiq görülüblər. Fəxr edirəm ki, televiziyaya sərf etdiyim illərim hədər getməyib. Bütün həmkarlarıma uğurlar arzulayıram!

Danılmaz faktdır ki, teleradio fəaliyyəti Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafı və təbliğində mühüm rol oynayır. Burada, eyni zamanda, Azərbaycanın siyasi salnaməsi yaradılır və onun ən yaxşı nümunələri dünyada tanıdılır. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin hazırkı rəhbərliyi də zaman-zaman yaradılmış gözəl teleməkan ənənələrini qoruyub saxlayır, milli-mənəvi dəyərlərə ciddi önəm verir, ifrat sərbəstlik və özbaşınalıq kimi halların qarşısını ala bilir.

Eyni zamanda, bu gün Azərbaycanda kifayət qədər müstəqil teleradio şirkətləri fəaliyyət göstərir. Bu ekran-efir məkanı müasir texnologiyalarla, modern avadanlıqla təchiz olunub və dünyanın qabaqcıl teleradio kompaniyaları ilə rəqabət aparmaq qabiliyyətindədir. Lap bu günlərdə isə ANEWZ beynəlxalq televiziya kanalının fəaliyyətə başlaması xəbərini almışıq. Qlobal informasiya və analitika sahəsində alternativ baxış təqdim edən ANEWZ həftənin 7 günü, 24 saatlıq yayım formatında dünyaya Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionunun səsini çatdıracaq. İndiyədək beynəlxalq media platformalarında az eşidilən və fərqli yanaşmalarla təqdim olunan mövzular Bakıdan dünyanın 110-dan çox ölkəsinə yayımlanacaq. Kanalın təmsilçiləri arasında Böyük Britaniya, ABŞ, İspaniya, Portuqaliya, Ukrayna, Türkiyə, İordaniya, Nigeriya, Zambiya və digər ölkələrdən jurnalistika sahəsində geniş təcrübəyə malik peşəkarlar var. ANEWZ həm peyk, həm rəqəmsal, həm də sosial media platformaları vasitəsilə izləyicilərə çatdırılacaq.

Bəli, ən ucqar kənddə belə həyatı televiziya və radiosuz təsəvvür etmək mümkün deyil. Təsadüfi deyil ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda da mükəmməl teleradio yayımı ilə bağlı ciddi addımlar atılır. İlk növbədə, bu sahədə vandalların tam dağıtdığı və ya yararsız hala saldığı infrastruktur yenidən qurulur. Şuşa şəhəri və ətraf ərazilərdə, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilanda ümumölkə televiziya kanallarının açıq yayımı və habelə neçə-neçə yerüstü radio yayımçısının proqramlarının yayımı tam təmin olunub. Laçın, Qubadlı, Kəlbəcər rayonlarının sərt relyefi nəzərə alınaraq, mükəmməl yayım təşkili ilə bağlı işlər bütün ciddiliyi ilə aparılır. Sırf həmin regionda efirlənən "CBC FM" radiosu da var. Müxtəlif dillərdə yayımlanan "Beynəlxalq radio"nun da ilk yayımı hazırda Qarabağ iqtisadi rayonu ərazisində həyata keçirilir.

***Əli NƏCƏFXANLI***
***XQ***

Bura Turandır

**İki-üç gün əvvəl işğalçı ölkənin "Arm.info" xəbər saytında Amerika Erməni Assambleyasının prezidentliyə namizədlər Donald Tramp və Kamala Harrisi şantaj edən bir bəyanatını oxudum. Orada yazılırdı ki, hər iki namizədin ABŞ-da yaşayan erməni seçicilərinin səsinə çox böyük ehtiyacı var: "Ancaq onların heç birinin bizim səsimizi qazanmağa haqqı çatmır. Çünki Azərbaycan Ordusu ermənilərə zülm edəndə, Artsaxdakı tarixi abidələrimiz dağıdılanda bu namizədlərin heç biri səsini çıxarmayıb. Onların heç biri ermənilərin olanının ermənilərə qaytarılmasını tələb etməyib".**

# Türk dünyasının ünlü ünvanlarından biri – Çankaya



Yəqin ki, Trampın və Harrisin tərəfdarları dünyanın hər yerində yalan, böhtan və şantajla baş saxlayan ermənilərə cavab verəcəklər. Ancaq mən "ermənilərin olanının ermənilərə qaytarılması" tələbinə cavab vermək üçün bəzi mənbələrə baxmaq istədim. Bu zaman daha bir yalanla üzləşdim. Erməni deputat yazır ki, biz dünyanın harasında möcüzə xarakterli uğura əl atırıqsa, onu mütləq kimsə əlimizdən alır və öz adlarına çıxırlar. Misal kimi Ankaradakı Çankaya köşkünü göstərir və şərəfsizcəsinə tarixi faktı saxtalaşdıraraq deyir ki, türklər həmin tikintini mənimsəyərək həqiqi sahibinin əlindən zorla alıblar.

Türkiyənin ondan çox, Rusiyanın isə üç mənbəsində oxudum ki, Osmanlı İmperiyası dövründə Anadoluda türklər və digər xalqlarla yanaşı, ermənilər də əmin-amanlıqda yaşayırdılar (yəni söhbət ermənilərin Türkiyə dövlətinə xəyanət etməsindən əvvəlki dövrlərdən gedir). Həmin dövrdə – XIX əsrin son onilliklərində Ankara yaxınlığındakı Çankaya rayonunda yaşayan erməni tacir – zərgər Hovanes Ksapyan özünə möhtəşəm bir bağ evi tikdiribmiş. Tarixin bütün dövrlərində hamıya xəyanət etməyi bacaran ermənilər yeni əsrin əvvəllərində Türkiyə dövlətinə xəyanət edəndə isə Hovanes həmin mülkü Tevfiq Bulqurzadə adlı bir türkə sataraq, özü Konstantinopola (İstanbula) qaçır. Fakt odur ki, onlar hər şeyi satmağı və aradan çıxmağı yaxşı bacarırlar.



Bu tarixçəni xatırlatmaqda məqsədim odur ki, erməni deputat ağ yalan danışır. Hovanesin mülkünü heç kəs əlindən almayıb və ya mənimsəməyib. Bütün türklər – istənilən səviyyədə etiraf edirlər ki, bu sarayı erməni millətindən olan Kasapyan tikdirmiş və sonra satmışdır. Vəssalam!

O ki qaldı Türk dünyasının ən ünlü məkanlarından biri olan Çankaya rayonuna, xatırladaq ki, bu ərazi Türkiyənin paytaxtı Ankaranın ən gözəgəlimli ərazilərindəndir. Türkiyəli həmkarlarımız yazırlar ki, bu rayon Anadolu düzənliyinin ortasında qayalıq bir ərazidə qurulmuşdur. Çankaya dövlətin əksər strukturlarının cəmləşdiyi inzibati mərkəzdir. 2021-ci il statistikasına görə bu rayonun əhalisi 1 milyona çatmışdı. Yəni Türkiyənin ən sıx məskunlaşan bölgələrindən biri məhz Çankayadır.

Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, İtaliya, Rusiya Federasiyası və Ukrayna səfirlikləri, eləcə də bir sıra digər ölkələrin diplomatik missiyaları bu rayonda yerləşir. Bundan başqa, Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyi, Türkiyə Parlamenti, Təhsil Nazirliyi, Kənd Təsərrüfatı və Meşə Nazirliyi, Ekologiya və Şəhərsalma Nazirliyi və digər dövlət qurumları da buradadır. Buradakı Çankaya köşkü 1923-2014-cü illər arasında Türkiyə prezidentlərinin yaşadığı kompleksdir.

Ekspertlər Çankaya bölgəsinin Türkiyənin ən böyük tələbə şəhərlərindən biri olduğunu qeyd edirlər. Burada Türkiyənin ən yaxşı dövlət və özəl universitetləri fəaliyyət göstərirlər. Rayondakı 10 universitetdə yüz mindən çox tələbə təhsil alır. Bölgənin adını daşıyan Çankaya Universiteti də dünyanın ən yaxşı min universiteti sıralamasında yer alan iki türk universitetindən biridir.

O ki qaldı, adıçəkilən köşkə (ruslar onu dvorets – saray kimi qeyd edirlər) xatırladaq ki, Qurtuluş savaşının rəhbəri Mustafa Kamal Atatürk 1919-cu ildə Ankaraya gəldikdən sonra Ankara Kənd Təsərrüfatı Məktəbində məskunlaşmış, 23 aprel 1920-ci ildə Böyük Millət Məclisinin sədri seçildikdən sonra dəmir yolu vağzalı yaxınlığındakı daş evə köçmüşdü. 1921-ci il iyunun əvvəlində Atatürk Çankaya köşkünə köçür və bu ev rəsmi dövlət binası kimi tanınır. Xatırladaq ki, bu köşk Tevfiq Bulqurzadədən xeyirxah insanların topladığı ianələr hesabına satın alınmış və Qurtuluş müəllifinə bağışlanmışdı.

Əlavə edilir ki, 1924-cü ildə memar Mehmet Vedat həmin binanı təmir etmiş, 1926-cı ildə burada istilik sistemi quraşdırılmışdı. Bu ev Atatürk 1932-ci ilin iyununda yeni Çəhrayı malikanəyə köçənə qədər onun əsas iqamətgahı oldu. Yəni bu malikanənin Cümhuriyyət tarixində mühüm rolu olmuşdur. 1950-ci ildə yenidənqurmadan sonra muzey kimi istifadəyə verilmişdir.

Bəs Çəhrayı köşk nədir? Qeyd edilir ki, 1930-cu ildə Atatürk məşhur avstriyalı memar, professor Klements Holzmeysterdən Türkiyədə yeni hökumət iqamətgahının layihələndirilməsini və tikintisini xahiş edibmiş. Holzmeyster 1932-ci ildə yeni malikanənin tikintisini tamamlayıb və yeni binaya Çəhrayı köşk adı verilib. Atatürk 1938-ci ildə vəfat edənə qədər Çəhrayı köşkdə yaşayıb. Sonradan bütün digər türk prezidentləri də orada yaşamışdır.

Xatırladaq ki, qardaş ölkənin indiki dövlət başçısı Rəcəb Tayyib Ərdoğan 2014-cü ildə prezident seçildikdən sonra Beştəpədə Prezident sarayı tikilib və 91 il Türkiyənin inzibati mərkəzi olan Çankaya köşkündən Baş Nazirlik binası kimi istifadə olunmağa başlayıb. Bundan başqa, vitse-prezidentlər də həmin malikanədə keçirilən mərasimlərdə həmkar və qonaqlarını qəbul edirlər.

Yəni Çankaya rayonu kiçik mənada qardaş Türkiyə Cümhuriyyətinin mərkəzi olsa da, geniş mənada böyük Turanın ən ünlü ünvanlarından biridir.

***İttifaq MİRZƏBƏYLİ***

UNUTSAQ, UNUDULARIQ

# Ustad tərcüməçi Cəlil Xəlilov

**İllərdir qəlbimdə bir xatirə yazısı yazıram. Kağıza köçürməyə gələndə sözlər zəif, cümlələr duzsuz alınır. Sanki, haqqında söz demək istədiyim adam yazını oxuyub ötəri üzümə baxacaq və xoşuna gəlmədiyini bu ani baxışdan hiss edib utanacağam. Çünki xoşuna gəlməyən yazını pisləməz, müəllifini sındırmazdı. Baxışı ilə yazıya, hərəkətə, davranışa elə sərrast qiymət verərdi ki, anlayana bəs edərdi. Özü çox yazmağı sevməzdi. İşi çox olurdu. Tərcümələr vaxtının hamısını alırdı. Amma kimliyindən asılı olmayaraq bir müəllif yazısında kiçik bir uğur işartısı görəndə o adamı həvəsləndirməkdə əvəzi yox idi.**

Azərbaycan və rus dillərinin kamil bilicisi, respublikada ictimai-siyasi tərcümə sahəsində təkrarsız mütəxəssis, teatr və incəsənət vurğunu, qayğıkeş müəllim və ailə başçısı Cəlil Əliheydər oğlu Xəlilovun anadan olmasından 100 il keçir. Sağlığında da yubiley təntənələri ilə çox ərköyünləşdirilməyən müəllimimizin bu yubileyi də sükunət içərisində keçdi. Bunun da təqsiri, əslində, bizdə, ustada layiq olduğu iltifatı vaxtında göstərə bilməyən yetirmələrindədir.



Tərcümə işi nə qədər xalqları, ölkələri, mədəniyyətləri bir-birinə yaxınlaşdıran peşə olsa da heç zaman, heç yerdə layiqincə dəyərini almamışdır. Ədəbiyyatda tərcüməçi əməyinə orijinal əsər müəllifləri ilə müqayisədə necə ögey münasibət bəsləndiyinə dair saysız misallar var. Halbuki heç bir ölkə, xalq başqa ölkələrin, tarixin, minillərin sənət incilərini tərcümə etmədən, öz mədəni sərvətlərini başqa dillərə çevirmədən intibaha, inkişafa qoşula bilməz.

Cəlil müəllimin tərcüməçilik fəaliyyəti, əsasən, sovet dövrünə təsadüf etmişdi. Tərcüməçiliyə başlamazdan əvvəlki həyatı da rəngarəng və zəngin olub.



1924-cü il mart ayının 14-də Şəkidə anadan olub. 1931–1940-cı illərdə Şəki şəhəri 2 nömrəli orta məktəbdə təhsil aldıqdan sonra 1940-cı ildə Şəki şəhər ikiillik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsinə daxil olub. 1942-ci ildən 1946-cı ilədək dörd il orduda xidmət edib. Tərxis olunduqdan sonra Şəkidə M. Qorki adına 10 nömrəli orta məktəbdə rus dili müəllimi işləyib. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin rus dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1950-ci ilin oktyabrında Azərbaycan Teleqraf Agentliyində (AzərTAC) tərcüməçi vəzifəsinə işə götürülüb. Elə bu zamandan tərcüməçilik onun əsas peşəsinə, qalan peşələri isə heç vaxt unutmadığı, vaxtaşırı həmkarlarını heyrətləndirəcək şəkildə nümayiş etdirdiyi hobbilərinə çevrilir.

1967-ci ilə qədər AzərTAC-da tərcüməçi-redaktor, direktor müavini kimi fəaliyyət göstərdikdən sonra 1967-ci ildə "Kommünist" (indiki "Xalq qəzeti") qəzeti redaksiyasına işə götürülüb. İki il sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Partiya Tarixi İnstitutuna keçirilib, orada beş il işlədikdən sonra təkrar "Kommunist" qəzeti redaksiyasına qayıdıb və 1986-cı ildə təqaüdə çıxana qədər burada tərcümə şöbəsinin müdiri olmuşdur. Təqaüdə çıxdıqdan sonra da Partiya Tarixi İnstitutunda baş elmi işçi, Dövlət Statistika Komitəsində baş müfəttiş-tərcüməçi, Azərbaycan Beynəlxalq Bankında aparıcı mütəxəssis, referent kimi fəaliyyətini davam etdirib.

"Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb, "Qırmızı Əmək Bayrağı" ordeni və bir çox medallarla, Azərbaycan SSR Ali Sovetinin, SSRİ və Azərbaycan SSR Jurnalistlər ittifaqlarının fəxri fərmanları ilə təltif olunub. "Qızıl Qələm" mükafatı alıb.

Tərcümeyi-halındakı bu faktlar sadəcə quru rəqəmlər deyil, peşəkar mütəxəssisin keçdiyi həyat yolunun güzgüsü, əməyinə verilən dəyərin təzahürüdür. Mənim xəyalımda yazdığım yazının əsas sətirləri isə Cəlil müəllimin böyüklüyünü, təvazökarlığını, həmkarlarına səmimi münasibətini, qadınlara qarşı ağayana davranışını, gənclərə havadarlığını və bir neçə digər müsbət məziyyətlərini əks etdirir.

Azərbaycan Dövlət Universitetinin (hazırda BDU adlanır-red) jurnalistika fakültəsini bitirdikdən sonra tale məni Cəlil müəllimin "doğma məkanı" olan "Azərinform"a gətirdi. Rəsmən "Kommunist" qəzetində işləsə də ictimai-siyasi həyatda baş verən hadisələrin mətbuatda operativ işıqlandırılması zərurəti və əsas materialların rusca olması bir tərcüməçi kimi onu "Azərinform"a gətirirdi. Bu gün intellektual əməyi şox asanlaşdıran bilgisayar, mobil telefonlar olmadığından Moskvadan teletayp vasitəsilə gələn materialları birbaşa Azərbaycan dilində yazan makinaçıya diktə edir, redaktora verib teletayp vasitəsilə radio və televiziyaya, qəzet redaksiyalarına göndərirdik.

Mərkəzi Komitənin üzvü Yefim Qriqoryeviç Qurviçin başçılıq etdiyi "Azərinform"da 70–80-ci illərdə güclü tərcüməçilər işləyirdi. Direktor müavini İsaxan Ömərovun başçılıq etdiyi bu bölmədə İbrahim Növruzov, Cavanşir Həsənov, Azər Rzayev, Ənvər Quliyev, Akif Qəhrəmanov, Fəridə Ağayeva kimi peşəkarlar çalışırdı və onların hamısı Cəlil müəllimin danılmaz nüfuzunu hörmət və saygı ilə qəbul edirdilər. O vaxt tərcüməçiliyin yüksək meyar ölçüsü birinci növbədə Leninin əsərlərinin, rəsmi dövlət sənədlərinin və ensiklopediya məqalələrinin tərcümələri idi.

Yazıların çox operativ olmasına baxmayaraq, heç kimə güzəşt edilmir, cüzi hərf səhvləri belə çox sərt qarşılanırdı. Cəlil müəllim hətta İsaxan müəllimi inandırmışdı ki, mətbəəyə, teletaypa göndərmədən öncə yazını bir redaktor sonuncu dəfə oxumalıdır. Bu işi də çox vaxt mənə həvalə edirdi. Hamıdan gənc olsam da Cəlil müəllimin etimadı məni ürəkləndirir, ustad tərcüməçilərin yazılarında səhv axtarmağa cürət edirdim. Aradabir səhv tapanda da əvvəlcə ona göstərirdim ki, təcrübəli tərcüməçiləri qızışdırmayım. "Yox, – deyirdi, – indi o gözəl xəttinlə səhifənin kənarına yaz (yuxarıda qeyd etdiyim kimi bilgisayarlar yox dərəcəsində idi və təcili materiallarda düzəlişi əlyazması ilə edirdik) və apar ver müəllifə". Onun havadarlığı olmasa, o təcrübəli həmkarların mənə nə toy tutacağını təxmin edirdim.

Keçən əsrin 2-ci yarısında SSRİ Ali Sovetinin sessiyaları müntəzəm olaraq ildə iki dəfə, fövqəladə məsələlərin müzakirəsinə ehtiyac olduğunda növbədənkənar şəkildə 3 və ya 4 dəfə keçirilirdi. Bu tədbirlər haqqında xəbərlər həmin gün "İzvestiya" qəzetində SSRİ-də təmsil olunan 15 respublikanın dövlət dillərində dərc olunur və sessiyanın materialları ən qısa zamanda kitab şəklində çap edilirdi. Azərbaycan qrupunun daimi və nüfuzlu qonağı bu zamanlarda, adətən, Cəlil müəllim olurdu. O, adi üzrə Moskvaya sevimli ömür-gün yoldaşı, yarım əsrə qədər birgə ömür sürdüyü Sənubər xanımla gələrdi. Sənubər xanım da o dövrdə mexaniki çap maşınında ən sürətlə yazan makinaçı idi. Cəlil müəllimin sürətli tərcümə diktəsinə yetişən makinaçı tapmaq özü müşkül məsələ idi.

1981-ci ildə Cəlil müəllimi Moskvaya SSRİ Ali Sovetinin Rəyasət Heyətinə, katibliyin nəzdindəki nəşr şöbəsinə dəvət edirlər. Respublikada məsul işlərin çoxluğunu, təqaüd yaşının yaxınlaşmasını səbəb gətirərək bu təklifdən imtina etdi və həmin vəzifəyə "Azərinform"un təcrübəli işçisi Akif Qəhrəmanovu və gənc mütəxəssis kimi bu sətirlərin müəllifini tövsiyə etdi. Nəticədə, mən həmin şöbədə işə götürüldüm və ildə, ən azı, ildə 2 dəfə Cəlil müəllimlə birlikdə sessiya materialları üzərində işləmək şərəfi qazandım. Qrupun rəhbəri Hamid Rasizadə də Cəlil müəllimi şox sevir, ona korifey kimi münasibət bəsləyirdi. Sonralar həmin şöbədə Cəlil müəllimin oğlu Namiq Xəlilovla birgə çalışdıq.

Cəlil Xəlilov 2004-cü il dekabr ayının 7-də əbədiyyətə qovuşub.

SSRİ tarixə döndü. O tarixin səhifələrində Cəlil müəllim kimi insanların qələminin izi, alnının təri var. O tarixi birtərəfli, yalnız bədbin çalarlarla, mənfi emosiyalarla xatırlamaq doğru deyil. Çünki o bizim istəyimizdən asılı olmadan içərisində yaşadığımız tale yoludur və o yola nur salanlar məhz Cəlil müəllim kimi ziyalılarımız olub.

***Cəfər SADIQ***

**Moskva**

BEYNƏLXALQ HƏYAT

**Dünən milyonlarla amerikalı 2 prezidentliyə namizəddən birinə səs vermək üçün seçki məntəqələrinə getdilər. Onların kimə – hazırkı vitse-prezident, Demokratlar Partiyasının nümayəndəsi Kamala Harrisə, yoxsa sabiq prezident, respublikaçı Donald Trampa üstünlük verəcəklərini müəyyən etmək mümkün deyildi. Çünki hər 2 siyasətçinin reytinqi, təxminən, bərabər idi. Tanınmış CNN sosioloqu Con Kinq telekanalda etiraf edirdi ki, o, indiki kampaniyada olduğu kimi rəqabəti xatırlamır. Ancaq əminliklə demək olar ki, ABŞ tarixində dramatik və qeyri-adi hadisələrdən biri olan cari seçki kampaniyasının nəticələri yalnız Birləşmiş Ştatlar üçün yox, bütün dünya üçün taleyüklüdür.**

# Amerikada siyasi marafonun finişi





Noyabrın 5-də amerikalılar təkcə prezidenti seçmədilər. Konqresə də seçkilər keçirildi. Belə ki, Nümayəndələr Palatasının bütün 435 üzvü və 100 senatordan 34-ü seçici səsi uğrunda mübarizə apardılar. Bundan əlavə, yerli seçkilər də keçirildi. 11 ştatda qubernatorlar seçildi, onların bir çoxunda dövlət və bələdiyyə qanunvericilik məclislərinin tərkibi müəyyən edildi. Təbii ki, bütün bunlar Amerika üçün əhəmiyyət daşıyırdı. Ancaq xarici ölkələri daha çox prezident seçkilərinin nəticəsi, eyni zamanda, Konqresdə qüvvələr balansının necə olacağı məsələləri maraqlandırırdı.




"The Economist" jurnalı amerikalı politoloqların əhəmiyyətli bir hissəsinin dəstəklədiyi bir proqnoz dərc etmişdi. Buna əsasən, Demokratlar və Respublikaçılar yerlərini dəyişəcəklər. İndi birincisi Senatı, ikincisi Nümayəndələr Palatasını idarə edir, amma seçkilərdən sonra bunun əksi olacaq. Eyni zamanda, "The Economist" belə bir ehtimalı da nəzərdən keçirirdi ki, seçkilər nəticəsində partiyalardan biri həm prezidentlik postu uğrunda mübarizədə, həm də Konqresin hər iki palatasında cüzi səs çoxluğu əldə edərək qalib gələcək. Bu ssenarinin mümkünlüyü cəmiyyətdə yüksək dərəcədə qütbləşmə faktı ilə də izah olunur. Adətən, amerikalılar seçkilərdə dövlət başçısını və qanunvericiləri dəqiq ayırırlar. Belə olur ki, seçici bir partiyadan prezidentliyə namizəd, digərindən senator və ya Nümayəndələr Palatasının üzvü üçün səs verir. Bu dəfə bunun belə olmayacağı proqnozlaşdırılırdı. Yəni belə iddia olunurdu ki, demokratlara səs verən amerikalı Kamala Harrisi, respublikaçıları dəstəkləyən seçici isə Donald Trampa üstünlük verəcək.

ABŞ seçiciləri seçimlərindən dramatik dəyişikliklər gözləyirlər. Donald Tramp miqrasiya siyasətinin kəskin şəkildə sərtləşdirilməsinə, bürokratiyanın azaldılmasına və Respublikaçılar Partiyasının mühafizəkar hissəsinin müxtəlif proqram müddəalarının həyata keçirilməsinə – məktəblərdə Darvinin nəzəriyyəsinin tədrisinin ləğvinə qədər kursu təcəssüm etdirirdi. Kamala Harris, öz növbəsində, iki Demokrat administrasiyasının – Cozef Bayden və Barak Obamanın kursunun davamlılığı ilə əlaqələndirilirdi, lakin onun müdafiə etdiyi solçu gündəmə əvvəlkindən daha çox diqqət yetirilirdi. Artıq oktyabr ayında Donald Trampın rəqibinin qələbəsini tanımadığına dair aydın əlamətlər ortaya çıxdı. Ən azı, bir ştatda, Pensilvaniyada respublikaçılar məhkəmədə erkən səsvermənin bütövlüyünə etiraz edirdilər. Mütəxəssislər bu faktın seçkilərdə çox mühüm rol oynayacağını bildirirdilər. Belə iddia olunur ki, 4 il əvvəl olduğu kimi, indiki səsvermədən sonra çox sayda hüquqi çəkişmələr olacaq.

Əlbəttə, bu çəkişmələr ABŞ-nin siyasi sistemini çökdürməyəcək. Amma mürəkkəb geosiyasi şəraitdə yeni prezidentin atacağı addımların dünya düzəninə təsir göstərəcəyi danılmazdır.

***S.ELAY***
***XQ***

# Xankəndidə kardioloji aksiya

**Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərdə "Böyük Qayıdış" Proqramı çərçivəsində əhali arasında kompleks tibbi müayinələri, eyni zamanda, sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyaları davam etdirir.**



Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə tibbi xidmət Xankəndi şəhərində olub. Səhiyyə Nazirliyi akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun tibb heyəti Xankəndi sakinləri üçün kardioloji müayinələr təşkil edib. Aksiyanın məqsədi vətəndaşlar arasında ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin olunmasıdır.

ETKİ-nin kardioloq, nevropatoloq, endokrinoloq, tibb bacısı və laboratoriya üzrə mütəxəssislərindən ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış aparılıb, ExoKQ, EKQ müayinələri keçirilib. Eyni zamanda, qanda şəkər, ekspres üsul ilə xolesterinin səviyyəsi təyin olunub.

Aksiya zamanı 150-dən artıq vətəndaş müayinələrdən keçirilib.

## "ŞƏKİ–BAZAR"ASC səhmdarlarının nəzərinə!

"Şəki-Bazar"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 dekabr 2024-cü il saat 11.30-da Şəki şəhəri, S.Rəhman küçəsi 1, "Şəki-Bazar"ASC-nin binasında keçiriləcəkdir.

Yığıncaqda iştirak etməyiniz xahiş olunur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107 3.1-ci bəndinə əsasən səhmdarlar yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilərlər.

Yığıncağın gündəliyi:

1. "Şəki-Bazar" ASC-nin 2023-cü ildəki maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi.
2. 2023-cü ilin maliyyə nəticələrinə görə maliyyə- təftiş komissiyasının hesabatı və mühasibat balansının təsdiq edilməsi.
3. 2023-cü ilin yekunlarına görə mənfəətdən səhmdarlara ayrılmış dividend haqqında məlumat.
4. Digər məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq üçün "Şəki-Bazar"ASC-nin idarə heyətinə müraciət etmək lazımdır.

Əlaqə telefonu– (02424) 4-35-99.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**"Azərbaycan Milli Konservatoriyası" PHŞ**

*aşağıdakı kafedrada vakant vəzifəyə*

Müsabiqə Elan Edir

"Dirijorluq" kafedrasına: 1.Kafedra müdiri vəzifəsinə.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 245 (30649) 6 noyabr 2024-cü il, çərşənbə

## İdman xəbərləri

# Veteran cüdoçumuz 12-ci dəfə Dünya çempionu olub

**Azərbaycanın veteran cüdoçusu Fərhad Rəcəbli (90 kq) Amerika Birləşmiş Ştatlarının Las-Veqas şəhərində keçirilən dünya çempionatının qalibi olub.**



Təmsilçimiz M8 yaş kateqoriyası üzrə bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu qələbə ilə F.Rəcəbli usta cüdoçular arasında 12 qat dünya çempionu olub.

# Ən güclü voleybol komandaları müəyyənləşib

**Kişi və qadın voleybolçular arasında Azərbaycan Kubokunun qalibləri bəlli olub.**



Kişilər arasında keçirilən yarışda "Xilasedici" qalib adını qazanıb. Qadın voleybolçuların mübarizəsində isə "Abşeron" komandası 1-ci yeri tutub.

***L.AZAD***
***XQ***

# Abşeronda yağmursuz, bölgələrdə yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**



Mülayim şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 6-8°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunundan 774 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 10-15° isti, dağlarda gecə 0-5°, yüksək dağlıq ərazilərdə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Maraq dünyamız

# Taciklərin hədiyyə bıçaqları bütün dünyanı gəzir



**Düşənbədəki məşhur ticarət mərkəzlərinin birində görünüşcə slavyan olduğunu təxmin etdiyim turist yerli adamlardan "suvenir tacik bıçağı"nı haradan ala biləcəyini soruşurdu. Bu istək mənə də maraqlı gəldi. Turistin belarus olduğunu öyrəndim. Dedi: "Buradan qayıdan dostlarım həmin hədiyyə bıçaqları Minskin tanınmış ziyalılarına bağışlayıblar. Mən də elə hədiyyələr almaq istəyirəm". Bazardakılar Vovaya dedilər ki, elə bıçaqlar İstaravşan şəhərində hazırlanır. Turistlər həmin suvenirləri elə oradaca aldıqlarına görə, Düşənbəyə az-az gətirilir.**

Bəs İstaravşan haradır? Öyrəndim ki, Düşənbədən 270 kilometr aralıda, dəniz səviyyəsindən 1450 metr hündürlükdə yerləşən bu şəhər-muzey təkcə Tacikistanın yox, həm də Mərkəzi Asiyanın ən qədim ticarət və sənətkarlıq mərkəzlərindən biridir. 2002-ci ildə bu qədim diyarın 2500 yaşı tamam olubmuş. Orada çoxlu sənətkarlar var. Elə Tacikistanın ən məşhur "kordsozi"ləri (bıçaq ustaları) də həmin şəhərdədirlər. Buraya gələn yerli və xarici turistlər yerli ustaların hazırladıqları bıçaqları mütləq alırlar.

Bakıya qayıdandan sonra bu şəhər haqqında internetdə verilmiş bəzi məlumatlara nəzər saldım. "Sizin Tacikistan" https://your.tj/nastojashhij-nozhedel-kto-i-kak-v.../ elmi-kütləvi saytında oxudum ki, İstaravşanın ən məşhur bıçaq ustalarından biri də maraqlı və qeyri-adi bıçaqlar hazırlayan İbrahim Mirzəyevdir. Abdulqafar Şədiyevin sayt üçün bu usta haqqında hazırladığı materialın ilk cümlələrindən biri belədir ki, o, hüquqşünas olmaq istəsə də, atası İbrahimin də nəslin sənət (dəmirçilk) ənənəsini davam etdirməsini istəyib. Nəticədə, İbrahimi dünyanın bir çox ölkələrində tanıyırlar. Hüquqşünas olsaydı, ancaq Tacikistanda tanınacaqdı.

"Diqqətlə fikirləşdikdən sonra qərara gəldim ki, atamın yanında olmaq və bıçaqçılar sülaləsini davam etdirmək mənim üçün daha vacibdir. Dəmirçiliyi seçdiyimi görən atam çox sevindi, xeyir-dua verdi. Sənətlə dolanmağa başladığım gündən 45 il keçir".



Tacikistanda danışırlar ki, əksər alıcılar bıçaqları dostları və ailəsi üçün hədiyyə olaraq alırlar. Qeyri-adi dəstəyi və forması olan bıçaqlar, həqiqətən, ev bəzəyidir. Lakin bəzi insanlar arasında belə bir fikir var ki, bıçaq hədiyyə etmək yaxşı fikir deyil. Usta İbrahim isə başqa fikirdədir: "Mən razılaşa bilmirəm ki, bıçaq hədiyyə etmək pis əlamətdir. Çünki bıçaq bolluq, sərvət və yolun açılması rəmzi olaraq verilir. Əgər kimsə bıçaq hədiyyə edirsə, adət-ənənələrə görə, əvəzində nəsə verməlidir. Məsələn, sizə bir sikkə veririk. Mən bunu sevirəm. Oxşar ənənə başqa yerlərdə də var".

Bu yazını oxuyanda mən başqa bir maraqlı fakta da rast gəldim. Belə ki, ən dəyərli bıçaq dəstəkləri maral, dağkeçisi və digər çöl heyvanlarının buynuzundan hazırlanır. Mən elə düşündüm ki, bıçaq dəstəyi hazırlamaq üçün dağdakı heyvan öldürülməlidir. Ancaq o yazıda öyrəndim ki, dağlarda yaşayan cütdırnaqlılar müəyyən müddətdən sonra "buynuzunu dəyişir". Yəni buynuz düşür və yerinə yeni, daha möhkəm buynuzlar çıxır. Bıçaq ustaları isə dağlara, dərələrə düşən həmin buynuzları tapıb toplayır və qiymətli sənət əsərinə çevirirlər: "Biz dağ keçisinin – arqarın buynuzlarını Bədəxşan sakinlərindən alırıq. Bu heyvanın bir özəlliyi var: müəyyən vaxtda buynuzlarını dəyişir. Biz də onlardan qılınc və bıçaq sapı düzəldirik".

Daha bir maraqlı məqam ondan ibarətdir ki, bıçaq dəstəyinin üstünə müştərinin istəyi ilə klassiklərin, məsələn, Hafizin şeirlərindən sətirlər həkk olunur. Yaxud müştərinin özünün və ya bu bahalı bıçağı almaq üçün vəsait ayıran şəxsin adının göstərilməsi də mümkündür. Eyni zamanda, hədiyyənin haradan alındığı da yazılır. Bütün bunlar isə istaravşanlı sənətkarlar üçün dolayı reklam rolunu oynayır.

Taciklərin "Kordsozi usto İbrohim" (bıçaq hazırlayan usta İbrahim) kimi olduqca sadə şəkildə qiymətləndirdikləri bu sənətkar Tacikistan Respublikasının Mədəniyyət əlaçısı, Tacikistan Rəssamlar İttifaqının üzvü, Tacikistan Sənətkarlar İttifaqının üzvüdür. Milli sənətkarlığın inkişafı və qorunub saxlanmasına və ölkənin mədəniyyətinə verdiyi töhfəyə görə Tacikistan Respublikasının Fəxri Fərmanı ilə təltif edilib. Usta İbrahim, eyni zamanda, Avropa və Asiyada keçirilən müxtəlif sərgi və tədbirlərdə iştirakına görə bir çox diplom və digər mükafatlara layiq görülüb.

***İ.QAÇAYEV***

# İçərişəhərdə muzeylərin iş saatı uzadılır

**COP29 zamanı İçərişəhərdəki muzeylərin iş saatı uzadılacaq. Bakıda keçiriləcək tədbir çərçivəsində İçərişəhərin muzeyləri, turizm məkanları və ictimai yerləri qonaqlar üçün uzadılmış iş rejiminə uyğun olaraq fəaliyyət göstərəcək.**




Qız Qalası, Şirvanşahlar Sarayı Kompleksi, Bəylər məscidi, Yeraltı hamam və Bakı Fotoqrafiya Evi göstərilən tarixlərdə səhər saat 10-dan axşam saat 10-dək turistləri qəbul edəcək.

Qeyd edək ki, Turist Məlumat Mərkəzi tərəfindən həmin vaxtda ziyarətçilərə piyada və elektromobil ilə qrup və ya fərdi turlar, İçərişəhərin tarixi məkanlarını daha yaxından öyrənmək istəyən qonaqlar üçün isə müxtəlif dillərdə bələdçi xidməti təklif ediləcək.

Azərbaycan memarlığının nadir incisi olan İçərişəhərdə yüzlərlə tarixi abidə var. Bunlardan 4-ü dünya, 28-i yerli əhəmiyyətlidir. Şəhər içərisində unikal şəhər olan İçərişəhərdə 1300-dən çox ailə yaşayır, bir neçə muzey, 18 otel, 100-dən artıq ticarət və iaşə obyektləri fəaliyyət göstərir.

***S. FİDAN***
***XQ***



# Sümükləri bərkidən "yaşıl" süd

**İnək südündə zülal və kalsium var, lakin inəyin südü insan orqanizmi tərəfindən yaxşı mənimsənilmir. Əgər süd sağılırsa, o artıq oksigenlə təmasa girdiyindən tərkibi dəyişir: zülal turşuyur, bu isə orqanizmə heç bir fayda vermir.**

Mütəxəssislər tərkibinə görə, inək südündən geri qalmayan, əsil zülal və kalsium mənbəyi olan "yaşıl süd" iksirini hazırlamaq üçün xüsusi resept hazırlayıblar.

Reseptə görə, 10 dəstə ispanaq, 1 dəstə kahı 1 dəstə nanə və 2 stəkan su götürülür.

Göyərtilər yuyulur, suyu süzülür, blenderə qoyulub, üzərinə otaq hərarətində su əlavə edilir. Blenderdən keçirildikdən sonra tənzifdən süzülür və elə təzə-təzə içilir.

Bu içki orqanizmin hüceyrələrini zülalla təmin edir, eyni zamanda, zəifləmiş immuniteti xeyli möhkəmləndirir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Şəhid övladları üçün aqrotur

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində "Aqrar tədarük və təchizat" ASC və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Şəhərdən Kəndə" layihəsi çərçivəsində şəhid övladları üçün aqrotur təşkil edilib.**



Aqroturda Lənkəranın İstisu qəsəbəsində yerləşən "Sitrus vadisi" təsərrüfatının sahibi şəhid övladlarına sitrus bağının salınması, ağaclara qulluq, meyvə yığımı zamanı diqqət edilməli qaydalar barədə ətraflı məlumat verib.

Bağa ekskursiya zamanı uşaqlar feyxoa, naringi yığımında iştirak edib, həmçinin cənub regionuna məxsus təamların dadına baxıblar. Bundan başqa, uşaqlar üçün müxtəlif əyləncələr təşkil olunub, müsabiqələr keçirilib.

Sonda "Şəhərdən Kəndə" layihəsi çərçivəsində şəhid övladlarına müxtəlif hədiyyələr təqdim olunub.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2563
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00